Xalqın qəzeti!

# Xalq qəzeti

№ 09 (30703) 16 yanvar 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## “Xartiyaçılıq”

*Erməni avantürizimi və Cənubi Qafqazda yeni müharibə riski*

**“Gələcəkdə onlar hansı siyasi münasibətləri qurmaq istəyirlər, onlar öz gələcəyini regional təhlükəsizliyin əsas oyunçuları kimi, Rusiya və İran oxu ətrafındamı qurmaq istəyirlər? Hesab edirəm ki, bu, həmçinin Ermənistan və Azərbaycan hökumətləri üçün də qeyri-sabit və arzuolunmazdır. Hazırda fərqli seçim etmək imkanları var. İndi biz bunu onlar və bu mövzuda yüksək səviyyəli əlaqələr üçün aydınlaşdırırıq”.**

Bu fikirləri hələ 2023-cü ilin noyabrında ABŞ Dövlət Departamenti rəhbərinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O`Brayn Birləşmiş Ştatlar Konqresinin Nümayəndələr Palatasında Qarabağdakı vəziyyətə dair keçirilmiş dinləmələrdə Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələyə münasibət bildirərkən səsləndirmişdi. Artıq ABŞ və Ermənistan arasında strateji tərəfdaşlıq haqqında xartiya imzalanıb. Deməli, rəsmi İrəvan kursunu



daha aşkar formada bəyan edib. Yazımız bu barədə olacaq. Xartiyanın imzalanmasından sonra Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın söylədikləri üzərində də dayanacağıq. Nəzərə alaq ki, erməni nazirin sənəddən ruhlandığı və özünü amiranə tərzdə apardığı diqqətdən yayınmır.

**(ardı 3-cü səhifədə)**

# Azərbaycanın beynəlxalq qurumlara rəhbərliyi qlobal etimadı gücləndirir

*Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib.**

Kayrat Sarıbay ölkəmizə Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyi dövründə gəlməsindən məmnunluğunu bildirdi. Ölkəmizin sədrlik prosesinin uğurla davam etdirildiyini deyən qonaq bütövlükdə Azərbaycanın çoxtərəfli diplomatiyada zəngin təcrübəsinin olduğunu qeyd etdi. Kayrat Sarıbay bu xüsusda ölkəmizin BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası və digər beynəlxalq təşkilatlarda uğurlu sədrliyini vurğuladı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyin də bu müstəvidə aparıldığını dedi. O, Azərbaycan tərəfindən konseptual sənədin təqdim olunduğu və bu sənəddə təşkilatın gələcək inkişafı ilə bağlı, həmçinin ölkələr arasında əməkdaşlığın və etimadın gücləndirilməsi üçün geniş sahəni əhatə edən təkliflərin əksini tapdığını bildirdi.

Prezident İlham Əliyev də öz növbəsində ölkəmizin təşkilata sədrliyinin uğurla davam etdirildiyini deyərək, üzv dövlətlər arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi, təşkilatın institusional inkişafı və təşkilat çərçivəsində müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərin bundan sonra da göstəriləcəyini qeyd etdi. Bu xüsusda gənclər, media, nəqliyyat bağlantıları sahələrində və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişafının önəmi vurğulandı. Dövlətimizin başçısı Azərbaycan tərəfinin bu təşkilata sədrliyə çox məsuliyyətlə yanaşdığını bildirərək, ölkəmizin öz növbəsində bu formatın daha da möhkəmlənməsi işinə töhfəsini verəcəyinə əmin olduğunu dedi. Prezident İlham Əliyev ölkəmizin sədrliyi dövründə nəzərdə tutulan işlərin həyata keçirilməsində Azərbaycanla təşkilat arasında fəal birgə əməkdaşlığın aparılmasının zəruriliyini bildirdi. Dövlətimizin başçısı bu təşkilatın Asiya regionunda etimadın gücləndirilməsi və ölkələrarası əməkdaşlığın inkişafı baxımından əhəmiyyətli təsisat olduğunu bir daha diqqətə çatdırdı.

Qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29-un yüksək səviyyədə keçirildiyini, bu tədbirə hazırlıqla bağlı qısa müddət ərzində Azərbaycan tərəfindən böyük işlərin görüldüyünü və COP29 nəticəsində qlobal iqlim gündəliyi ilə əlaqədar çox vacib qərarların qəbul edildiyini vurğulayaraq bu münasibətlə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı da öz növbəsində COP29-a hazırlıqla bağlı vaxtın az olmasına baxmayaraq, lazımi tədbirlərin görüldüyünü dedi, həmçinin tədbirdə qlobal iqlim gündəliyi ilə bağlı çox əhəmiyyətli qərarların qəbul edildiyini vurğuladı, bu xüsusda yeni maliyyə hədəfi, karbon bazarı və digər məsələlər üzrə önəmli qərarların qəbuluna toxundu.


## AQEM-ə sədrliyin hədəfləri



Səhifə ⇨ 2

## Ermənistan milli nifrət siyasətinə son qoymalıdır



Səhifə ⇨ 2

## Səfir Kopırkinə daha bir etiraz notası verildi



Səhifə ⇨ 9

## Qrenlandiya: Ən böyük ada “nifaq alması”na dönür?



Səhifə ⇨ 11

## Metapnevmovirus qanad açır



Səhifə ⇨ 8

## Köhnə avtomobillər yollara “əlvida” deyir



Səhifə ⇨ 7

## Xocalı – yurd sevgisindən od alan ocaqlar



Səhifə ⇨ 8

## Ermənistan Konstitusiyasını nə vaxt dəyişdirəcək?



Səhifə ⇨ 3

## Lefortovodan “xüsusi məktub”



Səhifə ⇨ 9


# Neft-qaz yataqlarımız ölkəmizə zənginlik gətirir

*Ötən il 29,1 milyon ton neft və 50,3 milyard kubmetr qaz hasil edilib*

**Energetika Nazirliyinin yaydığı operativ məlumatlara əsasən, 2024-cü ildə Azərbaycanda 29,1 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Hasilatın 16,8 milyon tonu “Azəri–Çıraq–Günəşli” yataqlar blokunun, 4,2 milyon tonu (kondensat) “Şahdəniz” və 0,6 milyon tonu (kondensat) “Abşeron” yataqlarının payına düşüb. İl ərzində Azərbaycan Dövlət Neft Şirkəti üzrə neft və kondensat hasilatı isə 7,5 milyon ton təşkil edib.**



Nazirliyin məlumatına əsasən, ötən ilin dekabr ayında ölkə üzrə gündəlik neft (kondensatla birlikdə) hasilatı 80 min 776 ton (609 min barel) olub. Bunun da 65 min 987 tonunu (487 min barel) xam neft, 14 min 789 tonunu (122 min barel) kondensat təşkil edib. Bütövlükdə isə, Azərbaycanda karbohidrogenlərin sənaye üsulu ilə çıxarılmasına başlandığı vaxtdan indiyədək quru və dəniz yataqlarından, təqribən, 2 milyard 235 milyon ton neft və kondensat hasil olunub. İşlənmənin əvvəlindən qurudakı yataqlardan 990 milyon tondan artıq neft çıxarılıb. Ümumi hasilatın əksər hissəsi isə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən zəngin neft yataqlarının payına düşüb.

1949-cu ildə dünyada ilk dəfə açıq dənizdə neftçıxarmanın əsası qoyulduğu “Neft daşları” yatağının istismara daxil edilməsindən ötən 75 il ərzində Xəzər yataqlarından 1 milyard 245 milyon tondan çox neft və kondensat çıxarılıb. 2025-ci il yanvarın 1-dək “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan (bütün istismar dövründə) 601,5 milyon ton neft, “Şahdəniz” yatağından isə 48,7 milyon tona yaxın kondensat hasil olunub. Neft və kondensatın 648,3 milyon tonu ixrac edilib.

Mütəxəssislərin proqnozlarına görə, hazırda Azərbaycanın çıxarıla bilən qalıq neft ehtiyatları 1 milyard tondan artıqdır ki, bunun da əksər hissəsi dəniz yataqlarının payına düşür. Bununla belə, son illər ölkəmizdə neft hasilatında azalma müşahidə olunur. Bu da ümumi iqtisadi inkişafa təsirsiz ötüşmür. Təsadüfi deyil ki, ötən il sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədə Prezident İlham Əliyev son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə neft hasilatının ildən-ilə azaldığını, bunun da ölkənin ümumi iqtisadi inkişaf templərinə mənfi təsir göstərdiyini qeyd edib.

**(ardı 7-ci səhifədə)**

# "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Nizamnaməsinin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin idarəetməsinə veriləcək dövlət müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin siyahısı"nda nəzərdə tutulan dövlət müəssisələri Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON-un) strukturuna daxil edilsin.

**3** "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599 (Cild I) aşağıdakı məzmunda 8-2-ci hissə əlavə edilsin:

"8-2. Bu Fərmanın müddəaları Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON-un) öz əmlakına və onun idarəetməsinə verilmiş dövlət müəssisələrinə, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinə və publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON-a) tətbiq edilmir.".

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 yanvar 2025-ci il**

# "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Braziliya Federativ Respublikasının Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2024-cü il sentyabrın 13-də Kuyaba şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Braziliya Federativ Respublikasının Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

**2** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Braziliya Federativ Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 yanvar 2025-ci il**

# Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə dinlərarası həmrəyliyin daha da inkişaf etdirilməsi, dini maarifləndirmə işinin müasir tələblərə uyğun şəkildə qurulması və mütərəqqi mənəvi-əxlaqi dəyərlərin təbliği sahəsində fəaliyyətin gücləndirilməsi məqsədilə **qərara alıram:**

**1** Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3,0 (üç) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350,0 (üç yüz əlli) min manat, Sefarad yəhudilərinin Bakı dini icmasına 350,0 (üç yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350,0 (üç yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350,0 (üç yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 350,0 (üç yüz əlli) min manat ayrılsın.

**2** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 yanvar 2025-ci il**

# Ermənistan milli nifrət siyasətinə son qoymalıdır

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistanın Azərbaycan xalqına qarşı irqi ayrı-seçkilik və nifrət zəminində həyata keçirdiyi etnik təmizləmə və deportasiya siyasəti ilə bağlı beynəlxalq insan hüquqları təşkilatlarına, xarici ölkələrin ombudsmanlarına və milli insan hüquqları təsisatlarına açıq məktub ünvanlayıb.**



Məktubda bildirilir ki, Ermənistanın Azərbaycan xalqına qarşı irqi ayrı-seçkilik və nifrət zəminində həyata keçirdiyi soyqırımı, etnik təmizləmə və deportasiya siyasəti əsrlər boyu davam edib və müxtəlif tarixi dövrlərdə açıq şəkildə özünü göstərib: "Bu məkrli siyasətin 1990-cı illərdə daha da genişləndirilməsi, həm vəzifəli şəxslər, həm də fərdi insanlar, qruplar və təşkilatlar vasitəsilə azərbaycanlı əhaliyə qarşı etnik nifrətə əsaslanan, genişmiqyaslı və sistematik zorakılıq, soyqırımı aktlarının törədilməsi, Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində yaşayan yüz minlərlə soydaşımızın öz tarixi ata-baba yurdlarından zorla qovulmasına səbəb olub".

Sənəddə qeyd edilir ki, Ermənistanın iştirakçısı olduğu beynəlxalq müqavilələrə zidd olaraq həyata keçirdiyi bu cinayət aktları ölkənin keçmiş liderləri Levon Ter-Petrosyan, Robert Koçəryan və Serj Sarkisyan tərəfindən dəfələrlə etiraf edilib. Bu etiraflar Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərin geniş miqyasını və sistematik şəkildə həyata keçirildiyini aydın şəkildə göstərir: "Son günlər Levon Ter-Petrosyanın mediada və sosial şəbəkələrdə yayılan videolarında söylədiyi fikirlər də Qərbi Azərbaycandan soydaşlarımızın zorla qovulması, Qarabağ və ətraf ərazilərdə törədilən soyqırımlarının məhz onların rəhbərliyi altında məqsədli olaraq həyata keçirildiyini bir daha təsdiqləyir".

Məktubda deyilir ki, beynəlxalq sənədlər Ermənistanın üzərinə, onun ərazisindən qovulmuş azərbaycanlıların hər hansı bir ayrı-seçkiliyə yol verilmədən, sülh yolu ilə öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına şərait yaratmaq da daxil olmaqla, onların hüquqlarının bərpası və qorunması sahəsində konkret öhdəliklər qoyur.

Azərbaycan ombudsmanı beynəlxalq insan hüquqları təşkilatlarının nəzərinə çatdırır ki, vaxtilə indiki Ermənistan ərazisindəki tarixi torpaqlarından qovulmuş azərbaycanlıların öz vətənlərində yaşamaq hüququna malik olmaları əzəli, toxunulmaz, mütləq və həlledici bir faktor kimi qəbul edilərək təmin olunmalıdır. Ermənistanın milli hüquqi çərçivəsi azərbaycanlılar üçün əlçatan olması məqsədilə təkmilləşdirilməli, onların bərabər hüquqları təmin olunmalı, ana dillərində təhsil almaq, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında Azərbaycan dilindən istifadəyə imkan yaradılmalıdır.

**XQ**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Ötən il dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında "Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin qəzaya uğraması nəticəsində 38 nəfərin həlak olması və bir çox insanın yaralanması barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Bu ağır itki ilə əlaqədar Myanma İttifaqı Respublikasının xalqı adından və şəxsən öz adımdan Zati-alinizə və Azərbaycan xalqına, xüsusilə də həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Min Aung HLAİNG,***
***Myanma İttifaqı Respublikasının Dövlət İdarə Şurasının Sədri***

***

**Dost Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev!**

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

"Azərbaycan Hava Yolları" şirkətinə məxsus sərnişin təyyarəsinin Qazaxıstan ərazisində qəzaya uğraması və nəticədə insanların həlak olmaları, yaralanmaları Küveyt Dövlətində dərin hüzn və kədərə səbəb olmuşdur.

Zati-aliləri, Sizə və dost Azərbaycan xalqına, həlak olanların ailələrinə başsağlığı verir, Uca Allahdan həyatını itirənlərə rəhmət diləyir, "məkanları cənnət olsun" deyir, yaralananlara tezliklə sağalmalarını arzulayıram.

**Dərin hörmətlə,**

***Şeyx Sabah Xalid əl-Hamad əl-Mübarək ƏL-SABAH,***
***Küveyt Dövlətinin Vəliəhdi***

***

**Hörmətli cənab Prezident!**

Keçən il dekabrın 25-də Bakı-Qroznı reysini həyata keçirən təyyarənin qəzaya uğraması nəticəsində insanların həlak olması barədə xəbər məni dərindən kədərləndirdi.

Sizə, Azərbaycan xalqına və bu dəhşətli hadisə nəticəsində zərər görən ailələrə dərin hüznlə başsağlığı verirəm.

Biz Azərbaycanın qardaşları olaraq faciənin kədərinə şərikik və bu çətin zamanda düşüncələrimiz həlak olanların ailələri ilədir. Əminik ki, qəzada həyatını itirənlərin xatirəsi heç vaxt unudulmayacaq.

**Dərin hörmətlə,**

***Nəcməddin Bilal ƏRDOĞAN,***
***Dünya Etnoidman Konfederasiyasının sədri***

# AQEM-ə sədrliyin hədəfləri



**Yanvarın 15-də xarici işlər naziri Ceyhun Bayramov Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Baş katibi Kayrat Sarıbay ilə görüşüb.**

Görüş zamanı tərəflər Azərbaycanın AQEM-də 2024-2026-cı illər üzrə sədrliyinin prioritet istiqamətlərini, təşkilat çərçivəsində mövcud işləri və perspektivləri müzakirə ediblər.

Ceyhun Bayramov ideya müəllifi kimi Qazaxıstanın təşkilatın inkişafında əhəmiyyətli rol oynadığını diqqətə çatdırıb. Sədrliyimiz dövründə təşkilatın beynəlxalq rolunun və səmərəliliyinin daha da artırılması, üzv ölkələr üçün praktiki faydanın genişləndirilməsi, institusional inkişafın təmin edilməsinin vacibliyini qeyd edib. Təhsil, iqlim dəyişmələri, gənclər, media, nəqliyyat bağlantıları və bir çox digər istiqamətlərdə əməkdaşlığın inkişafının önəmi vurğulanıb. Nazir COP29 sədrliyimiz çərçivəsində qlobal iqlim gündəliyi ilə bağlı çox əhəmiyyətli qərarların qəbul edildiyini nəzərə alaraq, iqlim dəyişmələri ilə mübarizə sahəsində AQEM çərçivəsində layihələr üçün potensialın olduğunu bildirib.

Baş katib Kayrat Sarıbay Azərbaycana səfər proqramının kifayət qədər geniş olduğunu, o cümlədən aidiyyəti qurumlarla keçiriləcək görüşlərinin AQEM üçün əhəmiyyət kəsb edən mövzular üzrə ətraflı məlumatın əldə edilməsi və Azərbaycanın sədrliyinin prioritetlərinin müzakirəsi baxımından faydalı olacağını ifadə edib.

***XQ***



# Hərbçilərimiz "Qış təlimi - 2025"də

**Azərbaycan ilə Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq, Türkiyənin Qars şəhərində keçiriləcək "Qış təlimi - 2025" birgə təliminə hazırlıq məqsədilə Azərbaycan–Türkiyə dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, Əlahiddə Ümumqoşun Ordu (ƏÜO) komandanlığından bayrağı qəbul edən bayraq taqımı Naxçıvan şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə - Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru yürüşə başlayıb. Eyni zamanda, Türkiyənin bayraq taqımı da Qars şəhərindən mərasimin keçiriləcəyi ünvana doğru yürüş edib.

"Ümid" körpüsündə Azərbaycan və Türkiyə respublikalarının dövlət himnləri ifa edildikdən sonra bayraqların dəyişmə mərasimi olub.

Sonra təlimə cəlb ediləcək şəxsi heyət və hərbi texnikaların təlim yerinə yola salınması münasibəti ilə keçirilən tədbirdə ƏÜO komandanı, general-mayor Kənan Seyidov çıxış edərək birgə hərbi təlimlərin əhəmiyyətindən danışıb, təlim iştirakçılarına uğurlar arzulayıb.

Təlimin planına əsasən yaşayış məntəqələrində, çətin relyefli ərazilərdə, dərin qar və şiddətli soyuqlarda müxtəlif təlim-döyüş tapşırıqlarının yerinə yetirilməsi nəzərdə tutulub.

***XQ***

# “Xartiyaçılıq”

(əvvəli 1-ci səhifədə)

ABŞ–Ermənistan strateji tərəfdaşlıq xartiyası, ikincinin ümumən 2018-ci ildən bəri götürdüyü Qərbyönümlü siyasi xəttin nəticəsidir. O xəttin ki, Cənubi Qafqazı bütövlükdə Qərb təsir zonasına daxil etməyə hesablanıb. Bu plan olduqca təhlükəlidir. Təkcə ona görə yox ki, onda regionda ənənəvi maraqları heçə saymaq əzmi var. Həm də o səbəbdən ki, xartiya mahiyyət etibarilə erməni avantürizminin qorunmasına hesablanıb. Söhbət faşizm ideologiyasına əsaslanmış avantürizmdən gedir. Deməli, Qərb regionda sülhün formalaşmasını istəmir, erməni məsələsini diri saxlamaqla, onilliklərdən bəri tutduğu ənənəvi bölücülük xəttinə sadiqlik nümayiş etdirir.

Əslində, ABŞ – Ermənistan tərəfdaşlıq xartiyasının ərsəyə gələcəyini proqnozlaşdırmaq mümkün idi. Ötən il ABŞ – Avropa İttifaqı-Ermənistan yüksək səviyyəli görüşü keçirilmişdi. Həmin görüş də Qərbin erməni təəssübkeşliyi xəttinin vurğulanması idi. Təməs zamanı Ermənistanın təhlükəsizliyinin qorunması ön planda dayanırdı. Mövcud istiqamətdə addımların atıldığını gördük. Məsələn, İrəvanın silahlandırılması vüsət aldı. Daha bir nəticə də o oldu ki, Ermənistan Azərbaycanla sülhdən uzaqlaşdı, düşdüyü illüziya bataqlığındakı yerini möhkəmləndirdi.

Bəli, ABŞ – Ermənistan xartiyası İrəvanın illüziya bataqlığındakı yerini bir qədər də möhkəmləndirəcək. Elə Mirzoyanın fikirləri də bunun təsdiqidir. Hər halda, dolayısı ilə Ermənistanın qonşu dövlətlərlə sərhədlərini ABŞ hərbçilərinin qorunması sıradan məsələ sayıla bilməz. Deməli, Rusiya sərhədçiləri çıxır, Birləşmiş Ştatların hərbi birləşmələri gəlir. Görünür, Vaşinqton Cənubi Qafqaz uğrunda savaşı qətiləşdirib. Bunun başqa adı yoxdur.

Onsuz da dünyada beynəlxalq hüquq işləmir. Bu gün Amerikada Danimarkanın Qrenlandiyanın təhlükəsizliyini təmin etmək üçün heç bir iş görmədiyi iddiası ilə ABŞ-ın adaya sahiblənməsinin zəruriliyi ciddi şəkildə bildirilirsə, deməli, beynəlxalq hüququn prinsip və dəyərləri həqiqətən əhəmiyyətini itirib. Belə nəticəyə gəlirik ki, Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsi zamanı barəsində söz açdığı yeni dünya düzəninin formalaşdırılmasına başlanılıb. O zaman əvvəlki iki belə tendensiyanı yada salaq. Yəni, Birinci dünya müharibəsindən sonra formalaşmış Versal – Vaşinqton və İkinci dünya müharibəsindən sonrakı Potsdam sistemlərini. Onu da nəzərə alaq ki, 1945-ci ildən başlanmış “soyuq müharibə” mahiyyət etibarilə əvvəlki sistemləri aradan qaldırmaq, yəni SSRİ-nin olmadığı dünyanı formalaşdırmağı rəhbər tutmuşdu. Nəticə məlumdur – Sovetlər Birliyi süqut etdi, ancaq Rusiya qaldı. Ötən əsrin 90-cı illərinin sonundan isə Qərb aləmi Rusiyanın məhvinə yönəlik strategiyaya baş vurdu.

Moskvada da çox yaxşı gördülər ki, beynəlxalq hüquq, ərazi bütövlüyü və suverenlik məsələləri spekulyativ xarakter daşıyır. Belədə başqa yolu qalmayan Rusiya da hərəkətə keçdi. Ancaq Qərb ondan əvvəl hərəkətə keçmişdi. Görəsən, İraqa Əfqanıstana müdaxilələr nə idi? Əlbəttə ki, işğalçılıq. Ancaq Qərbin hərəkətliliyinin digər aspektləri də olmuşdu. Məsələn, 2008-ci il dekabrın 19-da ABŞ ilə Ukrayna arasında tərəfdaşlıq haqqında sənəd imzalanmışdı. Bu sənəd Rusiyanı Krımı ələ keçirməsinin qarşısını ala bildimi? Xeyr!

Digər tərəfdən, 2008-ci ildə Rusiya – Gürcüstan müharibəsi baş verdi. Müharibə Qərbin Prezident Mixeil Saakaşvili iqtidarını Moskvaya qarşı qaldırmasının nəticəsində oldu. Savaşdan Rusiya qalib ayrıldı, Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrində rusmeyilli separatçı quruluşlar yaradıldı. 2009-cu ildə Birləşmiş Ştatlar Gürcüstanla strateji tərəfdaşlıq haqqında müqavilə imzaladı. Vaşinqton 2021-ci ildə Ukrayna ilə olan oxşar sazişi yenilədi və guya daha da möhkəmləndirdi. Ancaq hər iki duruma diqqət yetirsək deyə bilərik ki, nə Abxaziya və Cənubi Osetiya Gürcüstana, nə də Krım Ukraynaya geri qayıtdı.

İndi vəziyyət tamamilə fərqlidir. Yəni, hazırda beynəlxalq hüquq prinsiplərinə heç məhəl qoyulmadığını görürük. Əsəblərin tarıma çəkildiyi, mənafelər uğrundakı mübarizənin daha qızğın fazaya daxil olduğu diqqətdən yayınmır. Bir sözlə, dünya daha amansızlaşıb və hazırda həlledici sözü yalnız güc deyir. ABŞ – Ermənistan strateji tərəfdaşlıq xartiyası məhz belə bir qəliz durumda imzalanır. Heç kəs Ermənistanın təhlükəsizliyinin gücləndirilməsi nağıllarına inanmır. Yəni, əvvəldə də vurğuladığımız kimi, İrəvan konkret tərəfdir, daha doğrusu, Qərbin tərəfindədir.

Bəli, ABŞ–Ermənistan strateji tərəfdaşlıq xartiyası Cənubi Qafqaz uğrunda mübarizənin qızğın fazaya daxil olduğu bir dövrdə imzalanırsa, hər şey qətiləşib. Qərb Ermənistanı mübarizənin açar fiqpuruna çevirir. Deməli, Birləşmiş Ştatlar rəsmilərinin iki il əvvəldən başlayaraq verdikləri bəyanatlar real iş müstəvisinə daxil olub. Söhbət hansı bəyanatlardan gedir, buna nəzər salaq və yenə əvvəldə fikirlərini diqqətə çatdırdığımız ABŞ rəsmisi Ceyms O`Braynın dediklərini yada salaq: “Mərkəzi Asiya öz malları üçün yeni marşrutlar axtarır. Bu marşrutlar da cənubdan, Ermənistandan keçə bilər. Biz demişik ki, gücdən istifadə yolverilməzdir. Ermənistanın iştirakı və razılığı ilə tikiləcək tranzit dəhlizi region ölkələri üçün, həmçinin buradan daşınan mallara çıxış əldə edəcək dünya bazarlarında böyük iqtisadi bum yarada bilər. Əgər dəhliz gücdən istifadə etməklə və ya İranın iştirakı ilə açılsa, o zaman bunun çox güclü əks-təsiri olacaq və təşəbbüs uğurlu olmayacaq”.

C.O`Braynın bu açıqlamasını ABŞ-ın Zəngəzur dəhlizinə qarşı aşkar deməyi kimi qəbul etsək, hazırkı Vaşinqton – İrəvan xartiyasını Prezident İlham Əliyevin bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Zəngəzur dəhlizi ilə bağlı söylədiklərinə cavab olaraq dəyərləndirmək mümkündür. Dövlətimizin başçısı bildirmişdi: “Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi manеə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur. Sadəcə olaraq, onlar 10 noyabr Bəyanatının müddəalarını yerinə yetirməlidirlər. Orada hər şey açıq-aydın göstərilib. Biz dörd ildən çoxdur ki, səbir göstəririk. Dörd ildən çoxdur istəyirik ki, bu, danışıqlar yolu ilə həll olunsun. Biz nə qədər gözləməli olacağıq və nə üçün gözləməliyik? Yəni, onlar bütün bunları nəzərə almalıdırlar. Mən bir dəfə demişəm, onlar gərək bizi əsəbləşdirməsinlər və başa düşsünlər ki, burada söz sahibi bizik və Cənubi Qafqazda Azərbaycan aparıcı iqtisadiyyatdır, aparıcı hərbi güсdür və aparıcı dövlətdir. Bugünkü dünyada güc amili ön plandadır və bunu heç kim unutmasın”.



Bu yerdə Ermənistanın XİN rəhbəri A.Mirzoyanın sözügedən xartiyanın imzalanması zamanı bildirdiklərinə nəzər salaq. Mirzoyan sənədin ölkəsi ilə ABŞ arasındakı əməkdaşlığa ambisiya qazandırdığını vurğulayıb. Bəli, məhz ambisiya. Onun əvvəldə barəsində söz açdığımız özünü amiranə tərzdə aparması da elə budur. Dolayısı ilə Ermənistan Birləşmiş Ştatlarla birgə Zəngəzur dəhlizinə cəbhə açdığını göstərir. Daha doğrusu, Azərbaycana qarşı ABŞ-ın himayəsinə sığındığını bəyan edir və bununla öyünür.

Beləliklə, A.Mirzoyan bildirib ki, hazırda imzalanmış Ermənistan və ABŞ arasında strateji tərəfdaşlıq haqqında xartiya iqtisadi və enerji əlaqələrinin, münasibətlərin, demokratik təsisatların gücləndirilməsinə, müdafiə və hərbi əməkdaşlığın dərinləşdirilməsinə, ədalətin və qanunun aliliyinin təşviqinə, innovasiyaların və yüksək texnologiyaların inkişafına və insanlar arasında təmasların genişləndirilməsinə töhfə verməklə bir çox sahələri əhatə edir: “Ortaq dəyərlərə və qarşılıqlı maraqlara əsaslanan münasibətlərimiz son illər əhəmiyyətli inkişaf nümayiş etdirib. Elə bir yetkinlik səviyyəsinə çatıblar ki, onları strateji tərəfdaşlığa yüksəltmək nəinki münasib, həm də mürəkkəb geosiyasi mühitdə naviqasiya üçün zəruridir”.

Hər şeyi bir kənara qoyaq, görəsən, ABŞ və Ermənistanın hansı ortaq dəyərləri var? Heç bir! Heç ortaq maraqları da yoxdur. Maraq Birləşmiş Ştatlarındır, İrəvan onun həyata keçirilməsində “peşkadır”. İndi bu “peşka ölkə”nin XİN rəhbəri bildirir ki, ABŞ-ın Ermənistanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə sarsılmaz dəstəyini dərindən qiymətləndirir. Eyni zamanda: “Biz ABŞ-ın Cənubi Qafqaz regionunda davamlı və dayanıqlı sülhün təşviqində iştirakını qiymətləndiririk. İnanırıq ki, sabit və firavan Cənubi Qafqaz bütün regional aktorların və bütün beynəlxalq ictimaiyyətin maraqlarına cavab verir. Ermənistan sülh gündəminə və onun həyata keçirilməsinə, eləcə də bu ümumi məqsədə nail olmaq üçün ABŞ-la sıx əməkdaşlıq etməyə sadiq qalır”.

Sülh gündəmi üçün ABŞ-la əməkdaşlıq? Heç şübhəsiz, xartiya Cənubi Qafqazda barış mühitinin formalaşmasına dəstək göstərməyəcək, əksinə problem yaradacaq. Bunu regionda maraqlı dövlətlərin rəsmilərinin, eləcə də ekspert və mütəxəssislərin açıqlamaları da təsdiqləyir. Bu yerdə A.Mirzoyanın mənasız pafos ritorikasını kənara qoyub bir fikrinə diqqət yetirməyi zəruri sayırıq. Onun sözlərinə görə, Ermənistan gələcəyə baxaraq strateji tərəfdaşlıq xartiyasında müəyyən edilmiş iddialı məqsədlərə nail olmaq üçün ABŞ-ın yeni administrasiyası ilə işi davam etdirməyi səbirsizliklə gözləyir.

***

Ermənistan gözləməyində olsun, biz isə bir daha yeni dünya düzəni məsələsinə qayıdaq. Aydındır ki, bu düzəni güc formalaşdıracaq. Prezident İlham Əliyevin bu il sentyabrın 23-də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı çıxışında bildirdiyi kimi, “İkinci dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası artıq mövcud deyil, “Kim güclüdür, o da haqlıdır” prinsipi üstünlük təşkil edir və artıq bəzi böyük dövlətlər bunu heç gizlətmirlər”.

Yeri gəlmişkən, dövlətimizin başçısı yanvarın 7-dəki müsahibəsində də yeni dünya nizamından söz açmaqla, Azərbaycanın bu düzənin fəal iştirakçısı olmasını zərurət və vaciblik kimi qabartdı. Prezident İlham Əliyevin bu mövqeyinə özünün olan hər şeyə, yəni Cənubi Qafqaza sahiblənmək əzmi hakimdir: “Biz öz işimizi görməliyik və gündəliyimizi bundan sonra da tətbiq etməliyik. Çünki Cənubi Qafqaz bizim regionumuzdur və Azərbaycan bu bölgənin aparıcı ölkəsi kimi, əlbəttə ki, məsuliyyət nöqteyi-nəzərindən də xüsusi çəkiyə malikdir. Ona görə yeni nizamı biz ədalətli nizam kimi görürük. Əgər bunu bir sözlə ifadə etmək mümkündürsə, bu, ədalətli olmalıdır və əslində, Azərbaycanın uzun illər apardığı siyasətə də uyğundur”.

Bəli, Ermənistan – ABŞ strateji tərəfdaşlıq xartiyası Azərbaycanın Cənubi Qafqazda müəyyənləşdirdiyi ədalət anlayışına, yəni, regiona tarixən bağlı ölkələrin maraq və mənafelərinin uzlaşdırılması xəttinə, “region region ölkələri üçündür” şüarına zidd platformadır. Nəzərə alaq ki, xartiya yeni seçilmiş prezident Donald Trampın rəsmən fəaliyyətə başlamasından 6 gün əvvəl imzalanıb. Yəni, Bayden administrasiyası ermənipərəstliyin son akkordunu vurub. Bu administrasiya gethagetdə Ukraynada vəziyyəti ağırlaşdırdığı kimi, Cənubi Qafqazda yeni konfrantasiya bazası formalaşdırıb. Ümid edək ki, D.Tramp məsələlərə tamam fərqli prizmadan yanaşacaq və nəticə etibarilə Vaşinqton – İrəvan xartiyası lakmus kağızından başqa bir şey olmayacaq.

Sonda bir məqamı da vurğulayaq. D.Tramp hadisə və proseslərə həm də ona görə fərqli bucaqdan baxmalıdır ki, Bayden administrasiyası dünyada ABŞ əleyhinə nataraz durum formalaşdırıb. Bu durum, eyni zamanda, insanlığı təlatümlərlə üz-üzə qoyub və bəşəriyyət, faktiki olaraq, Üçüncü dünya müharibəsinin astanasındadır. ABŞ – Ermənistan strateji tərəfdaşlıq xartiyası adlandırılmış sənəd isə müharibənin Cənubi Qafqaz trayektoriyasının cızılmasından başqa bir şey deyil. Birləşmiş Ştatlarda nəzərə almalıdırlar ki, erməni avantürizminə dəstək verən istənilən addım regionda hərbi eskalasiya üçün stimuldur. Buna qarşı Azərbaycanın atacağı addımlar təbiidir ki, sərt olacaq. Vaşinqtonda sərtliyin Ermənistan dövlətinin mövcudluğu baxımından hansı perspektivi vəd etdiyini də düşünməlidirlər. Tarixi yada salsalar, daha yaxşıdır. Yəni, Ermənistan adlı dövlətin olmadığı dövrü.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ermənistan Konstitusiyasını nə vaxt dəyişdirəcək?

## *Hayların ədliyyə naziri yeni konstitusiyanın hazırlanmasının vacibliyini bildirib*

**Yanvarın 14-də 2024-cü ilin yekunlarına həsr olunan mətbuat konfransında ədliyyə naziri S.Qalyan deyib ki, bizim əsas vəzifəmiz seçkilərə qədər yeni konstitusiyanın mətnini hazırlamaqdır.**

Qeyd edək ki, Ermənistanda növbəti parlament seçkiləri 2026-cı ildə keçiriləcək. Hayastan rəsmiləri konstitusiyanın dəyişdirilməsinin vacibliyini bundan əvvəl də bir neçə dəfə dilə gətiriblər. Amma, sadəcə, dilə gətiriblər, əməli işə keçilməsi barədə isə hələ ki, susqunluqdur.

Xatırladaq ki, ötən il baş nazir Nikol Paşinyan tamamilə yeni konstitusiya layihəsi hazırlamaq üçün komissiya yaradılması barədə sərəncam imzalayıb. 2024-cü il yanvarın 19-da ədliyyə nazirliyində keçirilən müşavirədə baş nazir deyib ki, ölkəsinin “demokratik legitimliyinin və yaşarlığının təmin edilməsi üçün” konstitusiya islahatına yox, tamamilə yeni konstitusiyaya ehtiyacı var. O bildirib ki, Ermənistanın xalq tərəfindən səs verilmiş konstitusiyası olmalıdır.

Baş nazir ötən il ərzində bir neçə dəfə ana yasanın dəyişdirilməsini vurğulayıb və bunu vacib edən şərtləri sadalayıb. Paşinyanın sülhə hazır olması ilə bağlı açıqlamaları, şübhəsiz ki, müsbət siqnaldır, amma, bu, kifayət deyil. Çünki hələ də konkret addımlar atılmayıb.

Bu arada nəzərə çatdıraq ki, Ermənistanın ilk konstitusiyası 1995-ci il iyulun 5-də keçirilmiş referendum nəticəsində qəbul olunub. Bu, 1-ci prezident Levon Ter-Petrosyanın vaxtına (1991-1998) təsadüf edib.

Qeyd edildiyi kimi, konstitusiyada Azərbaycana qarşı ərazi iddialarının



yer aldığı Müstəqillik bəyannaməsinə istinad var, sənəddə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanın tərkib hissəsi elan olunub. Sonralar Ermənistanda konstitusiyaya dəyişikliklə əlaqədar 2005 və 2015-ci illərdə referendum keçirilib.

Hər iki referendum zamanı Qarabağın Ermənistana birləşdirilməsi müddəasının yer aldığı Müstəqillik bəyannaməsinə istinad olduğu kimi saxlanılıb. Məlumdur ki, Ermənistanın hazırkı konstitusiyasında qonşu dövlətlərə ərazi iddiasını əks etdirən bir sıra bəndlər yer alıb. Müstəqil Ermənistanda ilk illərdə hakimiyyətdə olan siyasi qüvvələr özgə torpaqlarına göz dikərək, ərazi iddialarını əsas qanuna salmışdılar. Bu baxımdan, Paşinyan dəyişikliyi labüd hesab edir və anlayır ki, bunu etmədən regionun aparıcı qüvvələri olan Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq qeyri-mümkündür. Başqa ehtimallar da var. Çox güman ki, Paşinyan yeni konstitusiya ilə digər siyasi qüvvələrin, xüsusən də erməni cəmiyyətində aparıcı mövqeyə sahib olan kilsənin ölkədəki rolunu zəifləməyə cəhd edəcək.

2025-ci ildə də yeni konstitusiyanın qəbulu məsələsi erməni cəmiyyətinin gündəmində əsas müzakirə mövzusudur. Ekspertlər bildirirlər ki, konstitusiya dəyişikliyini qaçılmaz edən bir neçə səbəb var və ona görə əvvəl-axır, bu, həyata keçiriləcək. Əsas səbəb Azərbaycan ilə imzalanacaq sülh müqaviləsinə hazırlaşmaqla bağlı ola bilərmi? Yoxsa yenə də ermənilərin başqa məkrli planları var? Bəlkə üzdə özlərini humanist göstərib saman altından su yeritmək istəyirlər.

***

**Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov mövzu ilə bağlı XQ-yə bildirdi ki,** Ermənistan rəhbərliyində konstitusiyanın dəyişdirilməsi ilə bağlı planlar var: “Yeni konstitusiya Ermənistanın yeni dövlət tarixi ilə bağlı olacaq. Hərçənd biz bilirik ki, qondarma dövlət tarixi Azərbaycan torpaqları üzərində qurulub. Nikol Paşinyan bu qondarma dövləti xilas etmək istəyir. O, öz aləmində Ermənistan dövlətçiliyi və xalqı tarixində yeni səhifəni açmaq arzusundadır. Güman edirəm ki, yeni konstitusiyada Ermənistanın Avropa İttifaqına inteqrasiyası məsələsi də əsas götürüləcək. Eyni zamanda, yeni konstitusiyada həm dövlət atributları, həm də Ermənistan əraziləri ilə bağlı konkret və yeni baxış bucağı ortaya qoyulacaq. Əlbəttə ki, Azərbaycanın tələbi burada əsas götürülməlidir və buna uyğun addımlar atılmalıdır. İndiki məqamda Ermənistan rəsmilərinin konstitusiya dəyişikliyi ilə bağlı açıqlama verməri onların qorxu hissi keçirmələri ilə bağlıdır. Aİ-nin müşahidə missiyasının müddətinin daha iki il uzadılması ilə bağlı söz-söhbət gəzir. Məxfi şəkildə ABŞ ilə strateji əməkdaşlıq haqqında müqavilə imzalayıblar. Bütün bunlar onu göstərir ki, Ermənistan bir tərəfdən müdafiə, digər tərəfdən hücum xarakterli planlarını hazırlamaqdadır”.

Z.Məmmədov əlavə etdi ki, konstitusiya dəyişikliyi 2026-cı ildə keçiriləcək parlament seçkilərindən əvvələ planlaşdırılıb. Hərçənd ki, bu, 2027-ci ildə nəzərdə tutulub. Onların tələskənliyinin səbəbi məlum deyil. Hər halda yaxın aylardakı proseslərdən hər şey məlum olacaq.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə bildirib ki, Ermənistanın militarizasiya və silah yarışı siyasəti regional sülh və təhlükəsizliyə təhdiddir. Sülh müqaviləsinin imzalanması üçün Ermənistanın konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddiaları götürülməlidir. Ermənistan tərəfindən konstitusion əsasda Azərbaycana qarşı ərazi iddiaları olmamalıdır.

Dövlətimizin başçısı yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bir daha bu məsələyə toxunub. Ümid etdiyini bildirib ki, sülh müqaviləsi ilə bağlı bizim bütün şərtlərimiz də qəbul ediləcək: “Çünki bu şərtlərdə hər hansı bir fövqəladə məsələ yoxdur. Minsk qrupunun ləğv edilməsi, konstitusiyanın dəyişdirilməsi – bunlarsız sülh müqaviləsi mümkün deyil. Əgər Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil. Bu imzalanmadan da biz yaşaya və öz siyasətimizi apara bilərik. Yəni, mən yenə də Ermənistan tərəfinə məsləhət görərdim ki, hər şeyi yaxşı ölçüb-biçsin, o cümlədən dünyadakı geosiyasi dəyişiklikləri”.

Əlbəttə, Azərbaycanın Ermənistan konstitusiyasının dəyişdirilməsi tələbi heç də sülh prosesini ləngitmək məqsədi daşımır. Bakının mövqeyi Ermənistandan qorxmişdə gələn təhdidlərin təkrarlanmasının qarşısını almaq istəyinə əsaslanır. Erməni ana qanununun dəyişdirilməsi uzunmüddətli sülhün təminatıdır və bu, mütləqdir.

Göründüyü kimi, Paşinyan hakimiyyəti ciddi sınaqlar qarşısındadır. Mövcud durumun Azərbaycanla aparılan sülh prosesinə mənfi təsiri özünü göstərməkdədir. Dəqiq nəsə demək çətindir: Paşinyan hökuməti konstitusiya dəyişikliyinə nail ola biləcək, ya yox. Bunu yaxın tarix göstərəcək. Ermənistan sabitqədəm dövlət deyil, hər an hər şey baş verə bilər. Hər halda Paşinyan buna çalışır və reallıqları cəmiyyətə çatdırır. Əgər İrəvan sülh istəyirsə, qonşuları ilə əmin-amanlıq şəraitində yaşamağı arzulayırsa, o zaman baş qanunlarını dəyişməlidir.

***Azər MUSTAFAYEV***

# ABŞ–Ermənistan münasibətləri – demokratların gecikmiş demarşı

## *İrəvanın okeanın o tayında himayədar axtarışı*

**Təəccüblü heç nə baş vermir. ABŞ erməni diasporunun güclü olduğu iki ölkədən biridir. Aydındır ki, digəri Fransadır. İki əsr boyu beyinləri yuyulmuş bütün ermənilər kimi, bu ölkələrdəki hayların türklərə nifrət edən bir toplum olduğunu deməyə ehtiyac yoxdur. Bu toplumun özünü  “demokratiyanın beşiyi” sayan supergücün hakimiyyəti öz aralarında növbələşən iki partiyanın (daha çox demokratlara –red.) siyasətçilərinə, eləcə də mediaya güclü təsir rıçaqlarına malik olması da sirr deyil. Bəzilərini pulla göstərdikləri “xidmətlər” qarşılığında ələ alıblar, digərlərini şantajla, yaxud da xristian həmrəyliyi, islamofobiya ilə manipulyasiya etməklə öz tərəflərinə çəkiblər. Məhz bunun nəticəsi olaraq ABŞ Qarabağ münaqişəsinin müharibə alovuna çevrildiyi 1992-ci ildə separatizm və işğalla üzləşmiş Azərbaycana sanksiya tətbiq etdi, işğalçı Ermənistana isə yardımlarını artırdı. İndi də demokratların son Qafqaz “demarşına” şahidlik edirik.**



### Suverenliyin müdafiəsi?

Ermənistan və ABŞ strateji tərəfdaşlıq haqqında xartiya imzalayıblar. Sənədə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və ABŞ Dövlət katibi Antoni Blinken imza atıblar. A.Blinken sənədin imzalanmasının Ermənistanla ABŞ arasında münasibətlərdə “mühüm mərhələ” olduğunu vurğulayıb. “Biz ABŞ–Ermənistan Strateji Tərəfdaşlıq Komissiyası yaradırıq. Bu, bizə müxtəlif sahələrdə əməkdaşlığı genişləndirmək imkanı verir. Buraya iqtisadi, təhlükəsizlik və müdafiə məsələləri, demokratiya, insan haqları kimi məsələlər daxildir”.

Qarşıdakı həftələrdə Birləşmiş Ştatların Gömrük və Sərhəd təhlükəsizliyi heyətinin Ermənistana səfər edəcəyini bildirən A.Blinken “Eagle Partner” kimi birgə təlimlər vasitəsilə Ermənistanın sülhməramlı missiyasını gücləndirmək üçün Vaşinqton özünün “strateji tərəfdaşı” ilə sıx işləyəcəyini vurğulayıb.

4 səhifədən, preambula və 3 bölmədən ibarət xartiyanın üçüncü bölməsi “Müdafiə və təhlükəsizlik” adlanır. Elə ikitərəfli şübhəli sövdələşmənin, yəni xartiyanın mahiyyəti və əsas niyyəti bu bölmədə “gizlənir”. Sənəddən, faktiki surətdə belə nəticə hasil olur ki, ABŞ Ermənistanın suverenliyinin təminatçısı missiyasını öz üzərinə götürür. Amma bu missiyanın görünməyən tərəfi Cənubi Qafqazda hərbi iştirakını reallaşdırmağı düşünən Vaşinqtonun məqsədi bu üsulla bölgədə Rusiyanın və İranın mövqelərini ələ keçirməkdir.

İrəvanın boynuna bu oyunda yenə “maşa” rolunu oynamaq düşür. Dövlət katibi “Ermənistan–ABŞ Strateji Tərəfdaşlıq xartiyası əməkdaşlığın möhkəm təməlini qoyur və onu “daha iddialı” edir – deyəndə məhz bu məkrli planın altniyyətini açmış oldu. Hayların baş diplomatı Bayden administrasiyasına “minnətdarlıq nitqində” iki ölkə arasında “bütün sahələr üzrə əməkdaşlığın dərinləşdirilməsi, demokratik təsisatların gücləndirilməsi, ədalətin və qanunun aliliyinin təşviqi, innovasiya və yüksək texnologiyaların inkişafı, eləcə də insanlar arasında əlaqələrin genişləndirilməsini” deyəndə Blinkenin sözünə “özünəməxsus şəkildə” qüvvət vermiş oldu.

### Baydenin Qafqaz siyasətinin son akkordu

Erməni mediası “supergüc”lə Hayastan arasında “tarixi sövdələşmə”nin saxta eyforiyasını yaşamaqdadır. Sadəcə, bir məqamı qeyd etməyi unudurlar ki, məlum sənədi üç gündən sonra komandası ilə istefaya gedəcək Cozef Bayden administrasiyası imzalayıb. Bu sənəd, olsa-olsa, demokratların xarici siyasətdə son akkordu sayıla bilər. ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın dövründə ikitərəfli xartiyanın müddəalarının həyata keçirilmə perspektivi məsələsi açıq qalır.

Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin rəhbəri Fərhad Məmmədov bu barədə sosial platformada paylaşım edib: “Donald Trampın prezident seçkilərində qələbəsindən sonra, gözlədiyimiz kimi, Paşinyan hökuməti Ağ evin dəstəyini  davam etdirə bilmək üçün ABŞ-la münasibətləri mümkün qədər institutsionallaşdırmağa çalışdı. Lakin Bayden administrasiyasının özü indiki statusunda Paşinyandan az maraqlı deyil. Yəni, yol üstündə olan demokratlar Trampın diqqətini yönəltdiyi qlobal transformasiya perspektivlərini ört-basdır etmək üçün mümkün olan hər yerdə onun əl-qolunu bağlamağa çalışırlar. İkinci amil, fikrimcə, İranın mövqeyinin sərtləşdirilməsidir. Tehran bir neçə gün bundan əvvəl Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədianın dili ilə, faktiki olaraq, Ermənistana ultimatum elan etdi.

Ermənistan–ABŞ sənədinin tezbazar imzalanması Tehrana İrəvanın okeanın o tayında güclü müdafiəçisinin olduğunu göstərmək məqsədi daşıyır. 2023-cü ilin sonundan ABŞ və Aİ Ermənistana hərtərəfli dəstək vermək öhdəliyi götürdülər və bu, aprelin 5-də Brüsseldə üçtərəfli görüşdə sənəd imzalanması ilə isbatlandı. Şübhəsiz ki, bu, geosiyasi addımdır və eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin toxunduğu geosiyasi xəttin (Gürcüstan–Ermənistan) həyata keçirilməsini nəzərdə tutur. Doğrudur, bu geosiyasi xəttlə hələ hər şey qaydasında deyil. Gürcüstanın Qərblə münasibətləri mürəkkəbləşib, lakin Ermənistanla hər şey öz yolu ilə gedir”.

Oxucuların yadına salaq ki, Brüsseldə əldə olunan razılaşmalar Aİ və ABŞ-dan Ermənistana maliyyə yardımı ilə yanaşı, həm də gizli hissədə aktiv hərbi və hərbi-texniki əməkdaşlığı nəzərdə tutur. Bununla yanaşı, başqa vacib sual ortaya çıxır: sənədin mahiyyəti nə olursa-olsun, Tramp Baydenin müəyyən etdiyi xarici siyasət kursunu kor-koranə izləyəcəkmi? Onların arasında antaqonizm o qədər yüksəkdir ki, siyasi olimpdən gedənin istənilən hərəkəti seçilmiş prezidentdə antipatiya və özünəməxsusluq yaradır. F.Məmmədov bu mövzuda da fikirlərini bölüşüb: “Trampın Bayden və ümumən demokratların irsinə baxış tərzini nəzərə alsaq, deyə bilərik ki, hər şey o qədər də sadə deyil. Bakı yeni administrasiyaya başa salmağa çalışmalıdır ki, ABŞ-ın Azərbaycana qarşı siyasətini Ermənistanın maraqlarının süzgəcindən keçərək davam etməsi yaxşı heç nəyə gətirib çıxarmayacaq. Əslində, bu, uğursuz demokratların siyasətinin təkrarı olacaq”.

### Tramp daha vacib məsələlərlə məşğul olacaq

Bütün hallarda ABŞ-ın respublikaçı prezidentindən erməni maraqlarını qorumaq üçün Bayden və komandası kimi, Azərbaycana münasibətdə açıq addımlar atacağını gözləmək ağılsızlıq olardı. Demokratlar hətta strateji mövqelərdə belə Bakıya müəyyən güzəştlərə getməyə bilməyiblər. Artıq Azərbaycan öz suverenliyi üçün optimal təhlükəsizlik dairəsi yaradıb. Bakının regional siyasi kursunu davam etdiriləcəyinə də şübhə yoxdur. Amma Donald Trampın başqa prioritetləri var. Digər maraqlı məqam odur ki, Tramp bu xartiyaya veto qoymasa da, ona məhəl verməyə bilər. Görünən odur ki, Ağ evi tərk edən ermənipərəst administrasiya Cənubi Qafqaz planında Ermənistana belə bir “hədiyyə” etmək qərarına gəlib. Bəs bu, Ermənistanın yaxın qonşuları ilə münasibətlərinə necə təsir göstərəcək? Məsələn, İrəvan və Tehran münasibətlərinin sıx və isti xarakteri həmişə vurğulanıb. İndi İranın ən qatı düşməni ilə strateji müttəfiqlik sənədinə imza atandan sonra Ermənistan–İran münasibətlərini nə gözləyir? Bir vacib faktı da nəzərə almaq lazımdır ki, yanvarın 20-də İran və Rusiya arasında əməkdaşlıq və qarşılıqlı dəstək haqqında strateji sənəd imzalanacaq.

**Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** mövzu ilə bağlı XQ-yə açıqlamasında qeyd etdi ki, əgər bu, ABŞ-ın erməni diasporu üçün sürprizidirsə kifayət qədər gecikib: “Respublikaçı prezident buna necə reaksiya verəcək? Bu razılaşmanı təsdiqləyəcəkmi, onu reallığa çevriləcəkmi, hələ bilmirik. Hadisələrin sonrakı gedişatını proqnozlaşdırmağa imkanı verən başqa bir səbəb də var. Müxtəlif mənbələrdən, o cümlədən xarici mənbələrdən eşitdiyimə görə, Vaşinqton–İrəvan müqaviləsi Ermənistanla hansısa ölkə arasında baş verə biləcək münaqişəyə birbaşa hərbi yardım və ya müdaxiləni nəzərdə tutmur. Orada söhbət ancaq hərbi-texniki əməkdaşlıqdan, Ermənistan ordusunda islahatların aparılması səylərindən və bu ölkənin silahlı qüvvələrinə iqtisadi yardımdan gedir. Bu baxımdan yanaşanda, bir neçə aspekt görünür. Əvvəla, Tehranın Vaşinqtonla bu cür yaxınlaşmaya və iki dövlət arasında hərbi sahədə hüquqi konsolidasiyaya necə reaksiya verəcəyi maraqlıdır. Bu məsələdə Tehranın mövqeyini bilmək maraqlı olardı.

Digər sual isə NATO ilə düşmən münasibətdə olan KTMT üzvü İrəvanın bu blokun əsas hərbi-siyasi oyunçusu Vaşinqtonla strateji müqaviləni hansı şərtlər daxilində imzalaması ilə bağlıdır”. Fikrini davam etdirən F.Sadıxov diqqəti rəsmi Vaşinqtonun mövqeyinə yönəltdi: “Yəni, bizə sülh danışıqlarında platforma, vasitəçilik rolu təklif edən və tərəfləri Vaşinq-



tona dəvət edən Bayden administrasiyası birdən-birə Ermənistana doğru kəskin dönüş edir. Bununla da indiyə qədər sülh üçün elədiklərini heçə çevirir. Yəni, Cənubi Qafqazda sülhlə bağlı verdiyi vədlərə, təmtəraqlı çıxışlara son qoyub. Bununla da təkcə sağlam məntiqə və beynəlxalq hüquqa deyil, həm də Cənubi Qafqaz regionunda mövcud vəziyyətə qeyri-adekvat addım atır. Hesab edirəm ki, bu gün Ermənistanı müdafiə edəcək heç kim yoxdur. Əgər Vaşinqton belə bir addım atırsa, bu, Moskvanı Cənubi Qafqazdan silmək cəhdi ilə bağlıdır. Amma, bu, başqa sualdır”.

### Ağ ev işğalçını ruhlandırır

Qanlı separatizmlə və təcavüzlə üzləşən Azərbaycan özünü dünyanın supergücü sayan ABŞ-ın beynəlxalq hüquqa zidd davranışı ilə qarşılaşıb. Bunun yeganə adı – tarixi ədalətsizlikdir! Son 30 ildə Vaşinqtonun erməni işğalına açıq və gizli dəstəyi, Ermənistanı işğalçı dövlət kimi tanımaması, bu azmış kimi, separatçılara maliyyə dəstəyi ayırması, münaqişəyə ikili standartlı yanaşması postsovet məkanında başqa etnik qarşıdurmalara da yol açdı.

Ağ evin Ermənistanla strateji tərəfdaşlıq xartiyası imzalaması daşnak-revanşistləri daha da ruhlandıracaq. Bu sənəd erməni təxribatlarına yeni stimul verə bilər. İntəhası, ermənilər anlamalıdırlar ki, ABŞ-ın 2020-ci ilə qədər onlara verdiyi dəstək işğalı sona qədər davam etdirməyə kömək etmədiyi kimi, bundan sonra da böyük məğlubiyyətlə üzləşəcəklər.

Donald Tramp Administrasiyasının əsas xarici siyasət prioritetlərinin, o cümlədən Cənubi Qafqaza yönəlik kursunun necə formalaşacağı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Ekspertlərin əksəriyyəti belə hesab edir ki, ümumilikdə, Cənubi Qafqaz, o cümlədən Ermənistan Tramp üçün prioritet olmayacaq. Bayden administrasiyası regiondakı siyasətini İrəvana dəstək imitasiyası üzərində quraraq, burada özünün forpostunu yaratmağa çalışırdı. Son nəticədə bunun Bakı ilə Vaşinqton arasında münasibətlərə mənfi təsir göstərdiyini xatırlamağın yeri var. Prezident İlham Əliyev bu yaxınlarda yerli televiziya kanallarına müsahibəsində Donald Tramp Administrasiyası ilə qarşılıqlı maraqlara əsaslanan yaxşı münasibətlərin qurulmasına ümid etdiyini bildirib. Azərbaycan dövlətinin başçısı, həmçinin qeyd edib ki, Vaşinqton belə maraq göstərərsə, rəsmi Bakı ikitərəfli münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qaldırmağa hazırdır.

**P.S.** “Strateji xartiya”nın Ermənistana hansı dividendləri qazandıracağı ilə bağlı hay politoloq Arman Abovyanın qeydləri maraq doğurur: “Gələn həftə biz Ermənistana sərhəd təhlükəsizliyi məsələləri ilə məşğul olacaq xüsusi qrup göndərəcəyik”. Bu sözləri ABŞ Dövlət katibi Antoni Blinken deyib. Onun sözlərini diplomatik dildən normal dilə çevirsək, belə çıxır ki, ABŞ xüsusi xidmət orqanları Ermənistan–İran sərhədinə gələcək. Bu isə İrana hücuma hazırlaşan ölkənin xüsusi xidmət orqanıdır. İndi gəlin birlikdə düşünək ki, rəsmi Tehran ABŞ hərbi agentlərinin onun qulağının dibində peyda olmasına necə reaksiya verəcək? Başa düşə bilmirəm ki, Paşinyan hakimiyyəti Aİ-yə üzvlüyə hazırlaşmaqla, ABŞ-la “strateji xartiya” imzalamaqla Ermənistanı intihara sürükləmək qərarına gəlib?”. Əlavə şərhə ehtiyac qalmır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Paytaxt Prokurorluğunda əməliyyat müşavirəsi

**Yanvarın 15-də Baş prokuror, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi ilə Bakı şəhərinin prokurorluq orqanları tərəfindən 2024-cü il ərzində cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.**




Kamran Əliyev  Prokurorluq orqanlarına göstərilən dövlət qayğısından bəhs edərək məhz bu sayədə hesabat dövründə əməkdaşların xidməti iş şəraitinin yaxşılaşdırılması məqsədilə bir sıra prokurorluqların, o cümlədən Bakı şəhəri Nərimanov Rayon Prokurorluğunun ən müasir standartlara cavab verən yeni inzibati bina ilə təchiz edildiyini bildirib. O qeyd edib ki, əvvəlki ildə olduğu kimi, 2024-cü ildə də vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə Bakı şəhərinin rayon prokurorluqları tərəfindən vətəndaşların qəbulu həyata keçirilməklə qəbulda olmuş ümumilikdə 587 vətəndaşın müraciətləri üzrə müvafiq tədbirlər görülüb.

Hesabat dövründə görülmüş işlərə münasibətdə isə diqqətə çatdırılıb ki, Bakı şəhər prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, istintaq işi, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində zəruri işlər görülüb.

Müşavirədə hesabat məruzəsi ilə çıxış edən Bakı şəhər prokuroru, III dərəcəli dövlət ədliyyə müşaviri Elşən Abbasov hesabat dövründə paytaxtın prokurorluq orqanlarının digər hüquq-mühafizə orqanları ilə birlikdə cinayətkarlığa qarşı mübarizə, vətəndaş məmnunluğunun təmin olunması, Baş prokurorun rəhbər göstərişlərinin icrası istiqamətində görülən işlər barədə məlumat verib. Qeyd olunub ki, 2024-cü il ərzində Bakı şəhər prokurorluq orqanlarında 649 cinayət işinin ibtidai istintaqı aparılıb və həmin cinayət işlərindən 194-nün istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilib, habelə hesabat dövründə prokurorluq orqanları tərəfindən istintaq edilmiş cinayət işləri üzrə müəyyən edilmiş 16 milyon 979 min 167 manat maddi ziyandan 12 milyon 425 min 084 manatının (73,2 faiz) ödənilməsi təmin olunub. Bundan əlavə, 2024-cü ildə Bakı şəhər prokurorluq orqanlarına 21 min 411 müraciət daxil olub, həmçinin Bakı Şəhər Prokurorluğunda 2 min 387, tabe rayon (şəhər) prokurorluqlarında isə 6 min 831 olmaqla, ümumilikdə 9 min 218 vətəndaş qəbul edilərək dinlənilib, müraciətlərinə müvafiq olaraq izahların verilməsi və onların həlli istiqamətində müvafiq tədbirlərin icrası həyata keçirilib. Həmçinin vurğulanıb ki, 2024-cü il ərzində Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları üzrə cəmi 14 min 925 cinayət hadisəsi qeydiyyata alınıb ki, onların 88,8 faizinin açılması təmin olunub.

Bakı şəhərinin daxili işlər orqanları ilə qurulmuş peşəkar əməkdaşlıq münasibətləri zəminində həyata keçirilən tədbirlər nəticəsində hesabat dövründə qeydə alınmış 50, həmçinin ötən illərdən bağlı qalan 2 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilib. Xidməti, icra və əmək intizamının pozulması hallarına qarşı tələbkarlıq artırılıb, şəhər prokurorluq orqanları əməkdaşlarından 1 nəfər intizam məsuliyyətinə cəlb olunaraq tutduğu vəzifədən azad edilib, 15 əməkdaşa xəbərdarlıq edilib.

Baş prokuror Kamran Əliyev şəhər prokurorluğunun struktur qurumları və tabe rayon prokurorluqlarının hər birinin fəaliyyətini təhlil edərək cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti, müraciətlərə baxılması, vətəndaşların qəbulu, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması istiqamətində konkret tapşırıqlar verib.

# Azərbaycan hökumətinin missiyası Maldivdə

**Yanvarın 13-15-də xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərliyi ilə Azərbaycan Respublikasının Hökumət missiyası Maldiv Respublikasında səfərdə olub.**



Səfər zamanı Elnur Məmmədov Maldivin vitse-prezidenti Uz Hussain Mohamed Latheef tərəfindən qəbul edilib. Həmçinin E.Məmmədovun iqtisadi inkişaf və ticarət naziri Mohamed Saeed ilə ikitərəfli görüşü keçirilib. Görüşlərdə Maldiv tərəfi Azərbaycan Hökumət missiyasını yüksək qiymətləndirib və hər iki tərəf üçün maraq doğuran məsələlər müzakirə edilib.

Səfər çərçivəsində keçirilən siyasi məsləhətləşmələrdə ikitərəfli və çoxtərəfli siyasi əlaqələrin genişləndirilməsi, iqtisadi-ticarət, energetika, logistika və nəqliyyat, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

Səfər zamanı missiya üzvləri üçün Maldivin bir sıra sənaye zonalarına turlar təşkil edilib.

***XQ***

# Hərbi sursat zərərsizləşdirilib

**Fövqəladə Hallar Nazirliyinin “112” qaynar telefon xəttinə polis əməkdaşları tərəfindən Kəngərli rayonu, Yeni Kərki və Qabıllı kəndləri ərazisində hərbi sursatların aşkar edilməsi barədə məlumatlar daxil olub.**

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin pirotexnikləri dərhal hadisə yerinə cəlb edilib.

Hüquq-mühafizə orqanı əməkdaşları ilə birgə ərazidə müvafiq təhlükəsizlik tədbirləri görüldükdən sonra aşkar edilmiş sursatların 1 ədəd PQ-2 40 mm-lik qumbaraatan mərmisi, 1 ədəd 85 mm-lik BR-365 yivli top mərmisi, 1 ədəd 76 mm-lik B-350 zirehdələn top mərmisi, 1 ədəd 23 mm-lik OFZT yivli zenit top mərmisi və 1 ədəd RPG-7 qumbaraatan mərmisinin başlıq



hissəsi olduğu müəyyən edilərək pirotexniklər tərəfindən zərərsizləşdirilməsi üçün ərazidən götürülüb.

**XQ**

# Azərbaycanlıların həmrəyliyi

## III məqalə

### Həmrəylik və azərbaycançılıq

Azərbaycanda sosial-mənəvi və mədəni-siyasi həmrəyliyin birbaşa dövləçiliklə sıx bağlılığı faktı tariximiz boyu bir olmağımızın təməl təminedici amillərindəndir. Azərbaycanlıların birliyi dövlətçilik kontekstindən az da olsa uzaqlaşdığı dönəmlərdə toplumsal olaraq ciddi ziyanlar görmüşük. Həmrəyliyimizin real forması dövlətçiliyimizə və dövlətçiliyimizin qalıcı yolu həmrəyliyimizə sıx bağlıdır. Azərbaycanlıların dövləti ilə toplumunu (elin) birgəyaşayış fəlsəfəsini bir-birindən ayırmaq mümkün deyildir. Azərbaycançılığa bir də bu prizmadan baxmaq faydalı olardı. isə...Azərbaycan cəmiyyətinin özünüyaratması fəlsəfəsinin ana xəttini təşkil edən və qədimdən gələn bir keyfiyyətdədir.

### Türklərin "Yosun qanunu" və Delyozun "rizoma" anlayışı

Çox qısa izah edəcəm. "Yosun qanunu" qədimdən türk toplumlarının özünütəşkil fəlsəfəsinin mərkəzi müddəasıdır. Hüquq və qanun türk ictimai şüurunda sinonim olduğundan "yosun qanunu" da həm hüquqdur, həm də kollektivləşmənin başlıca fəlsəfəsi. Bu qanuna görə, türklər yalnız öz kökləri üstündə bir-biri ilə iç-içə olan sosial, siyasi, mənəvi, törə, mədəni şəbəkə ("hörgü, "naxış") yaratmaqla mövcud ola bilərlər. Təbiətdə bunun örnəyi yosun və ya mamırdır. Bu elə bir bitkidir ki, həm veqetativ, həm də cinsi yolla havada, bitkilərdə, daşda, suda, dənizin dibində vahid orqanizm yaratmaqla, hər anında və hər miqyasda öz strukturunu təkrarlayır. Yosunun tərkib hissələri bir-biri ilə elə "əl-ələ" verir ki, hər biri inkişafın mərkəzi olur. Bu cür özünüyaratmaq üsulu qarşıya sonsuz sayda inkişaf istiqamətləri çıxarır və hər qarışı lazım olanda təşəbbüsü ələ alıb, avtonom inkişaf mənbəyinə çevrilir.

Fransız filosof Jil Delyoz XX əsrdə "rizoma" anlayışını daxil etmişdir. Rizoma elə bir bitkinin nəzəri ifadəsidir ki, bizim ənənəmizdə olan yosun (və ya mamır) keyfiyyətlərinə malikdir. J.Delyozun rizoması ilə vahid inkişaf mənbəyi olmayan, hər qarışında avtonom təkamül qaynağı ola bilən sonsuz prosesin obrazıdır. Onun da vahid deyil, sonsuz sayda təkamül mənbəyi vardır. Bu keyfiyyətinə görə, rizoma daimi prosesliyi, dəyişkənliyi və inkişafı təmsil edir! Jil Delyozu XX əsr Qərb fəlsəfəsinin siması adlandırmışlar (Mişel Fuko)!

Bu qısa nəzəri müqayisə Qərb nəzəri təfəkkürünün "aşiqləri" üçündür. Bir avropalı aparıcı filosof "yeni" adlandırdığı fəlsəfi təliminin mərkəzi anlayışını türklərin özünütəşkil fəlsəfəsinin əsas qanununa uyğun müəyyən etmişdir. Biz bu faktın heç bir izahını vermək fikrində deyilik.

Yalnız onu vurğulayaq ki, qədimdən azərbaycanlıların özünütəşkil üsulunun başlıca məzmunu indi də çox aktualdır. Bu prizmada müasir mərhələdə azərbaycançılıq, həmrəylik və dövlətçiliyin mənaca vəhdətinə baxanda, müstəqil dövlət quruculuğuna güclü ictimai dəstəyin səbəbi ümumi fəlsəfi səviyyədə aydın olur! Məntiqi olaraq, bundan sonrakı mərhələ həmrəyliyin Azərbaycan nümunəsinin ümumtürk miqyasına nəticəverici proyeksiyası ilə bağlıdır.

### Türk dünyasının həmrəyliyi

Hazırkı mərhələdə hər bir türk xalqının daxili həmrəylik fəlsəfəsini ümumtürk kontekstindən ayrı təsəvvür etmək mümkün deyildir. Sürətlə qloballaşan və regional təşkilatlanmanın getdikcə daha böyük geosiyasi əhəmiyyət kəsb etdiyi bir dönəmdə Türk Dövlətləri Təşkilatının (TDT) xalqların həmrəyliyi aspektində mənası da xüsusi anlam alır. Lakin real həyatda buna nail olmaq asan məsələ deyildir. Burada Azərbaycan təcrübəsi çox ciddi rol oynamaqdadır.

Azərbaycanlıların həmrəyliyi nümunəsində həlledici faktorlar kimi mədəniyyət və Vətən sevgisi əsas rol oynayırlar. Türk xalqlarının ortaq mədəniyyətinin mövcudluğu şübhə doğurmur. Bu məsələni indi də aktuallaşdırmaq tam imkan daxilindədir. Yəni ümumtürk həmrəyliyinin mədəniyyət qanadı möhkəm təməllərə malikdir. "Ümumtürk Vətəni" anlayışı üzərində isə işləmək lazımdır.

Məsələ onunla bağlıdır ki, hər bir türk xalqının öz müstəqil dövləti və bu anlamda konkret sərhədlər daxilində qəbul edilən vətəni vardır. Bir azərbaycanlı və ya qazaxın bütün türk coğrafiyasını həqiqi mənada vətən kimi qəbul etməsi ayrıca prosesdir. Əlbəttə, ümumi emosional səviyyədə türklər çox geniş bir ərazini öz vətənləri saya bilərlər və sayırlar da. Lakin real həyatda qalıcı olaraq "Ümumtürk Vətəni" anlayışının konkret məzmunu olmalıdır. Bu baxımdan türklərin Azərbaycan nümunəsində həmrəylik modelini qəbul etməsi faydalı olardı. O cümlədən, "türk xalqlarının müstəqil dövlətə sahib olmaqla başqa hər bir türk toplumu ilə həmrəy olmanın fəxarətini yığcam hansı tezislə ifadə etmək praktiki nəticə verər?" sualı yalnız ritorika deyildir.

Azərbaycan həmrəylik nümunəsindən ümumtürk miqyasında həmrəyliyə transformasiyanın fəlsəfəsində başqa bir əhəmiyyətli amil də vardır. Həmin məqam həmrəyliyin yalnız etnik-mədəni faktor kimi deyil, təşkilatçılıq aspektində regionlararası məkana nəticəverici tansformasiyası ilə bağlıdır.



Tədqiqatçılar "Ulu öndər Heydər Əliyev azərbaycançılığa yeni siyasi-ideoloji məzmun vermişdir" fikrini irəli sürəndə məhz bu kimi incə məqamları da nəzərdə tuturlar. Çünki azərbayançılıq məfkurəsi Heydər Əliyevin təqdimatında siyasi, ideoloji və mənəvi-mədəni xarakterli çoxlu sayda özəllikləri diqqətə almağı tələb edir.

Azərbaycançılıqda həmrəyliyin müstəqil dövlətçilik aspektində məzmun alması prinsipial siyasi və ideoloji məqamdır. Bununla Heydər Əliyev tarixi bir addım atmışdır. Birincisi, həmrəyliyin Naxçıvan sinerjisini ümumazərbaycan kontekstinə real transformasiya etmişdir.

İkincisi, müasir mərhələdə müstəqil dövlət quruculuğunun uğurlu olmasının çox mühüm şərtlərindən birinə əməl edilməsi zərurətini cəmiyyətə çatdırmışdır. Həmin şərt müasir mərhələdə xalqın həmrəyliyinin birbaşa dövlətçiliyə xidmət etməsi gərəkliyi ilə bağlıdır.

Həmrəyliyin azərbaycançılıqla bu anlamda yer alması onun praktiki faydasını təmin etmişdir. Görünür, başqa postsovet məkanı ölkələrində cəmiyyətin həmrəyliyi ilə dövlət quruculuğu arasında belə bir ahəngdarlığın olmaması səbəbindən orada müstəqil dövlət quruculuğunu davamlı etmək xeyli çətinliklərlə qarşılaşmışdır.

Həmrəyliyin azərbaycançılıq kontekstinin başqa bir mühüm anlamı da mövcuddur. "31 dekabr" tarixi təsadüfən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi adlandırılmamışdır. Yəni həmrəylik faktiki olaraq bütün dünyanı əhatə edən miqyasda azərbaycanlıların bir olmasının rəmzidir. Məfkurəvi baxımdan bu, azərbaycançılığın qlobal miqyasa nüfuz potensialını ifadə edir. Eyni zamanda, problem daha dərin qatlarda qoyulur – hansı coğrafi məkanda yaşamalarından asılı olmayaraq, azərbaycanlılar fikir və əməl birliyinə yiyələnməyi özlərinin millət və Vətən qarşısında müqəddəs borcu kimi qəbul etməlidirlər.

Azərbaycan ənənəsində bu özəlliyin mənası ayrıcadır. Ənənəvi olaraq, Azərbaycanın vətənsevər insanları azərbaycanlılıqları ilə fəxr etmişlər. Bu məqam bədii, tarixi və fəlsəfi təfəkkürümüzdə ciddi yer tutmuşdur. Son 300 il müddətində həmin keyfiyyət xeyli maneələrlə üzləşmişdir. Bu sırada azərbaycanlıların bir-birinə və dövlətçiliyə münasibətlərində müəyyən təhriflər (atrofiyalar) meydana gəlmişdi. 1991-1993-cü illərdə onun fəsadlarını daha çox hiss etdik. Buna görə də azərbaycanlıların qalıcı psixoloji natamamlıq kompleksinə düşməməsi üçün təsirli ideoloji yön zəruri idi. Onun dahiyanə və praktiki faydası yüksək olan tezisini ulu öndər Heydər Əliyev müəyyən etmişdir: "...həmişə fəxr etmişəm. indi də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Azərbaycanlı olması ilə fəxarət duyan hər bir insan soydaşlarına münasibətdə psixoloji olaraq müsbət köklənəcək. Bu da həmrəyliyin təməl şərtidir!

Deməli, maraqlı ideya-psixoloji "üçbucaq" yaranır: azərbaycançılıq-dövlətçilik-həmrəylik! Onlar bir-birini həm tamamlayırlar, həm də motivəedici faktorlar kimi eyni dərəcədə "mərkəzçi" rolunu oynaya bilirlər. Yəni hər üçü inkişafın mərkəzi ola bilir.

Müasir elmdə bu məqam olduqca əhəmiyyətli faktor sayılır! Onun ideya kökü

### Regionlararası məkan

Regionlararası məkan hazırda bütün dünya dövlətləri üçün çox aktual mövzudur. Regional miqyasda təşkilatlanma ilə regionlararası miqyasda təşkilatlanma arasında ciddi fərqlər mövcuddur. Bu anlamda TDT-nin regionlararası məkanda başqa təşkilatlarla əməkdaşlığı ilə daxili həmrəyliyin uğurlu nisbəti ayrıca aktuallıq kəsb edir. Azərbaycan həmrəylik sinerjisinin regionlararası miqyasda həmrəylik və əməkdaşlıq üçün potensial imkanları mövcuddurmu? Bu, mücərrəd sual deyildir və gerçəkdən türk həmrəyliyinə nail olmaq baxımından aktuallığı yüksəkdir.

### Liderin regionlararası miqyasda siyasəti

Bizcə, bunun üçün azərbaycanlıların həmrəylik fəlsəfəsi ilə liderin regionlararası miqyasda siyasətinin əsas cəhətləri vəhdət təşkil etməlidir. Yəni həmrəylik nümunəsini liderin əməkdaşlıq və inteqrasiya siyasəti tamamlamalıdır. Hazırda mövcud olan təcrübə göstərir ki, bu kontekstdə Prezident İlham Əliyevin regionlararası miqyasda siyasəti yüksək və ədalətli inteqrasiya yarada biləcək keyfiyyətlərə malikdir.

Belə çıxır ki, azərbaycanlıların həmrəylik nümunəsinin başlıca elementləri ilə liderin regionlararası siyasi kursunun birləşdirici, həmrəylik yaradıcı və ümumiyyətlə, inteqrasiyaedici keyfiyyətlərinin sintezi ümumtürk həmrəylik sinerjisinə real məzmun verə bilər. Müşahidə etdiyimiz gedişat artıq bu prosesin başladığını təsdiq edir. Onun iki özəlliyi özünü göstərir.

Birincisi, qarşılıqlı faydalı əməkdaşlıq plartformalarının qalıcı posesə çevrilməsidir. İkincisi, humanitarlığın ön sıraya çıxarılmasıdır.

Həmrəyliyin regionlararası formulu üçün bu iki məqam maraqlı təsir bağışlayır.

Azərbaycan Prezidentinin regionlararası miqyasda siyasətində qarşılıqlı faydalı əməkdaşlıq platformasının plüralizmi diqqəti çəkir. Bu o deməkdir ki, söhbət elə bir dinamik platformadan gedir ki, istənilən situasiyada iştirakçıların hər biri üçün qəbul edilən əməkdaşlıq imkanı təmin edilsin. Bunu türk həmrəylik modelinin baza prisnipi hesab etmək olar.

Eyni zamanda, humanitarlıq faktorunun ön sıraya çıxarılmasının strateji anlamı mövcuddur. Bu o deməkdir ki, türk təşkilatlanma üsulu və türk birliyi üçün humanitarlıq həlledici faktor sayılır. Daha maraqlısı TDT-nin bu ruhsal siyasi özəlliyi bütün dünyaya yaymaq niyyəti ilə bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin TDT-nin yeni qlobal güc olmaq şansı haqqında fikir bildirməsi həmin kontekstdə təsadüfi deyildir.

Beləliklə, həmrəyliyin Naxçıvan sinerjisi ilə Azərbaycan miqyası və ümumtürk miqyası arasında daxili əsaslı məntiqi və məzmun bağlılığı mövcuddur. Azərbaycan həmrəylik və birlik nümunəsi çox geniş geosiyasi məkanda həmrəylik, birlik və humanitarlıq platformalarının sintezi üçün böyük mənbədir! Bu gerçəklik gec və ya tez qəbul ediləcəkdir!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# "Böyük manipulyator"

**Ma k ENDEVELD**

*(əvvəli qəzetin ötən saylarında)*

2002-2007-ci illər arasında Busket dö Florian DST-nin (Daxili Kəşfiyyat İdarəsi – Fransada FBI ekvivalenti) rəhbəri olanda, özünün də xəbəri olmadan gecəni yatıb səhəri gün mətbuatın "Clearstream 2" adlandırdığı skandalın mərkəzində oyanmışdı. Bu dolaşıq məsələnin məğzi onda idi ki, kimsə mətbuata bəzi siyasi xadimlərin gizli bank hesabları olduğunu təsdiq edən bir siyahı göndərmişdi. Sonradan araşdırmalar nəticəsində aydın oldu ki, bu, tamamilə yalan imiş və siyasətçiləri haqsız yerə günahlandırırmışlar. O vaxt nazir olan Nikola Sarkozinin də adı o siyahıda vardı. Ona görə də Sarkozi hər yerdə özünü manipulyasiya qurbanı kimi göstərir və yorulmadan iddia edirdi ki, bütün ölkədə böyük qalmaqal törədən bu yalançı siyahı Dominik dö Villpənt (Şirakın hakimiyyəti dövründə Baş nazir) tərəfindən hazırlanmışdı və məqsəd 2007-ci il prezident seçkilərində onun Jak Şirakı əvəz etməsinə mane olmaqdır. "Mən onun dərisini soyub qəssab qarmağından asacağam", – deyə Sarkozi Dominik dö Villpənti hədələyir. Gələcək prezident (Sarkozi) həm də onun nazirliyinə tabe olan Pier Busket dö Florianı da danlayır, ona Dominik dö Villpəntin əmri ilə o yalançı siyahını ciddi qəbul edib araşdırma aparmasını, eləcə də özünə bu barədə çox gec məlumat verməsini irad tutur. Loran Obadia onu da unutmayıb ki, elə həmin dövrdə Busket dö Florian nazirlər kabinetinə, həmçinin prezident aparatına xəbərdarlıq etmişdi ki, sərhədlərini gücləndirməkdən ötəri Səudiyyə Ərəbistanının Fransa ilə imzaladığı silah müqavilələri Aleksandr Djurinin təşəbbüsü ilə həyata keçir. Nəticədə, 2007-ci ildə Sarkozi prezident seçilən kimi Pier Busket dö Florianı tutduğu vəzifədən xaric edir və yerinə ona sadiq olan adamlardan birini – Bernard Sqarçinini təyin edir. Bu sonuncu, Nikola Sarkozinin prezidentliyi ərəfəsində əks kəşfiyyat idarəsini (DST) Ümumi Məlumat Agentliyini (RG) və Mərkəzi Daxili Kəşfi yyat İdarəsini (DCRI) bir-birinə birləşdirib, dövlət üçün işləyən casusların rəhbəri olacaq...

Emmanuel Makron prezident seçiləndən sonra Sarkozinin adamı Bernard Sqarçini vəzifəsindən xaric edib, onun yerinə Jak Şirakın vaxtında bu vəzifəni tutan, Sarkozinin vaxtında işdən qovulan Pier Busket dö Florianı yenidən ölkə casuslarının rəhbəri təyin edir. Deməli, Makron kəşfiyyatın köhnə veteranı Jak Şirakın müttəfiqi olan adama daha çox etibar edir. Fransua Mitteranın vaxtında Busket dö Florian ədliyyə naziri Alba Şalandonun kabinet direktoru idi. Onu qabağa çəkən Şirak oldu. Fransua Holland Nikola Sarkoziyə qarşı mübarizəsində Şirakın adamlarını sığallayıb-tumarlayıb, onları da hücuma qoşdu. O ki qaldı Makrona, onda heç bir kompleks yoxdur – o, sağçılar partiyasının bütün üzvlərindən istifadə edir. Çox bic, hər şeyi ustalıqla əvvəlcədən ölçüb- biçən Makron bir-birinə düşmən olan klanlardan istifadə etməyi sevir, eləcə də otuz ildən bəri bir-birini didib parçalayan müxtəlif sağçılar arasında utanıb çəkinmədən, kompleksiz-filansız istədiyi seçimi edir. Onun bu qabiliyyəti, tezliklə bəzi məsələlərdə problem yaradacaq...

Bəs Loran Obadia özü həqiqətən kimdir? Bu, şəbəkə adamıdır; uzun illər antiterrorizm üzrə prokuror Alan Marso ilə bir yerdə işləyib. Marso və Obadia Aleksandr Djuri ilə də yoldaşlıq edirdilər... ancaq sonra Nikola Sarkozi ilə Dominik dö Villpəntin dostu (Djuri) haqqında gündəlik qəzetlərin birinci səhifələrində iri başlıqlı məqalələr peyda olanda, tez onunla aranı kəsdilər. Amma Obadia güclü adamdır, onun nüfuzu sağçılar partiyasından çox-çox kənara çıxır. "Veolia" şirkətinin böyük patronu Antuan Frerotun şəxsi məsləhətçisi olmaqla bərabər, o həmçinin "Havas" agentliyinin məsul işçilərindən biri olan Stefan Fuksa ilə yaxındır. O, Makronun xüsusi müşaviri İsmael Emelieni də yaxşı tanıyır, çünki Emelien də əvvəllər Havas üçün, xüsusən də Veolia üçün işləyib. Hər ikisinin başqa bir ortaq nöqtəsi də var: Moris adasının keçmiş Baş nazirinə verdikləri tövsiyələrə qulaq asılmadı. Müxtəlif sahələrdə bir neçə dəfə nağd pulla ödəniş qəbul etdiyindən, Navin Ramqoolam 2014-cü ildə seçkiləri uduzdu.

Loran Obadianın Makronun ən yaxın məsləhətçilərindən biri olan İsmael Emelien ilə yaxınlığı bizə bir sirri açmağa imkan verir. Hər yerə əli girən, hər şeydən əvvəlcədən xəbəri olan Obadia qətiyyən gözləmirdi ki, onun tarixi düşmənlərindən biri olan Busket dö Florian yenicə seçilmiş prezident tərəfindən dövlət aparatının ən yüksək vəzifəsinə təyin oluna bilər. Doğrudanmı bu adam seçki kampaniyası zamanı inanmışdı ki, Makron da onun mənsub olduğu "düşərgəyə" birləşəcək? Ancaq bu anlaşılası bir refleksdir, hələ təzə yaranmağa başlayan makroniyanın Sarkozi ilə, eləcə də Dominik Stros-Kanla əlaqələri çoxsaylıdır. Hollanda qarşı mübarizədə Makron əvvəllər Sarkoziyə, hətta Balladürə (Mitteranın prezidentliyi dövründə 1993-1995-ci illərdə Baş nazir) işləyən adamlardan istifadə etməkdən çəkinmədi. Ancaq paralel olaraq, daha doğrusu, "eyni zamanda" Makron köhnə Sosialist Partiyasından olanları, o cümlədən təxminən on il ərzində anti-sarkozizm düşərgəsində özünü tutmuş Fransua Bayrunu tapdaladı

### Holland Daxili İşlər Nazirliyini təmizləyə bilmir

Obadianın reaksiyasından məlum oldu ki, biz həm də barmağımızla "yolkəsən şəbəkələrə" də toxunuruq. Çoxdandır Afrikada sağçılar partiyasından olan Şarl Paskuanın (1986-1988 və 1993-1995-ci illərdə Fransanın daxili işlər naziri) klanı, köhnə sosialist şəbəkələri ilə, eləcə də onların varisləri korsikalılar ilə sıx əlaqədədir. (Afrika əlaqəsi fəslinə bax) Loran Obadia Fransis Perezi yaxşı tanıyır. Bu axırıncı, keçmiş millətçi lider, Barselonada yerləşən "Pefaco" firmasının rəhbəri, Qərbi Afrikadakı "kazinoların lideri", həmçinin Latın Amerikasında bir neçə hotelin sahibi olan Alan Orsoninin dostudur. Veolia şirkətinin nəzdində Loran Obadia, həm də keçmiş polis məmuru, RAID-in (xüsusi polis qrupu) keçmiş rəhbəri, Stefan Fuksun sayəsində məşhur su şirkətinin "təhlükəsizlik direktoru" vəzifəsində çalışan Jan-Lui Fiamenqi ilə də dostluq edir. Bu nəhəng polis işçisi, eyni zamanda Sarkozinin vaxtında mərkəzi mövqe tutan Frederik Peşenard və Bernard Sqarçini ilə də yaxındır.




Sarkozidən sonra hakimiyyətə gələn Fransua Holland prezident seçiləndən bir müddət sonra Daxili İşlər Nazirliyini "təmizləmək" fikrinə düşür. Bu məqsədlə 2012-ci ilin may ayından etibarən DCRI-nin rəhbəri Bernard Sqarçini, Parisin polis prefekti Mişel Qodin və Dövlət Baş Polis İdarəsinin rəhbəri Frederik Peşenard funksiyalarından xaric edilir. Sarkozistlərin on il at oynatdıqları Daxili İşlər Nazirliyində, İqtisadiyyat Nazirliyində, eləcə də Yelisey sarayının özündə yeni seçilən dövlət başçısı "təmizlik" işləri aparır. Lakin o, istədiyinə yüz faiz nail ola bilmir, çünki Daxili İşlər Nazirliyi son illərdə, tamamilə Sarkozinin eləcə də sağçıların arı pətəyinə dönmüşdü. Sosialistlər, ümumiyyətlə, bütün solçular nə qədər çalışdılarsa, Daxili İşlər Nazirliyini tamamilə ələ keçirə bilmədilər. Dövlət polis iyerarxiyası sağçıların əlində qaldı. Və on illik müxalifətə baxmayaraq, Hollandın dövründə belə sosialistlərin yeni nəsli nə polis məmurları arasında, nə də prefekturada sanballı bir yer tuta bildilər. "Qəribədir ki, Bernard Cazenöv (Hollandın prezidentliyi dövründə Baş nazir) da, Manuel Valls (Hollandın prezidentliyi dövründə Baş nazir) da bu sahədə sistematik olaraq sosialist şəbəkələri tərəfindən təklif olunan namizədlərdən heç birini qəbul etmədilər... və bu sahəni ancaq sağçıların əlində qoymağı üstün tutdular", – deyə sosialist partiyasının keçmiş rəhbərlərindən biri təəssüflə narazılığını bildirir.

Bununla belə, Manuel Valls Sarkozinin kölgədə olan şəbəkə üzvlərinə olmazın əzab-əziyyət verdi, polis məmurlarını, hakimləri və prokurorları qızışdırıb sağçılar tərəfindən "zəbt" olunan Daxili İşlər Nazirliyinin əməkdaşlarının canına saldı. Minotavr "əməliyyatı" adı altında paralel olaraq Bernard Peti (Kəşfiyyat İdarəsi) və Rene Bayyi (Federal polis) tərəfindən aparılan araşdırma korsikalı Mişel Tomini hədəf aldı. Bu sonuncu – "xaç atalarının xaç atası" – Afrikadakı kazinoların kralı Bernard Sqaraçinin yaxın dostudur. 2016-cı ilin yazında Bernard Sqaraçi özü də başqa bir iş üzrə – "vəzifəsindən sui-istifadə" və "dövlət vəsaitinin mənimsənilməsi" maddəsi ilə ittiham edilir.

**(ardı var)**

**Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# “Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)” publik hüquqi şəxsin NİZAMNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1.“Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)” (bundan sonra – AZCON) idarəetməsinə verilmiş dövlət müəssisələrinin, dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin (bundan sonra – dövlət müəssisələri) vahid prinsiplərə uyğun idarə olunması, işinin təkmilləşdirilməsi, rəqabət qabiliyyətinin və maliyyə dayanıqlılığının yaxşılaşdırılması sahəsində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir. AZCON Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, dövlət müəssisələrinin yeganə iştirakçısıdır (payçısıdır, səhmdarıdır) və dövlət adından çıxış edir.

1.2.AZCON öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını rəhbər tutur.

1.3.AZCON öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4.AZCON ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. AZCON bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul olur.

1.5.AZCON-un müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları, loqotipi (emblemi) vardır.

1.6.AZCON-un əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. O, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7.AZCON-un rəsmi adı aşağıdakı kimidir:

1.7.1.tam halda – Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi, qısaldılmış halda – AZCON;

1.7.2.ingilis dilində tam halda – Azerbaijan Transport and Communications Holding, qısaldılmış halda – AZCON.

1.8.AZCON Bakı şəhərində yerləşir.

**2. AZCON-un fəaliyyət istiqamətləri**

2.1.AZCON-un fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1.müvafiq sahənin inkişafını təmin etmək;

2.1.2.müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək, həmin siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.3.müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.4.dövlət müəssisələrində korporativ idarəetməni təşkil etmək;

2.1.5.dövlət müəssisələrinin maliyyə sağlamlığını və dayanıqlılığını yaxşılaşdırmaq;

2.1.6.AZCON-un strateji məqsədlərinə nail olmaq üçün dövlət müəssisələri arasında maliyyə, insan və əməliyyat resurslarının səmərəli idarə olunması üçün tədbirlər görmək;

2.1.7.dövlət müəssisələrinin fəaliyyət göstərdiyi xidmət bazarlarına investisiyaları cəlb etmək, ölkə iqtisadiyyatının inkişafı ilə bağlı müvafiq dövlət proqramlarına və digər normativ hüquqi aktlara uyğun olaraq tədbirlər görmək, dövlət proqramlarının həyata keçirilməsində iştirak etmək, habelə milli və ya beynəlxalq səviyyədə sahəvi və ya sahələrarası investisiya fəaliyyətini həyata keçirmək;

2.1.8.dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyini qiymətləndirmək;

2.1.9.dövlət müəssisələrinin xərclərinin optimallaşdırılması və maliyyə şəffaflığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

2.1.10.dövlət müəssisələrinin gəlirliliyini, bazar dəyərini və rəqabət qabiliyyətini artırmaq;

2.1.11.dövlət müəssisələrində innovasiya proseslərinin və müasir texnologiyaların tətbiqini sürətləndirmək;

2.1.12.dövlət müəssisələrinin fəaliyyətini əlaqələndirmək və davamlı inkişafını təşviq etmək;

2.1.13.dövlət müəssisələrinin infrastrukturunu müasirləşdirmək və inkişaf etdirmək;

2.1.14.dövlət müəssisələrində məlumat əsaslı qərar qəbulu sistemini formalaşdırmaq;

2.1.15.nəqliyyatın idarə edilməsi sistemində “ağıllı” texnologiyaları tətbiq etmək, ictimai nəqliyyat xidmətlərini optimallaşdırmaq və keyfiyyətini artırmaq;

2.1.16.ekoloji təmiz nəqliyyat vasitələrindən istifadəni təşviq etmək;

2.1.17.kosmik tədqiqatları, peyk xidmətlərini və milli kosmik proqramları inkişaf etdirmək, kosmik texnologiyaları genişləndirmək;

2.1.18.xarici nəqliyyat və kommunikasiya şəbəkələrinə inteqrasiyanı dəstəkləmək;

2.1.19.bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. AZCON-un vəzifələri və hüquqları**

3.1.Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, AZCON-un vəzifələri aşağıdakılardır:

3.1.1.müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2.dövlət müəssisələrinin səhmlərini (paylarını) idarə etmək, habelə dövlət müəssisələrinin balansında olan əmlak və onların nizamnamə kapitalında dövlətə məxsus paylar (səhmlər) üzərində bu Nizamnamənin 3.1.32-ci yarımbəndi nəzərə alınmaqla sərəncam, sahiblik və istifadə hüquqlarını həyata keçirmək;

3.1.3.dövlət müəssisələri arasında mövcud resurslardan səmərəli istifadəni, innovasiyaların tətbiqini və rəqabət üstünlüyünü təmin edərək sahələrarası inteqrasiyanı təkmilləşdirmək;

3.1.4.dövlət müəssisələrinin fəaliyyət göstərdiyi sahələrə investisiyaların, o cümlədən xarici investisiyaların cəlbinin stimullaşdırılması ilə bağlı tədbirlər görmək, investisiya fəaliyyətini (investisiya təşəbbüslərinin irəli sürülməsi də daxil olmaqla) həyata keçirmək və investisiyaları səmərəli idarə etmək;

3.1.5.dövlət müəssisələrinin inkişaf və biznes planlarını təsdiq etmək və onların monitorinqini aparmaq;

3.1.6.milli və müvafiq sahə (sektor) üzrə prioritetlərə uyğun olaraq, milli iqtisadiyyatın və müvafiq sahənin (sektorun) inkişafına töhfə vermək;

3.1.7.dövlət müəssisələrinin fəaliyyətini, habelə iqtisadi və maliyyə vəziyyətini təhlil etmək, onların fəaliyyətinin əlaqələndirilməsi və təkmilləşdirilməsi, iqtisadi səmərəliliyinin yüksəldilməsi, o cümlədən maliyyə vəziyyətinin yaxşılaşdırılması və gəlirlərinin artırılması üçün tədbirlər görmək;

3.1.8.dövlət müəssisələrinin fəaliyyət göstərdiyi sahələrdə xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı tədbirlər görmək;

3.1.9.dövlət müəssisələri arasında əməkdaşlığı, innovasiyaları, habelə bilik və resursların səmərəli yayılmasını təşviq etmək üçün mərkəzlər və təcrübə mübadiləsi mexanizmləri yaratmaq və onların maliyyələşdirilməsini təmin etmək;

3.1.10.Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, dövlət müəssisələri adından əqdlər bağlamaq, əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək;

3.1.11.Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, dövlət müəssisələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş məsələləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həll etmək;

3.1.12.dövlət müəssisələrinin restrukturizasiyası ilə bağlı tədbirlər görmək;

3.1.13.dövlət müəssisələrinin hesabatlarına dair tələbləri müəyyənləşdirmək, həmin hesabatların monitorinqini aparmaq və onları təsdiq etmək;

3.1.14.dövlət müəssisələrinin idarə olunmasına dair korporativ idarəetmə standartlarını təsdiq etmək və onların fəaliyyətinin həmin standartlara uyğun təşkilinə nəzarət etmək;

3.1.15.dövlət müəssisələrində əsas səmərəlilik göstəricilərini müəyyən etmək və onların icra vəziyyətinə nəzarət etmək, habelə həmin göstəricilərin təhlil və monitorinqinin nəticələri əsasında dövlət müəssisələrinin fəaliyyətini qiymətləndirmək;

3.1.16.AZCON-un və dövlət müəssisələrinin büdcə proqnozlarını, gəlir və xərclər smetalarını təsdiq etmək və onların icrasının monitorinqini aparmaq;

3.1.17.dövlət müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi əsasında mükafatlandırma siyasətinin həyata keçirilməsi üçün tədbirlər görmək;

3.1.18.dövlət müəssisələrinin xərclərinin optimallaşdırılması məqsədilə onlardan zəruri məlumatları və hesabatları tələb etmək, bu məlumatları və hesabatları təhlil edərək, onların idarəetmə orqanlarına müvafiq göstərişlər vermək;

3.1.19.dövlət müəssisələrində rəqəmsal inkişaf prosesinə nəzarət etmək;

3.1.20.dövlət müəssisələrinin idarəetmə orqanlarının və onların tərkibinin formalaşdırılması üçün tədbirlər görmək;

3.1.21.dövlət müəssisələrinin idarəetmə orqanlarının fəaliyyətini təhlil etmək;

3.1.22.dövlət müəssisələrinin maliyyə resurslarına əlverişli çıxış imkanlarının yaradılması ilə bağlı kompleks tədbirlər görmək;

3.1.23.dövlət müəssisələrinin rəqabət qabiliyyətini artırmaq, onların rəqabət qabiliyyətinə və ixrac potensialına təsir edən amilləri araşdırmaq;

3.1.24.dövlət müəssisələrinin beynəlxalq bazarlarda inkişaf potensialını təhlil etmək və xarici bazarlara çıxış imkanlarının artırılması məqsədilə tədbirlər görmək;

3.1.25.AZCON-un adından Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda aktivlərin alınmasını, idarə olunmasını, habelə daxili və xarici borclanmanı həyata keçirmək, eləcə də dövlət müəssisələrinin müraciəti əsasında onların özləri tərəfindən belə fəaliyyətin həyata keçirilməsinə razılıq vermək;

3.1.26. AZCON-un və dövlət müəssisələrinin fəaliyyətinin müntəzəm monitorinqinə və qiymətləndirilməsinə imkan verən hesabatlılıq sistemini və onların fəaliyyəti barədə məlumatları özündə əks etdirən vahid informasiya sistemini yaratmaq;

3.1.27.AZCON-un və dövlət müəssisələrinin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı monitorinq aparmaq və onun nəticələrinə əsasən tədbirlər görmək;

3.1.28.dövlət müəssisələrinin əmlakından təyinatı üzrə səmərəli istifadəyə nəzarət etmək, dövlət müəssisələrinin müraciəti əsasında onların öz və törəmə müəssisələrinin əmlakının balansdan-balansa (o cümlədən əvəzsiz olaraq) verilməsinə, qiymətləndirilməsinə, habelə onlar tərəfindən həmin əmlakın təyinatının dəyişdirilməsinə, istifadəyə və ya icarəyə verilməsinə, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla girov (ipoteka) qoyulmasına, satılmasına, AZCON-un və dövlət müəssisələrinin iştirak etdiyi layihələrə pay şəklində qoyulmasına, silinməsinə (ləğv edilməsinə) razılıq vermək;

3.1.29.AZCON tərəfindən hüquqi şəxslərin (o cümlədən onların filial və nümayəndəliklərinin) yaradılmasına, yenidən təşkilinə və ləğv olunmasına dair qərar qəbul etmək, eləcə də dövlət müəssisələrinin müraciəti əsasında onların özləri tərəfindən belə fəaliyyətin həyata keçirilməsinə və hüquqi şəxslər yaradıldıqda onların əmlakının pay şəklində qoyulmasına razılıq vermək;

3.1.30.AZCON-un və dövlət müəssisələrinin istifadəsi üçün ayrılmış dövlət torpaqlarından təyinatı üzrə istifadəyə nəzarət etmək, bu torpaqlardan istifadə hüquqlarının dövlət müəssisələri arasında ötürülməsinə və həmin torpaqların mülkiyyətçiyə geri qaytarılmasına torpaq qanunvericiliyinə uyğun olaraq razılıq vermək;

3.1.31.kontragentlərdən təhvil alınmış aktivləri əvəzsiz olaraq dövlət müəssisələrinin balansına ötürmək;

3.1.32.dövlət müəssisələrinin və səhmləri (payları) AZCON-a məxsus olan birgə müəssisələrin təsis sənədlərində dəyişikliklər edilməsi, AZCON-un payının azaldılması, artırılması və özgəninkiləşdirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla qərar qəbul etmək;

3.1.33.dövlət müəssisələrində xarici iqtisadi əlaqələrə aid bütün məsələlərin mərkəzləşdirilmiş qaydada təşkili və həlli barədə qərar qəbul etmək;

3.1.34.AZCON-un və dövlət müəssisələrinin fəaliyyətinin maliyyələşdirilməsi və inkişaf etdirilməsi məqsədilə dövlət müəssisələri tərəfindən qiymətli kağızlar, o cümlədən istiqrazlar buraxılması barədə qərar qəbul etmək;

3.1.35.dövlət müəssisələrinin (publik hüquqi şəxslər istisna olmaqla) iflas (müflisləşmə) proseslərinin həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.36.dövlət müəssisələri tərəfindən Azərbaycan Respublikasının adından alınan borc hesabına maliyyələşdirilməsi təklif edilən layihələrin (o cümlədən icrada olan layihə üçün əlavə maliyyələşdirmənin) və kreditlərin zəmanətlə alınması barədə müraciətlərin zəruriliyini, prioritetliyini, maliyyə dayanıqlığını, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına təsirini qiymətləndirmək;

3.1.37.dövlət müəssisələrinin fəaliyyətindən əldə olunmuş vəsait üzərində sərəncam vermək;

3.1.38.AZCON-a, habelə dövlət müəssisələrinə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət etmək;

3.1.39.AZCON-un mərkəzləşdirilmiş fondlarını yaratmaq, “Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının 4.1-ci bəndinə əsasən dövlət müəssisələrinin AZCON-a ödədikləri vəsaiti həmin mərkəzləşdirilmiş fondlarda cəmləşdirmək və bu vəsait üzərində sərəncam vermək;

3.1.40. dövlət müəssisələrində insan resurslarının idarə olunması ilə bağlı siyasət və qaydaları müəyyən etmək;

3.1.41.AZCON və dövlət müəssisələri tərəfindən məhsulların (mal, iş və xidmətlərin) satın alınması qaydalarını “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən etmək və həmin qaydaların icrasına nəzarət etmək;

3.1.42.AZCON və dövlət müəssisələri tərəfindən həyata keçirilən layihələrin, o cümlədən birgə layihələrin təşəbbüsçüsü, icraçısı və ya sifarişçisi olmaq, layihələri idarə etmək və bu sahədə nəzarəti həyata keçirmək;

3.1.43.dövlət müəssisələrində maliyyə, əməliyyat və daxili nəzarət proseslərinin qiymətləndirilməsi məqsədilə müntəzəm audit yoxlamalarını həyata keçirmək və aşkar edilən nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görmək;

3.1.44.müvafiq sahədə elektron xidmətləri “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.45.öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.46.AZCON-un strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.47.dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.48. AZCON-un informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.49.fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.50.kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, AZCON-un əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.51.qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.52.müvafiq sahədə peşəkar mütəxəssislər hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.53.Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn və AZCON-un səlahiyyətinə aid olan məsələlərlə bağlı Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.54.bu Nizamnamə ilə və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

3.2.Öz vəzifələrini yerinə yetirmək üçün AZCON-un aşağıdakı hüquqları vardır:

3.2.1.müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi barədə aidiyyəti üzrə təkliflər vermək;

3.2.2.fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.3.əməkdaşlarını dövlət təltiflərinə və mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.4.müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.5.müqavilə əsasında müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.6.beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.7.dövlət orqanlarına, qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.8.bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində dövlət müəssisələrinə icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.9.fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.10.fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.11.sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.12.dövlət müəssisələrinə ödənişli və ödənişsiz xidmətlər təqdim etmək;

3.2.13.xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.14.bu Nizamnamə və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. AZCON-un idarə olunması**

4.1.AZCON öz fəaliyyətində mütərəqqi korporativ idarəetmə prinsiplərini tətbiq edir.

4.2.AZCON-un idarəetmə orqanları Müşahidə Şurası və icraçı direktordur.

4.3.AZCON-un Müşahidə Şurası (bundan sonra – Şura) AZCON-a ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4.Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr də daxil olmaqla 7 (yeddi) üzvdən ibarətdir.

4.5.Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6.Şura qərar qəbul etməkdə müstəqildir.

4.7.Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1.AZCON-un və dövlət müəssisələrinin inkişaf istiqamətlərini, strateji məqsəd və planlarını, habelə dövlət müəssisələrinə münasibətdə dividend siyasətini müəyyən etmək;

4.7.2.AZCON-un mənfəətinin və zərərinin bölgüsünü, fəaliyyətinə dair illik hesabatı və illik maliyyə hesabatını, investisiya layihələrini və onların icrasına dair hesabatları təsdiq etmək, dövlət müəssisələri tərəfindən həmin fəaliyyətin həyata keçirilməsinə razılıq vermək;

4.7.3.normativ hüquqi aktlarda başqa qayda nəzərdə tutulmadığı halda, AZCON-un və dövlət müəssisələrinin hesabatlarının formasını təsdiq etmək və təqdim edilməsi müddətlərini müəyyənləşdirmək;

4.7.4.AZCON-un maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək, dövlət müəssisələri tərəfindən həmin fəaliyyətin həyata keçirilməsinə razılıq vermək;

4.7.5.AZCON-un və dövlət müəssisələrinin fəaliyyətinə nəzarət etmək;

4.7.6.icraçı direktorun və onun müavinlərinin fəaliyyətinə nəzarət etmək, onların fəaliyyətini yoxlamaq, habelə təsdiq etdiyi qiymətləndirmə sisteminə uyğun olaraq onların fəaliyyətini qiymətləndirmək;

4.7.7.Şura üzvlərinin və icraçı direktorun müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.8.AZCON-un və dövlət müəssisələrinin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.9.kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.10.AZCON-un və dövlət müəssisələrinin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri AZCON-un və dövlət müəssisələrinin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.7.11.AZCON-un və dövlət müəssisələrinin idarə, filial və nümayəndəliklərini, habelə törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq, onların idarəetmə orqanlarının üzvlərini (rəhbərlərini) vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.12.AZCON-un və dövlət müəssisələrinin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə AZCON-un idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, törəmə təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək, dövlət müəssisələri tərəfindən həmin fəaliyyətin həyata keçirilməsinə razılıq vermək;

4.7.13.AZCON-un, onun idarə, filial və nümayəndəliklərinin, habelə təsərrüfat cəmiyyətlərinin strukturunu, işçilərinin say həddini və əməkhaqqı fondunu təsdiq etmək, dövlət müəssisələri tərəfindən həmin fəaliyyətin həyata keçirilməsinə razılıq vermək;

4.7.14.dövlət müəssisələrinin müşahidə şuralarının üzvlərini, o cümlədən onların rəhbərlərini (icra orqanının rəhbərini Azərbaycan Respublikası Prezidentinin təyin etdiyi qurumlara münasibətdə isə Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla) vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.15.dövlət müəssisələrinin Müşahidə Şurası üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi sistemini təsdiq etmək;

4.7.16.icraçı direktorun vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təqdimat vermək, eləcə də icraçı direktorun müavinlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.17.AZCON tərəfindən bəzi fəaliyyət növlərinin həyata keçirilməsinin tam və ya qismən dövlət müəssisələrinə həvalə edilməsi barədə qərar qəbul etmək;

4.7.18.Şura sədrinin və icraçı direktorun səlahiyyətlərinə aid olmayan, bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

4.8.Şuranın sədri 3 (üç) ayda bir dəfədən az olmayaraq Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir. Şura iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya icraçı direktor çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında qərarlar hər üzvün bir səsi olmaqla açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.9.Şuranın iclasları onun üzvlərinin bilavasitə iştirakı ilə əyani, informasiya texnologiyalarından istifadə etməklə distant, yaxud qarışıq formalarda keçirilə bilər.

4.10.Şura üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.11.Şuranın iclasında icraçı direktor iştirak edə bilər.

4.12.İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli və bu məsələnin müzakirəsində iştirak etməməlidir.

4.13.Gündəliyə daxil edilməmiş və ya tələb olunan bütün aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılığı olduğu hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.14.Şuranın iclasının nəticəsi Şura üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Protokolda iclasın yeri, vaxtı, keçirilmə forması, iştirak etmiş üzvlər barədə məlumat, iclasın gündəliyi, üzvlərin gündəliyə daxil edilmiş məsələlərə dair çıxışlarının xülasəsi, səsvermənin nəticələri və qəbul edilmiş qərarlar əks olunur. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şura protokolu təsdiq edərək icraçı direktora göndərir.

4.15.Şuranın katibini Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın sədri təyin edir və Şuranın katibi Şuranın sədrinə hesabat verir.

4.16.Şuranın katibi:

4.16.1.Şuranın iclaslarını təşkil edir;

4.16.2.bu Nizamnamənin 4.10-cu bəndində nəzərdə tutulmuş vəzifəni icra edir;

4.16.3.Şura iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şura üzvlərinə təqdim edir;

4.16.4.Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şura sədrinə təqdim edir;

4.16.5.Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.17.Şuranın sədri:

4.17.1.Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, özünün və icraçı direktorun qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.17.2.Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

4.17.3.öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya icraçı direktorun müraciəti əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.17.4.Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.18.Şura üzvləri:

4.18.1.Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.18.2.Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılma barədə təklif verirlər;

4.18.3.Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.18.4.Şuranın qərarları və iclas protokolları ilə tanış olurlar.

4.19.Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.20.AZCON-un fəaliyyətinə cari rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən icraçı direktor həyata keçirir. İcraçı direktorun dörd müavini vardır. İcraçı direktorun müavinlərini Şura vəzifəyə təyin və vəzifədən azad edir. İcraçı direktorun müavinləri icraçı direktor tərəfindən onlara həvalə edilmiş vəzifələri yerinə yetirirlər.

4.21.İcraçı direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini icraçı direktorun müavinləri arasından Şura sədrinin müəyyən etdiyi şəxs icra edir.

4.22.İcraçı direktor:

4.22.1.AZCON-u təmsil edir;

4.22.2.Şuranın qərarlarını icra edir;

4.22.3.bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər verir və sənədlər təqdim edir;

*(ardı 8-ci səhifədə)*

# Neft-qaz yataqlarımız ölkəmizə zənginlik gətirir

(əvvəli 1-ci səhifədə)

Dövlət başçısı neft hasilatında buraxılmış nöqsanların xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırıldığını və neft hasilatında sabitliyin təmin edilməsinin vacibliyini bildirib.

Hökumət qurumlarının və Dövlət Neft Şirkətinin bu işlərin gələcək gedişatına daim diqqət yetirəcəyini vurğulayan Prezident İlham Əliyev ölkənin ümumi iqtisadi inkişaf templərini geriyə çəkən bu azalmanın aradan qaldırılacağına və gələn il sabit neft hasilatının təmin ediləcəyinə ümidvar olduğunu diqqətə çatdıraraq deyib: “Nəzərə alsaq ki, hazırda biz neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işləyirik və o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımız var. Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır”. Bu da 2025-ci ildə ölkə üzrə neft hasilatında sabitliyin yaranacağına inam yaradır.

Yeri gəlmişkən, ABŞ Enerji İnformasiya Administrasiyası (EİA) 2026-cı ildə Azərbaycanda neft hasilatı ilə bağlı proqnozunu açıqlayıb. Qurum gələn il ölkəmizdə neft hasilatının sutkada 0,62 milyon barelə çatacağını ehtimal edir. Bununla belə,



Azərbaycanın 2025-ci il üçün neft hasilatı proqnozu isə sutkada 0,63 milyon barel səviyyəsində saxlanılıb.

EIA-nın proqnozlarına görə, Azərbaycanda neft hasilatı 2025-ci ilin birinci rübündə gündəlik orta hesabla 0,61 milyon barel, ikinci rübdə gündəlik 0,62 milyon barel olacaq. Üçüncü və dördüncü rüblərdə isə gündəlik neft hasilatında 0,64 milyon barelə qədər artım gözlənilir. Qurumun proqnozuna əsasən, gələn il isə hasilat birinci rübdə sutkada 0,63 milyon barel olacaq, ikinci rübdə isə gündəlik 0,62 milyon barelə qədər azalacaq. Üçüncü və dördüncü rüblərdə hasilatın gündəlik 0,61 milyon barelə qədər azalacağı proqnozlaşdırılır.

Əvvəlki illərdə olduğu kimi, “qara qızıl”ın magistral neft kəmərləri ilə dünya bazarına nəqli də fasiləsiz olaraq davam edib. Nazirliyin məlumatına əsasən, ötən il 24,4 milyon ton neft (kondensat ilə birlikdə) ixraca nəql olunub. Bunun 21 milyon tonu Azərbaycan hökuməti ilə tərəfdaşlıqda çalışan konsorsiumun, 2,8 milyon tonu SOCAR-ın, 0,6 milyon tonu isə “Abşeron” yatağının payına düşüb.

2024-cü ildə Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda 5,8 milyon ton xam neft emal olunub. Yeri gəlmişkən, ölkəmizdə xam neftin emalı təməli 1953-cü ildə qoyulmuş Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda həyata keçirilir. Daxili bazarın neft məhsullarına olan tələbatını tam ödəyən zavodda son illər bir sıra yenidənqurma və modernləşdirmə işləri aparılıb.

Energetika Nazirliyinin məlumatına görə, 2024-cü ildə ölkədə 50,3 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 13,3 milyard kubmetri “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun, 27,8 milyard kubmetri “Şahdəniz” və 1,5 milyard kubmetri “Abşeron” yataqlarının payına düşüb. Hesabat dövründə SOCAR-ın tabeliyində olan müəssisələr tərəfindən isə 7,7 milyard kubmetr “mavi yanacaq” hasil olunub.

2006-cı ilin sonlarında istismara daxil edilmiş “Şahdəniz” yatağından indiyədək 236,8 milyard kubmetr qaz hasil edilib. Ötən 30 ildən artıq müddətdə “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan isə 229,7 milyard kubmetr “mavi yanacaq” çıxarılıb. 2025-ci il yanvarın 1-dək həmin yataqlardan 169,5 milyard kubmetr qaz ixraca nəql edilib.

Ümumilikdə, Azərbaycanda quru və dəniz yataqlarından indiyədək, təqribən, 1 trilyon 370 milyard kubmetr qaz çıxarılıb. Mütəxəssislər ölkəmizin mövcud qaz ehtiyatlarının 2,6 trilyon kubmetr həcmində qiymətləndirirlər. Bu isə o deməkdir ki, yaxın gələcəkdə ölkə üzrə qaz hasilatı bir qədər də artacaq.

Ötən il Azərbaycanın xaricə qaz ixracı 25,2 milyard kubmetr təşkil edib ki, bu da 2023-cü illə müqayisədə 5,8 faiz çoxdur. Qazın 12,9 milyard kubmetri Avropaya, 9,9 milyard kubmetri Türkiyəyə, 2,4 milyard kubmetrdən çoxu isə Gürcüstana satılıb. İl ərzində Türkiyəyə TANAP-la 5,6 milyard kubmetr qaz nəql olunub.

# “Ziraat Bank” Naxçıvanda

**Dünən “Ziraat Bank Azərbaycan” ASC-nin Naxçıvan filialı istifadəyə verilib. Mərasimdə dövlət və hökumət rəsmiləri, Türkiyə Cümhuriyyətinin muxtar respublikadakı baş konsulu, konsulluğun əməkdaşları, iş adamları və ictimaiyyət nümayəndələri iştirak ediblər.**




Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova, Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasındakı baş konsulu Asip Kaya, “Ziraat Bank Azərbaycan” ASC İdarə Heyətinin sədri Selçuk Demir və Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini icra edən Abbas İsmayılov Türkiyənin ən böyük banklarından olan “Ziraat Bank”ın Azərbaycanda 10-cu filialının Naxçıvanda istifadəyə verilməsini mühüm yenilik kimi dəyərləndiriblər. Çıxışlarda “Ziraat bank”ın Naxçıvan iqtisadiyyatının inkişafına töhfə verəcəyi və sahibkarlıq üçün yeni üfüqlərin açılacağı ifadə olunub.

Qeyd edilib ki, “Ziraat Bank Azərbaycan” 160 illik tarixi olan və dünyanın 19 ölkəsində fəaliyyət göstərən “Ziraat” Maliyyə Qrupunun üzvü kimi geniş müxbir əlaqələrinə malikdir. Burada müştərilərə beynəlxalq ticarətdə istifadə edilən ən müasir bank məhsulları və xidmətləri təqdim edilir. Dünyanın ən qabaqcıl bankları ilə partnyor əlaqələri mövcud olan bank ölkəmizdə istehsalın hər sahəsində müştərilərə kredit və xüsusi faiz dərəcələri təklif edir. Filialda sahibkarlığın inkişafı, xüsusilə də kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlara dəstək məqsədilə xüsusi şərtlərin təqdim ediləcəyi nəzərdə tutulur.

Tədbir çərçivəsində Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu ilə “Ziraat Bank Azərbaycan” ASC arasında əməkdaşlıq müqaviləsi imzalanıb. “Ziraat Bank Azərbaycan” ASC İdarə Heyətinin sədri Selçuk Demir və Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu İdarə Heyətinin sədri Vüsal Novruzovun imzaladığı müqaviləyə əsasən tərəflər güzəştli kreditlərlə sahibkarlara maliyyələşdirmə imkanları yaradılmasına birgə dəstək olacaqlar.

*Səbuhi HƏSƏNOV*
*XQ*

**Naxçıvan**




# Ötən il orta illik inflyasiya 2 faizi keçib

**Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il ölkəmizdə orta illik inflyasiya 2,2 faiz, o cümlədən qida məhsulları üzrə 1,3 faiz, qeyri-qida məhsulları üzrə 1,6 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 4 faiz təşkil edib.**

Məlumata görə, 2024-cü ilin dekabr ayında istehlak qiymətləri əvvəlki ilin eyni ayına nisbətən 4,9 faiz, o cümlədən qida məhsulları üzrə 5,5 faiz, qeyri-qida məhsulları üzrə 2,4 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 6,3 faiz artıb.

Ötən ay istehlak qiymətləri əvvəlki aya nisbətən 1 faiz artıb. O cümlədən, qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri əvvəlki aya nisbətən 2 faiz çoxalıb.

2024-cü ilin dekabr ayında əhaliyə göstərilən ödənişli xidmətlər üzrə istehlak qiymətləri noyabra nisbətən 0,3 faiz artıb. Əhaliyə göstərilən ödənişli xidmətlərdən artım əsasən stomatoloji xidmətlərin, restoran və kafelər tərəfindən göstərilən iaşə xidmətlərinin, hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

# 176 milyon manat “ƏDV geri al”

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən “XQ”yə bildirilib ki, 2024-cü il ərzində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələrinin və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin göstərdikləri tibbi xidmətlərə görə ödənilən ƏDV-nin 176 milyon 360 min manatı istehlakçılara geri qaytarılıb.**



Məlumata görə, hesabat dövründə “ƏDV geri al” layihəsinin əhatə dairəsinin genişləndirilməsi nəticəsində fiziki şəxs olan istehlakçılar tərəfindən ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması prosesi də davam etdirilib. 2024-cü il ərzində nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılan həcmi 26 milyon 418 min manatdan çox olub.

# Yeni kassa aparatları 24,5 milyard əməliyyat qeydə alıb



**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, 2024-cü ilin yanvar – dekabr aylarında yeni nəzarət – kassa aparatları (NKA) vasitəsilə qeydə alınan dövriyyə 24 milyard 500 milyon manatı (2023-cü illə müqayisədə 2,6 milyard manat və ya 12 faiz çox) ötüb.**

Qeyd edilib ki, indiyədək ölkə ərazisində 104 min ədəd yeni nəsil NKA quraşdırılıb. Həmin aparatlardan istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyələrə nəzarətin təmin edilməsinə imkan yaradıb.

# Köhnə avtomobillər yollara “əlvida” deyir

## *Son 3 ayda 223 maşın utilizatora verilib*

**“Tullantılar haqqında” Azərbaycan Respublikasının Qanununun müddəalarına uyğun olaraq nəqliyyat vasitələrinin utilizasiyaya qəbulu davam edir. Ötən ilin oktyabr ayından indiyə qədər 223 nəqliyyat vasitəsi utilizasiyaya təhvil verilib. Bu rəqəm isə gündən-günə artmaqdadır. Bu barədə “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətindən məlumat verilib.**



Bildirilib ki, “Təmiz Şəhər” ASC-nin operatorluğu ilə həyata keçirilən proqramda iştirak edən şəxslərə onların təhvil verdikləri nəqliyyat vasitələrinin təsnifatına uyğun olaraq təsdiqedici sənədlər üzrə 140 min manatdan çox birdəfəlik ödəniş verilib. Eyni zamanda, yerli istehsal yeni nəqliyyat vasitələrinin satışı üzrə 25 min manat güzəşt tətbiq edilib.

Qeyd edək ki, nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi könüllülük prinsipi əsasında aparılır və məcburi xarakter daşımır. Mövcud tələblərə əsasən, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilən qaydada əvvəlcə nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Daha sonra çıxdaş arayışı əsasında zəruri məlumatlar vətəndaşların rahatlığını təmin etmək məqsədilə yaradılan www.nvu.gov.az portalına daxil edilməli və nəqliyyat vasitəsi ərizəçi tərəfindən seçilmiş utilizatorun qəbul məntəqəsinə təyin edilmiş vaxtda təhvil verilməlidir.

“Təmiz Şəhər” ASC-dən bildirilib ki, hazırda reyestrdə qeydə alınmış yalnız bir utilizator – “Fors” MMC nəqliyyat vasitələrinin utilizasiyaya qəbulunu Bakı şəhərində həyata keçirir. Bununla yanaşı, hazırda reyestrdə qeydiyyatdan keçmək istəyən ərizəçilərin müraciətləri dənəzərdən keçirilir. Gələcəkdə isə regionlarda utilizatorların qeydiyyatı və qəbul məntəqələrinin fəaliyyət göstərməsi nəzərdə tutulur.

# Dövlət Neft Şirkətinin mənfəəti 9,3 faiz artıb

**Azərbaycan Dövlət Neft Şirkətinin (ADNŞ) məlumatına görə, qurum 2024-cü ilin I yarısını 1,545 milyard manat (2023-cü ilin eyni dövrünə nisbətən 9,3 faiz çox) xalis mənfəətlə başa vurub.**

Qeyd edilib ki, ötən ilin yanvar–iyun aylarında ADNŞ satışdan (əsas əməliyyat) gəlirləri 45,054 milyard manat (illik müqayisədə 6,8 faiz çox), satışının maya dəyəri 41,347 milyard manat (10,1 faiz çox), ümumi və inzibati xərcləri 953 milyon manat (2,7 faiz çox), sosial xərcləri 136 milyon manat (9,7 faiz çox), kəşfiyyat və qiymətləndirmə xərcləri 7 milyon manat (40 faiz çox) təşkil edib.



2024-cü il iyulun 1-nə ADNŞ-in vəsaitləri 72,581 milyard manat olub ki, bu da 1 il əvvələ nisbətən 3,2 faiz çoxdur. Hesabat dövründə şirkətin öhdəlikləri 0,9 faiz azalaraq 36,402 milyard manata, balans kapitalı isə 7,6 faiz artaraq 36,179 milyard manata, o cümlədən nizamnamə kapitalı 5,3 faiz artaraq 5,014 milyard manata çatıb.

Xatırladaq ki, ADNŞ ölkə Prezidentinin 13 sentyabr 1992-ci il tarixli fərmanı ilə yaradılıb. 100 faiz dövlətə məxsus şirkətin əsas fəaliyyəti neft, qaz və qaz kondensatlarının hasilatı, emalı və nəql edilməsi, eləcə də neftin, qazın və neft məhsullarının satışından ibarətdir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin NİZAMNAMƏSİ

**(əvvəli 6-cı səhifədə)**

4.22.4.müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində AZCON-un Aparatının, digər struktur bölmələrinin, habelə təsərrüfat cəmiyyətlərinin strukturunu və ştat cədvəlini Şura ilə razılaşdırmaqla təsdiq edir;

4.22.5.AZCON-un işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini Şura ilə razılaşdırmaqla, əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.22.6.bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, AZCON-un, o cümlədən AZCON-un idarə, filial və nümayəndəliklərinin işçilərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə Şura ilə razılaşdırmaqla qərarlar qəbul edir;

4.22.7.AZCON-un əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.22.8.bu Nizamnamənin 3.1.39-cu yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.22.9.AZCON-un fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.22.10.AZCON-un fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.22.11.bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində AZCON-un adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.22.12.özünün və AZCON-un struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.22.13.AZCON-un fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.22.14.fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin qorunması, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.22.15.AZCON-da kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.22.16.AZCON-da müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

4.22.17.aidiyyəti şəxslə dəyəri AZCON-un və dövlət müəssisələrinin aktivlərinin 5 faizinədək hissəsini təşkil edən əqdin bağlanması haqqında Şura ilə razılaşdırmaqla qərar qəbul edir;

4.22.18.AZCON-un strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir;

4.22.19.bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görür;

4.22.20.cari və operativ məsələlər barədə Şuranı məlumatlandırır.

4.23.İcraçı direktor adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidir.

**5. AZCON-un nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1.AZCON-un nizamnamə fondu 10 000 000 (on milyon) manatdır.

5.2.AZCON-un əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi digər əmlakdan, dövlət müəssisələrinin ödədiyi vəsaitdən, habelə fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3.AZCON öz əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir.

5.4.AZCON qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra AZCON-un, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5.AZCON-un mənfəəti Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6.AZCON-un məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

5.7.Dövlət müəssisələrinin AZCON-a ödədikləri vəsaitdən AZCON-un bu Nizamnamədə nəzərdə tutulmuş səlahiyyətlərini həyata keçirmək üçün istifadə olunur.

**6. AZCON-un fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1.AZCON-un fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada AZCON-un idarəetmə orqanları həyata keçirirlər.

6.2.AZCON-un fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**7. AZCON-da uçot və hesabat**

7.1.AZCON "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotu aparır, maliyyə hesabatlarını, o cümlədən AZCON-un və dövlət müəssisələrinin birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2.AZCON "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3.AZCON və dövlət müəssisələrinin idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4.AZCON özünün və dövlət müəssisələrinin fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. AZCON-un ləğvi və yenidən təşkili**

AZCON-un ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

**Epidemioloji durum**

# Metapnevmovirus qanad açır

## *Hələlik onun pandemiyaya çevriləcəyi məlum deyil*

**Tədqiqatçılar insan metapnevmovirusunun geniş yayılan və mövsümi xəstəliklərdən bir addım irəliləyərək, potensial pandemiya riskinə çevrilə biləcəyini də söyləyirlər. Çünki HMPV hər il mövsüm dəyişiklikləri ilə əlaqədar çox sayda insanda xəstəliklərə yol açır.**



Hazırda dünyanın bir sıra ölkələrində yayılan metapnevmovirusun pandemiyaya çevrilməsi gündəmdədir. Lakin Ümumdünya Səhiyyə Təşkilatının yeni virusun pandemiya təhlükəsi yaradacağı barədə verdiyi proqnoz deyilənləri təkzib edir. ÜST-ün direktoru Tedros Qebreyesus hələ ki, heç bir təhlükə olmadığını bildirib.

O deyib ki, hazırkı dövrdə fövqəladə vəziyyət və səhiyyənin səfərbər olunmasından söhbət gedə bilməz. "Dünya mətbuatında bu qədər çox qabardılan virus ÜST və alimlərə çoxdan məlumdur, o, artıq bir neçə qışdır bu formada təzahür edir" – deyə Qebreyesus bildirib.

O qeyd edib ki, metapnevmovirusun alovlanması da Çində baş verib. Artıq dünyanın 80-dən çox ölkəsinə keçib və hava damcı yolu ilə yayılır. Metopnevmorus artıq COVID pandemiyasının olduğu illərdəki kimi dünyanı çalxalayır. Artıq bir çox ölkə həkimləri yenidən maska qorunmasını gündəmə gətiriblər.



Rusiyalı immunoloq Nikolay Kruçkov maskanın virusdan nə dərəcədə qoruya biləcəyinə aydınlıq gətirib. "İstənilən qrip, kəskin respirator xəstəlikdən qorunmaq üçün tibbi maska əsas şərtdir. Çünki yoluxdurucu mənbə insanlardır. Biz insanlarla daha çox ünsiyyətdə oluruq. İstənilən soyuqlama əlaməti qrip, kovid və ya metapnevmovirusun əlaməti ola bilər".

Həkim bildirib ki, virus yayılan dövrdə kimin harada, hansı virusa yoluxacağını deyə bilmərik: "Ona görə xəstə də, sağlam da təhlükəsizlik tədbiri görməlidir. Yəni, insan yoluxubsa və özündə virusa aid əlamətlər hiss edirsə, dərsə və ya işə getməməlidir. İctimai nəqliyyatdan istifadə etməməli, insanların sıx toplaşdığı məkandan uzaqlaşmalı və özünü təcrid etməlirir. Ağızı, burunu bağlamaq, əlləri dezinfeksiya etmək lazımdır".

Kruçkov əlavə olaraq deyib ki, COVID-i, qripi və yeni virusu ayrıd etmək mümkün deyil: "Buna görə də maska immunoloji zəif xəstələrə, uşaqlara, hamilələrə, yaşlılara, xüsusən lazımdır. Tibbi maska ictimai yerlərdə taxılmalı, havada çıxarılmalı, bir maska cəmi 2–3 saat istifadə edilməli, sonra atılmalı və əllər yuyulmalıdır".

Rusiyalı bioloq Ança Baranova isə "Hazırda daha çox uşaqların yoluxduğu və ağırlaşma ehtimalı çox olan metapnevmovirus nə dərəcədə təhlükəlidir?" – sualına cavab verərkən virusun özəlliyindən danışıb. Jurnalistlərə açıqlamasında deyib ki, Çində alovlanan metapnevmovirus daha çox 15 yaşa qədər uşaqların arasında yayılıb. Virus Hindistan, Qırğızıstan və bir sıra ölkələr kimi Rusiyada da yayılıb. Bütün uşaqlar bu virusa yoluxur, onlarda immunitet yaranır, böyüklərə isə xəstəlik yenidən qayıda bilər".

Virusun əlamətlərindən söz açan A.Baranova vurğulayıb ki, infeksiyaya yoluxanlarda həm burunaxma, həm boğazağrısı, həm boğucu öskürək ola bilər. Adətən, xəstəlik 5–7 gün çəkir. Amma ağciyər, astma xəstələrində, immunitet defisiti olanlarda pnevmoniya ilə ağırlaşa bilər: "Metapnevmovirus pandemiyadan sonra hər il dövr edir və mövsümi yoluxma olur. Hətta statistikası da aparılır. Bu infeksiyaya qarşı spesifik virus dərmanı yoxdur. Ona görə hərarətsalıcı, burunaçıcı, öskürək əleyhinə dərmanlardan istifadə olunur. Tez-tez pnevmoniyaya çevrildiyi üçün antibiotiklər təyin edilir, lakin bunu həkim təyin etməlidir".

"Pnevma virus ailəsinə aid olan metapnevmovirusun Azərbaycanda yayılması ilə bağlı rəsmi məlumat olmasa da, onun ölkəmizə də gəlməsi real və mümkündür". Bu fikri isə professor Adil Qeybulla deyib. O bildirib ki, biz qloballaşan dünyanın tərkib hissəsiyik. Amma bunu faciəyə çevirməkdən, hay-küy yaratmaqdan daha çox çalışmalıyıq ki, COVID-19 pandemiyası kimi prosesi yaşayan insanlar olaraq bu vərdişlərdən yenə də istifadə edək. Mümkün qədər yoluxmayaq, yoluxdurmayaq. Bu bizim əsas devizimiz olmalıdır: "Bunun üçün maska taxmalı, əllərin gigiyenasına fikir verməli, məsafə gözləmək lazımdır. Xəstələnən zaman yataq rejiminə keçmək, bol maye qəbul etmək, sağalana qədər işə çıxmamaq vacibdir. Bu qaydalara riayət etsək, həm yoluxan az olar, həm də özümüz yoluxmarıq. Biz hansısa xəstəliyə yoluxanda bilmirik ki, bu qripdir, metapnevmovirus və ya COVID-19-un Omikron ştamının mutasiya variantıdır. Amma onun müalicəsinə demək olar ki, bir-birinə yaxın üsullarla mübarizə aparırıq. Spesifik müalicə yoxdur. Müalicə immun sisteminə dəstəkdən ibarətdir".

***Zərifə HÜSEYNOVA***
***XQ***

**Qayıdışın akkordları**

# Xocalı – yurd sevgisindən od alan ocaqlar

**Hər yeni köç karvanı yenidən qurulan, gündən-günə abadlaşan, gözəlləşən Xocalının heç vaxt unudulmayacaq dərdlərinə məlhəm olur, övladları geri döndükcə bu qədim türk yurdunun yaraları sağalır. Sözsüz, Xocalı indi tarixinin ən xoşbəxt günlərini yaşamaqdadır.**




Möhtəşəm qələbələrimizin memarı, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq yanvarın 15-də şəhər növbəti dəfə sevinclə, sevgiylə öz doğma sakinlərinə qucaq açdı. 2025-ci ildə ilk dəfə olaraq "Böyük Qayıdış" proqramı çərçivəsində Xocalı şəhərinə 25 nəfərdən ibarət 6, rayonun Ballıca kəndinə isə 102 nəfərdən ibarət 20 ailənin növbəti köçü baş tutdu. Beləliklə də, daha 127 xocalılının həsrəti sona çatdı, bu gündən sonra Xocalıda daha 26 evdə hər zaman gur işıqlar yanacaq.



Ağdamdan yola salınan keçmiş məcburi köçkünləri Xocalıda və Ballıcada Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəliyinin əməkdaşları, daha əvvəl məskunlaşmış sakinlər böyük coşqu ilə qarşıladılar. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin də iştirakı ilə keçirilən mərasimdə onlara yeni mənzillərinin açarları təqdim edildi.



Xankəndi şəhərində, Xocalı və Ağdərə rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Telman Kərimli bildirdi ki, Xocalı şəhəri bu gün artıq ümidlərin, arzuların məkanıdır: "Otuz iki ildən artıqdır işığı sönmüş evlərdə çıraqlar yanır, gülüş səsləri eşidilir. Bugünədək Xocalı şəhərində 46 ailənin daimi məskunlaşması təmin edilib. Ötən ildən etibarən Xocalının Ballıca kəndinə də köç başlayıb və bununla üçüncü dəfədir ki, bu kənddə köç həyata keçirilir. İndiyədək Ballıcaya ümumilikdə 68, Xocalı şəhərinə isə 52 ailə köçürülüb".



T.Kərimli qeyd etdi ki, Xankəndi şəhəri, Xocalı və Ağdərə rayonlarına köç prosesi 2025-ci ildə də mərhələli şəkildə davam edirilicək.

Daha sonra məcburi köçkünlük həyatı rəsmi olaraq sona çatan xocalılılar yeni evlərində yerləşməyə başladılar. Biz də "Xalq Qəzeti" olaraq köç həyəcanları davam edən sakinlərin sevinclərinə şərik olduq, onların bir neçəsinin xoş təəssüratlarını öyrəndik. Yeganə Kərimova:

–Uzun illərdir Şəki şəhərində məskunlaşmışdıq. Vətən həsrəti ilə dolu o ağır günlərimizdə hər zaman dövlətimizin qayğısını hiss etmişik və inanmışıq ki, nə vaxtsa mütləq öz doğma yurdlarımıza qayıdacağıq. 33 ilə yaxındır bu anları gözləyirdik. Allaha şükürlər olsun, bu gün bizim arzularımızın reallığa çevrildiyi gündür! Ballıça kəndində evlə təmin olunmuşuq, indi gedirik yeni evimizə yerləşməyə. Bizimlə birgə köçən hər kəsə gözaydınlığı verirəm. Allah belə bir günü yaşamağı bütün arzulayanlara qismət eləsin!

Firuz Quliyev:

– Mən özüm birinci Qarabağ müharibəsi veteranıyam. O vaxt Azərbaycana "rəhbərlik etmiş" üzdəniraqların satqınlıqları ucbatından bizim çəkdiyimiz əziyyətlər yerdə qalmışdı. Bu mənada müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında rəşadətli ordumuz 44 günlük Vətən müharibəsində həm şəhidlərimizin qanlarını, həm də bizim qisasımızı aldı. Fəxr edirəm ki, torpaqlarımızın işğaldan azad edilməsində iki oğlum ləyaqətlə iştirak edib və bu gün onlarla birgə doğma Qarabağımıza qayıtdım. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Heç zaman unutmayacağımız bu gözəl günlər üçün dövlətimizə, möhtərəm cənab Prezidentimizə minnətdaram! Bu xoşbəxtliyi bizə qismət edən Allaha şükürlər olsun!

Biz də xoş arzulara qoşuluruq.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

# Səfir Kopırkinə daha bir etiraz notası verildi

## *Paşinyan isə özünü o yerə qoymur və Rusiya ilə “qarşılıqlı-faydalı əməkdaşlıq”dan dəm vurur*

**Ermənistan–Rusiya münasibətlərində, necə deyərlər, bir müddətdir əsən soyuq küləklər son günlərdə baş verən bəzi hadisələrlə daha da güclənib. Əlbəttə, söhbət rəsmi İrəvanın yanvarın 9-da Avropa İttifaqına üzv olmaq istəyini bəyan etməsindən və yanvarın 14-də ABŞ-la strateji tərəfdaşlıq haqqında saziş imzalamasından gedir. Düzdür, Rusiya rəsmiləri Ermənistan hökumətinin bu addımlarını rəsmi İrəvanın suveren hüququ kimi qiymətləndirirlər. Amma bundan narazı qaldıqlarını da gizlətmirlər.**

Ermənistan–Rusiya münasibətlərindəki narazılıq dünən özünü bir daha göstərib. Rusiyanın fövqəladə və səlahiyyətli səfiri Sergey Kopırkin yanvarın 15-də Ermənistan xarici işlər nazirliyinə çağrılıb. Bu barədə məlumatı Ermənistan xarici siyasət idarəsi yayıb. Bildirilib ki, səfirin XİN-ə çağrılmasına 2025-ci il yanvarın 12-də Ümumrusiya Dövlət Televiziyasında (“Rossiya-1”) yayımlanan “Həftənin xəbərləri” (“Vesti nedeli”) verilişi ilə, daha doğrusu, verilişdə səslənən fikirlərlə bağlıdır. Qeyd olunub ki, proqramın həmin buraxılışında Ermənistanın suverenliyi və ərazi bütövlüyünə qarşı fikirlər səsləndirilib. Ermənistan xarici siyasət orqanı söhbətin hansı fikirlərdən getdiyini açıqlamayıb. Yalnız bildirilib ki, verilişdə “Ermənistan Respublikasının suverenliyi və ərazi bütövlüyü əleyhinə” süni şəkildə quraşdırılmış çıxışlar səsləndirilib. Görüşün sonunda Rusiya səfirinə müvafiq etiraz notası təqdim edilib.



Qeyd edək ki, bu, Rusiya səfirinin Ermənistan xarici işlər nazirliyinə ilk dəfə çağrılması deyil. Bundan əvvəl də rəsmi İrəvan dəfələrlə səfir Kopırkini nazirliyə dəvət etmiş və ona iradlarını bildirmişdir. Artıq bu məsələ sistemli xarakter alıb. Münasibətlərin indiki səviyyəyə gəlib çatması isə Azərbaycanın regionda yaratdığı yeni geosiyasi reallıqların nəticəsi kimi qiymətləndirilməlidir. Bu geosiyasi reallıqların yaradılmasının əsası isə 2020-ci ilin payızında baş verən İkinci Qarabağ müharibəsi zamanı qoyulub. Nikol Paşinyanın hakimiyyətə gəldiyi 2018-ci ilin mayından sonra münasibətlərdə yaranmış xırda anlaşılmazlıqları nəzərə almasaq, demək mümkündür ki, həmin vaxtadək Rusiya–Ermənistan münasibətləri yüksələn xətt üzrə inkişaf edirdi.

Heç kəsə sirr deyil ki, Ermənistan həm də Rusiyaya güvənərək, 2020-ci il sentyabrın 27-də sərhədyanı bölgədə genişmiqyaslı təxribatlar törətməyə cəhd göstərmişdi. Rusiyanın mövqeyinin necə olduğunu Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində ötən il Qazax rayonunun dörd kəndinin erməni işğalından azad edilməsinə dair suala cavabında ətraflı izah etmişdi: “Deyərdim ki, bu, dialoq deyil, monoloq nəticəsində baş verdi. Belə ki, Ermənistanla onilliklər ərzində dialoqun alınmaması aydındır. Ermənistanın işğalçı siyasəti hər hansı dialoqu nəzərdə tutmurdu, onlar danışıqlar formatından işğalı davam etdirmək üçün pərdə kimi istifadə edirdilər. Bu yaxınlarda mətbuatda çıxan informasiya – məhz Ermənistanın birinci prezidentinin faşist bəyanatı bizim prinsipcə kifayət qədər çoxdan bildiyimizi bir daha təsdiq edir: Ermənistan Azərbaycan ərazilərinin bir santimetrini belə azad etmək istəmirdi. Onlar hesab edirdilər ki, bir müttəfiqdən milyardlarla dollarlıq pulsuz silah, digər ikisindən isə siyasi və mənəvi dəstək aldıqlarına görə özlərini rahat hiss edirlər. Beləliklə, ATƏT-in Minsk qrupunun üç həmsədrinin hamısı mənim cavab verdiyim həmin dövrdə birmənalı olaraq işğalçının tərəfində idi. Mən bunu 2004-cü ildən Minsk qrupu çərçivəsində danışıqlar aparan və bu “üçlüklə” çoxlu sayda görüşlər keçirən insan kimi deyirəm. Ona görə də biz, əlbəttə, bu ərazilərin dialoq yolu ilə qaytarılacağını güman etmirdik. Eləcə də ərazi bütövlüyünün təmin edilməsini...”

Həqiqətən də 2020-ci ildə Azərbaycanın Zəfəri ilə yekunlaşan Vətən müharibəsi bölgənin geosiyasi mənzərəsini dəyişdi, uzun illər mövcud olmuş, hər üç həmsədrin möhkəmlənməsinə çalışdıqları status-kvo pozuldu. Doğrudur, yeni regional nizam hələ tam formalaşmadığından bəzən gərginlik və qeyri-müəyyənlik də müşahidə olunur. Ermənistan–Rusiya ikitərəfli münasibətlərindəki tendensiya isə bu ölkələr arasında uzun illər mövcud olmuş müttəfiqliyin aşınması prosesinin getdiyini göstərir. Haylar qanunsuz əməllərinin cəzasız qalmasına o qədər arxayınlaşmışdılar ki, İkinci Qarabağ müharibəsi zamanı da himayədarlarından güclü dəstək alacaqlarını düşünürdülər. Ancaq Prezident İlham Əliyevin yürütdüyü balanslı xarici siyasət kursu, Rusiya ilə əlaqələrə yeni forma və məzmun verilməsi rəsmi Moskvanı İkinci Qarabağ müharibəsi zamanı beynəlxalq hüquqa hörmətlə yanaşmağa vadar etdi. Ermənistan hökuməti bölgəyə rusiyalı sülhməramlı qüvvələrin gəlişini, Qarabağda hələ də separatçı rejimin tör-töküntüsünün qalmasını nəzərə alaraq “bəlkə də qaytardılar” düşüncəsi ilə Rusiya ilə, necə deyərlər, körpüləri tam yandırmadı. 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri nəticəsində isə “cin şüşədən çıxdı” və Ermənistan–Rusiya münasibətləri daha da korlandı.

Ermənistan hökumətinin həmin dövrdə Avropa İttifaqının ilkin olaraq 100 nəfərdən ibarət müşahidə missiyasını azı 2 il müddətinə ölkəyə dəvət etməsi də Rusiyaya qarşı demarş sayıla bilərdi. Bu hadisə müstəqilliyin bərpa edilməsindən bəri Rusiyanın Cənubi Qafqazdakı forpostu kimi tanınmış kiçik ölkə üçün cəsarətli addım kimi qiymətləndirilirdi. Moskvadan verilən reaksiyalar isə onların hadisələrin bu istiqamətdə inkişafından narahatlıq keçirdiklərini söyləməyə əsas verirdi. İndi isə Rusiya səfirinin “Ermənistanın suverenliyi və ərazi bütövlüyü əleyhinə” hansısa çıxışa görə nazirliyə çağrılması, ona etiraz notasının təqdim edilməsi münasibətlərdə yaranmış narazılığın daha bir halqasıdır.

Buna baxmayaraq, Ermənistan hökuməti özünü o yerə qoymur və “eyni vaxtda iki stulda” oturmaq siyasətini yenə davam etdirir. Ölkənin baş naziri Nikol Paşinyanın dünən “Facebook” sosial şəbəkəsində xarici siyasətlə, yaxın-uzaq ölkələrlə bağlı yazdıqları da bundan xəbər verir. Qeyd edib ki, İrəvanın balanslaşdırılmış (?) xarici siyasəti öz praktik nəticə verməkdədir: “Ermənistanın İranla münasibətləri həmişəkindən daha subyektivdir. Gürcüstanla münasibətlərimiz strateji tərəfdaşlıq orbitindədir, inkişaf üçün yeni perspektivlər və potensial açır. Türkiyə ilə görünən qarşılıqlı anlaşma bazası formalaşıb. Ermənistan Azərbaycanla münasibətlərdə bütün məsələlərə dair konstruktiv həll yolları təklif edib. Bu kontekstdə regionda yenidən eskalasiyanın baş verməsinin əsası yoxdur ki, bu da yeni gərginliyin olmayacağını göstərir. Bizim Rusiya ilə münasibətlərimiz hər zamankından daha praktikdir. Konkret məsələlərə yönəlib və “emosional qablaşdırmadan” uzaqdır. Biz bu əlaqələri qarşılıqlı faydalı əməkdaşlıq və suverenlik əsasında inkişaf etdirməyi hədəfləyirik. Avropa İttifaqı ilə əlaqələr həmişəkindən daha sıxdır və bu, Brüsseldə də qeyd olunur. ABŞ-la strateji tərəfdaşlığa start verildi. Hindistanla münasibətlərimiz yeni məna kəsb edir. Çinlə əlaqələrimiz inkişaf edir və dərinləşir. Yaxın Şərqdə tərəfdaşlıq üçün yeni imkanlar yaranıb”.

Mövzu ilə bağlı XQ-yə açıqlama verən **“World Panorama” Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq Ramiyə Məmmədova** bildirdi ki, Ermənistan rəhbərliyinin bir sıra yanlış hesablamalar apardığı göz önündədir. Onun sözlərinə görə, ölkə hər zaman Rusiyanın forpostu olub. Ermənistanın yaranmış durumu dəyişdirmək üçün iqtisadi, o cümlədən siyasi gücü olmalıdır: “Ancaq biz görürük ki, Ermənistan hazırda bu kriteriyaların heç birinə cavab vermir. Ermənistan iqtisadiyyatı Rusiyadan verilən subsidiyalardan asılıdır. Rəsmi İrəvanın yürütdüyü siyasət onun özü üçün yaxşı heç nə vəd etmir. Regionda ona etimadın səviyyəsi sıfıra bərabərdir. Sözün əsl mənasında, ermənilərə güvən qalmayıb. Çünki onlar hər addımda öz müttəfiqlərini sata bilərlər. Hayların ən yaxın tərəfdaşı Rusiya idi ki, hazırda onu arxadan vurmaqla məşğuldurlar. Ermənistan hökumətinin Avropa İttifaqına üzvlüklə bağlı qərar qəbul etməsini, ABŞ-la strateji tərəfdaşlıq sazişi imzalamasını başqa cür qiymətləndirmək mümkün deyil”.



R.Məmmədova dedi ki, biz bunun nəticəsinin nə olacağını yaxşı bilirik. Gürcüstanın başına gələnlərin eyni formada Ermənistanın da başına gəlməsi ehtimalı çox böyükdür: “Gürcüstan təxminən 10-15 ildən sonra başına gələnləri, Avropadan ona heç bir yardım olmadığını başa düşdükdən sonra həmin kursdan geri çəkildi. Bu gün rəsmi Tbilisi yenidən yaxın qonşuları – Türkiyə, Azərbaycan və Rusiya ilə inteqrasiyaya gedir. Ermənistan da eyni duruma düşəcək. Bu gün Ermənistanda gedən proseslərin vaxtilə Gürcüstanda baş vermiş proseslərdən heç bir fərqi yoxdur. Bunu nəzərə alaraq, deyə bilərik ki, İrəvanı da Tbilisinin taleyi gözləyə bilər. Daha doğrusu, gözləyir. Biz buna əminik. Çünki Qərb ölkələri indiyədək verdikləri vədləri, demək olar ki, yerinə yetirmirlər”.

Rusiya–Ermənistan münasibətlərinin getdikcə pisləşdiyini vurğulayan ekspert son zamanlar narazılığın yüksək vəzifəli rəsmi şəxslər tərəfindən dilə gətirildiyini bildirdi: “Baş vermiş son hadisə, yəni Ümumrusiya Dövlət Televiziyasında “Vesti nedeli” proqramının müəllifi və aparıcısı Dmitri Kiselyovun Ermənistanla bağlı səsləndirdiyi fikirlərə rəsmi İrəvanın reaksiyası da anlaşılan deyil. Kiselyov özü də bildirib ki, Ermənistan dövlətinin onun hansı sözündən narazı qaldığını başa düşə bilmir. Bir proqramda səslənən hansısa fikirlərə görə, Rusiya səfirinin nazirliyə çağrılaraq ona etiraz notasının verilməsi göstərir ki, İrəvan Moskva ilə ziddiyyətli münasibətlər dövrünə qədəm qoyub. Yəni bir tərəfdən Avropa İttifaqına daxil olmaq qərarı verməklə, ABŞ-la strateji tərəfdaşlıq sazişi imzalamaqla Rusiyanı qıcıqlandırır, digər tərəfdən isə Avrasiya İqtisadi İttifaqının üzvü kimi qalmaqla birliyin verdiyi faydalardan bəhrələnir. Rusiya baş nazirinin müavini Aleksey Overçukun da bildirdiyi kimi, Ermənistan iqtisadiyyatının artımı onun Avrasiya İqtisadi İttifaqının üzvlüyünün əsas benefisiarı olduğunu göstərir. Halbuki, bunlar bir-biri ilə kəskin ziddiyyətdə olan qurumlardır. Bu gedişlə Rusiya Ermənistanı özünə dost-tərəfdaş kimi yox, rəqib kimi görməyə başlayacaq. Rusiyadan üz döndərməsi Ermənistanın daha bərbad günə düşməsinə gətirib çıxaracaq. Görünür, bunu İrəvanda hələ dərk etmirlər”.

***Səxavət HƏMİD***
***XQ***

**20 Yanvar faciəsindən 35 il ötür**

# Lefortovodan “xüsusi məktub”

**“Qanlı Yanvar” hadisələrinin 35 illiyi ərəfəsində həmin gün Bakının küçələrində qaniçən sovet ordusunun güllələbaran etdiyi şəhidlər, yaralananlar və digər zərərdidələr ehtiramla yad olunur. Azadlıq mücadiləsi fəallarından olan tanınmış şair Xəlil Rza Ulutürk də bu sıradadır.**

SSRİ-nin iflası ərəfəsində həyata keçirilən cəza aktı – 20 yanvar faciəsi zamanı Xəlil Rza imperiya qüvvələri tərəfindən həbs olunaraq, bir müddət Moskvanın Lefortovo həbsxanasında saxlanıb və 1991-ci ildə azad edilib. (Yeri gəlmişkən yada salaq ki, istiqlal şairinin oğlu Təbriz 1992-ci ilin yanvarında Birinci Qarabağ müharibəsində həlak olub və ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Xəlil Rza isə müstəqillik dövrünün ən nüfuzlu ziyalılarından biri kimi “İstiqlal” ordeninə və Xalq şairi fəxri adına layiq görülüb).



Xəlil Rza həbsxanada olmasına baxmayaraq, imperiyaya boyun əymir, qələmi ilə mübarizəsini davam etdirirdi. Fevral ayının ortalarında həbsdə ikən bir televiziya müxbirinə verdiyi müsahibə telekanallarda yayımlandıqdan sonra yaxınları ondan xəbər tutmuşdular. Şair həbsxanada 8 ay 13 gün keçirib və orada 200-dən çox şeir, məktub və məqalədən ibarət olan “Lefortovo Gündəliyi”ni qələmə alıb.

Xatırlayırıq ki, şairin həbsdən azad edilməsi məqsədilə Bakıda imzatoplama kampaniyası başlanılmış və bu kampaniya üçün Xəlil Rzanın evinin qarşısında çadır qurulmuşdu. İnsanlar “Xalqın şairinə azadlıq” yazıları ilə küçə yürüşləri edirdilər. Xəlilsevər soydaşlarımız, eləcə də rus, qazax, gürcü, özbək, türkmən yazıçı və şairlərinin – 2 milyondan çox insanın imzaladığı müraciətləri onun həyat yoldaşı Firəngiz xanım Moskvada DTK sədri Kryuçkova verib.

Şair-publisist Zabil Pərvizin redaksiyamıza göndərdiyi xatirə qeydlərində də elə Xəlil Rzanın Lefortovodan yazdığı bir məktub iftixarla xatırlanır. O yazır: “Əfsanəvi istiqlal şairi Xəlil Rza Ulutürklə mənim tanışlığım və bir ömür münasibətimiz gözəl, əlvan bir romanı xatırladır... 1970-ci ilin payızı idi. 1-ci kursda oxuyur, tələbə yataqxanasında qalırdım. Tələbələrin içinə səs-küy düşmüşdü ki, Xəlil Rza görüşə gələcək. Bu həmin Xəlil Rza idi ki, bir il əvvəl bu ali məktəbdən uzaqlaşdırılmış, dərs demək hüququ əlindən alınmış, ədəbi dərnəklərə belə rəhbərlik etməsinə icazə verilmirdi. İttiham isə ciddi idi. Xəlil Rza marksizm-leninizm prinsiplərindən uzaq düşərək, gənclərin beynini antisovet fikirlərlə zəhərləyirmiş.



Yataqxananın uçuq-sökük oxu zalında iynə atsaydın, yerə düşməzdi. Xəlil bəy bir dəstə cavan şairlə görüşə gəlmişdi. O, özü də cavan idi. 37 yaşı var idi. Qara kostyumlu, ağ köynəkli, qara qalstuklu, yaraşıqlı, gənc bir kişi idi. Ağzından od tökülürdü. Hər cümləsindən azadlığa, müstəqilliyə çağırış saçılırdı. Mən arxada oturmuşdum. Tələbə yoldaşlarımdan biri Xəlil bəyə kiçik bir kağız göndərdi və ondan xahiş etdi ki, kiçik bir çıxış üçün mənə də söz versin. Xəlil bəy böyük coşqu və məhəbbətlə məni söz kürsüsünə dəvət etdi. Təbiət və məhəbbət mövzusunda iki şeir oxudum. Xəlil bəyin dodaqlarından güllə kimi iki kəlmə qopdu: – Alqış, igid! Eşq olsun bu dünyanın Zabil Pərviz zirvəsinə! And olsun bu dünyanın Zabil Pərviz zirvəsinə!

Çaşıb qaldım. Mən nə etmişdim ki?! Sonradan başa düşdüm ki, Xəlil bəy mənim belimə Misri qılınc bağlayırmış. Görüşlərimiz davam etdi. Akademiyada, onun iş yerində, Əli Bayramov, indiki Təbriz Xəlilbəyli küçəsindəki mənzilində, Türkandakı bağ evində, doğulduğu Pirəbbə kəndindəki baba yurdunda, mənim ata yurdum Qaçaqkənddə... Sonradan Xəlil bəy məni özü ilə çox məclislərə apardı, dostları və iş yoldaşları ilə tanış etdi. 1973-cü ildə mənə “Uğurlu yol” yazdı və “Bakı” qəzetinə aparıb, yaxın dostu olan baş redaktor, görkəmli jurnalist Nəsir İmanquliyevlə tanış etdi və şəklim, iki şeirim, haqqımda kiçik təqdimatla bütün ölkədə tanıtdı. Üstündən illər keçdi. Xəlil bəy yaradıcılığım haqqında “Kürlə Xəzər qovşağında” adlı böyük bir məqalə yazdı. Və nəhayət, Yazıçılar İttifaqına üzv olmaq üçün mənə zəmanət verdi...

Zabil Pərviz daha sonra yazır: “Xəlil bəy hətta Moskvada həbsdə olarkən belə məni unutmadı. 1990-cı il mart ayının 2-də Lefortovodan ömür-gün yoldaşı Firəngiz xanıma yazdığı xüsusi məktubda mənə də salam göndərmişdi. DTK nəzarəti güclü olduğu üçün rusca yazmağa məcbur olduğu həmin məktubun qısa məzmunu belə idi: “Как наши родственники и друзья: Табриз, Севиндж, Рза... Соратники по перу: устад Исмаил Шихлы, Иса Гусейн Муганна, Анар… Сохраб Тахир, Мамед Араз, Забил Первиз, Бахтияр Вагаб, Барат Вусал?.. Разве я в силах всех перечислить и всех обнять?”

Üstündən illər keçir. Xəlil Rza Ulütürk idealları, arzuları gözlərimiz qarşısında reallaşır. Zaman bizim xeyrimizə işləyir. Artıq Türk Dövlətləri Təşkilatı yaranıb, böyük Turanın təməli qoyulub, Azərbaycan qüdrətli, qalib dövlətə çevrilib və bizi “Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram! Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!” – deyən Xəlil bəyin arzuladığı parlaq gələcəyə doğru aparır.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Növbəti hərbi təlim toplanışı

**2025-ci ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı keçirilir.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, ehtiyatdan çağırılanlar müvafiq qeydiyyatdan və həkim müayinəsindən keçdikdən sonra hərbi geyim və digər təminat növləri ilə təmin olunublar.

Hərbi vəzifəlilərlə maarifləndirici söhbətlər aparılıb, onlara təhlükəsizlik qaydaları çatdırılıb.

Toplanış çərçivəsində hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin artırılması və praktiki vərdişlərinin təkmilləşdirilməsi məqsədilə müxtəlif tapşırıqlar icra ediləcək.

***XQ***

Şəddat Cəfərov – 85

# Mətbuat və ədəbiyyatımıza xidmət örnəyi



**Görkəmli naşir, Azərbaycanın ilk poliqrafçı alimi, populyar nəsr əsərləri və irihəcmli xatirə ədəbiyyatı müəllifi Şəddat Çəfərovun 85 illik zəngin və şərəfli ömür yolu milli mətbuatımızın, kitab nəşri və poliqrafiya tariximizin 70 illik bir dövrü ilə sıx bağlıdır. Yubilyarın bu müddətdə əldə etdiyi çoxsaylı nailiyyət və uğurlarının şəhadətləri artıq tarixi önəm daşıyır.**



Bioqrafiyasını zəngin və şərəfli əməllərlə zinətləndirmiş poliqrafçı, naşir və yazıçı hər 3 sahədə xidmətlərini əks etdirən sənəd və təltiflər kolleksiyasını anadan olmasının 85-ci ildönümü günündə ölkənin çoxminillik mədəni irsinin baş saxlanc yeri sayılan Milli Azərbaycan Tarixi Muzeyinin fonduna ərmağan etdi.

Bu münasibətlə muzeyin konfrans salonunda keçirilən mərasimin aparıcısı, Şəddat Cəfərovun həyat və yaradıcılığının araşdırıcısı, "Kredo" qəzetinin baş redaktoru, şair-publisist Əli Rza Xələfli yubilyarın çoxillik səmərəli xidmətlərindən söz açaraq onun parlaq və fədakar ziyalı obrazını canlandırdı.

Milli Azərbaycan Tarixi Muzeyi sənədli mənbələr elmi fondu şöbəsinin müdiri Esmira Rəhimova Şəddat Cəfərovdan qəbul edilən kolleksiyanın mətbuat, nəşriyyat və poliqrafiya tariximizlə bağlı ötən onillikləri əhatə edən irsin qorunub öyrənilməsində önəmli materiallar olduğunu söylədi.

Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu Şəddat Çəfərovun milli mətbuatımızın maddi-texniki bazasının zaman-zaman yenilənən texnologiya ilə təmin olunmasında xidmətlərindən, Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu onun çoxsaylı ədəbiyyat nəşri ilə bağlı illərdən bəri davam edən səmərəli fəaliyyətindən, jurnalist-naşir Mehman Fərzullayev dostu və həmkarının ölkəmizə gətirdiyi poliqrafik yeniliklərdən, bu nadir mütəxəssisin keçmiş SSRİ-də və başqa ölkələrdə qazandığı layiqli nüfuzundan söz açdılar.

Şəddat Cəfərovun vaxtilə oxuduğu paytaxtın 44 saylı məktəbinin direktoru Əzizə Abbasova, qardaşı Fərhad, qızı Sevinc, nəvəsi Fatimə Cəfərovlar, yeniyetmə yazar Sevindik Nəbioğlu işdə, ictimai mühitdə və ailədə nümunəvi fəaliyyəti, səmimi davranışı ilə seçilən bu ziyalının müasirlərinə və yeni nəsillərə örnək ömür yolundan danışdılar.

Jurnalist və naşirlərdən Fazil Rəhmanzadə, Nəzirməmməd Zöhrablı, Sevda Əlibəyli, Adil Abdullayev, Dəyanət Səlimxanlı, Ramin Məmmədov, şair Fəxrəddin Meydanlı, hüquqşünas Məmməd Əliyev, Buzovna sakini Hacı Hacıağa, veteran təşkilatı təmsilçisi Yasəmən Möhübbətqızı Şəddat Cəfərovun ustad naşir, təcrübəli poliqrafçı, bilikli alim, ibrətli bədii süjetlər və sənədli əsərlər müəllifi kimi əhatəli fəaliyyətinin unudulmaz epizodlarından sevgi-sayğı ilə söhbət açdılar, ona ömrünün yetkinlik çağında uzun ömür, yeni uğurlar arzuladılar.

Mərasimdə Şəddat Cəfərovun ictimai dəyər daşıyan kolleksiyasının tarix muzeyinə təqdim edilməsi onun milli irsin qorunub zənginləşdirilməsi işinə töhfəsi kimi dəyərləndirildi.

***T.RÜSTƏMLİ***
***XQ***

# "Xəmsə" rəsmləri Ədəbiyyat Muzeyində

**Yanvarın 15-də Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Əməkdar rəssam İsmayıl Məmmədovun fonda qəbul edilən əsərlərinin təqdimatı keçirilib.**



Muzeyin direktoru, akademik Rafael Hüseynov bu il mədəniyyət ocağının fəaliyyətə başlamasının 80 ilinin tamam olduğunu xatırladaraq bildirib ki, ötən illər ərzində bu mədəniyyət ocağının zənginləşdirilməsi, fond materiallarının bərpası istiqamətində ardıcıl, gərəkli işlər görülüb. İsmayıl Məmmədovun da Azərbaycan rəngkarlığında və kitab qrafikası sahəsində özünəməxsus yolu və üslubu ilə seçilən rəssamlarımızdan olduğunu söyləyən akademik Rafael Hüseynov yubiley ərəfəsində onun əsərlərinin muzeyin fonduna daxil edilməsini önəmli hadisə kimi qiymətləndirib. O, Əməkdar rəssam İsmayıl Məmmədovun qədim Azərbaycan dastanı, yazılı xalq ədəbiyyatının ən qədim abidəsi olan "Kitabi-Dədə Qorqud"a əsaslanan rəsmlərdən ibarət hazırladığı 2013-cü ilin təqviminin dəyərini xüsusi qeyd edib.

İsmayıl Məmmədovun yaxın dostu, Azərbaycan Memarlar və Rəssamlar ittifaqlarının üzvü Şahvələd Məmmədov mərhum rəssamın dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"si əsasında çəkdiyi əsərləri muzeyin fonduna təqdim edib. O bildirib ki, fırça ustasının zamanında çəkdiyi lövhələr "Xəmsə" məsnəvilərinə işıq salır.

Alban-udi xristian icmasının sədri, Bakı Dövlət Universitetinin elmi işçisi Robert Mobili Şahvələd Məmmədovun Qəbələ rayonunun Nic kəndində "Azərbaycan Udi ocağı"nda sonuncu din xadiminin evini muzey kimi bərpa etməsini Azəbaycan tolerantlığının nümunəsi olduğunu bildirib, mədəni irsin qorunub saxlanılması baxımından önəmini qeyd edib.

Akademik Rafael Hüseynov Şahvələd Məmmədova muzeyin təşəkkürnaməsini təqdim edib.

***Qabil ƏLİYEV***
***XQ***

# Peşədən peşəkarlığa gedən yol

**Sürətlə inkişaf edən ölkəmizdə peşə təhsili daha çox əhəmiyyət daşıyır. Bu, tələbələrə konkret sahələrdə praktiki bacarıqlar qazandıraraq, onlara iş dünyasında uğur əldə etmək üçün zəruri olan bilikləri verir. Tələbələr məktəbi bitirdikdən sonra onların işə düzəlmə şansları da artır.**



Peşə təhsili akademik təhsilə nisbətən daha qısa və təcrübə yönümlü olduğundan, tələbələr az vaxt və maliyyə sərf edərək peşə sahələrində ixtisaslaşa bilirlər. Bu, həm də gənclərə daha tez iş tapmaq imkanı verir. Məhz bu səbəbdən yeni peşə təhsili müəssisələri layihələndirilir, tikinti işləri davam etdirilir. Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov bu günlərdə "Tikinti sektoru üzrə kadr hazırlığında dövlət-özəl tərəfdaşlığının rolu" mövzusunda keçirilən müzakirədə deyib ki, son illərdə Bakı, Gəncə, Bərdə, Qəbələ, İsmayıllı, Cəlilabad və Lənkəranda da yeni peşə təhsil müəssisələri tikilib. Quba, Qax, Tovuz, Füzuli və digər rayonlarda yeni peşə təhsili müəssisələrinin layihələndirilməsi və tikinti işləri davam edir. Bu il Şuşada da peşə təhsil müəssisələrinin yenidən qurulması və əsaslı təmir işlərinə başlanılacaq. Qubadlı, Ağdam və Zəngilanda isə peşə təhsili müəssisələrinin layihələndirmə işləri bir neçə aya yekunlaşacaq.

Onun sözlərinə görə, hazırda peşə təhsili sahəsində yeni platformalar yaradılır. Tələbə qəbulunda say artmaqda davam edir. 2020-ci ildən bəri bu sahədə 60 faizdən çox artım var. Hətta yeni istifadəyə verilən müəssisələrdə yer olmaması səbəbindən iki növbəli təhsilə keçid edilib. Cari il üçün dövlət büdcəsindən peşə təhsilinə 82,2 milyon manat vəsait ayrılıb.

Yeri gəlmişkən, yanvarın 14-də Baş nazir Əli Əsədov xüsusi hərbi ixtisaslar üzrə vətəndaşların hazırlığını keçirən təhsil müəssisələrinin siyahısında dəyişiklik edilməsi ilə bağlı qərar imzalayıb. Siyahıda bir çox peşə məktəblərini, sürücü, aşpaz və rabitəçi kimi ixtisaları görə bilirik. Bu da belə təhsil ocaqlarına olan marağı daha da artıracaq.

Yerli mediaya müsahibəsində Elm və Təhsil nazirinin müavini, "İnsan kapitalı və təhsil üzrə" İşçi qrupunun rəhbəri Kənan Kərimzadə təhsildəki yeniliklərdən danışarkən bildirib ki, onlardan biri də "Peşə təmayüllü siniflər" layihəsidir. Strategiyada nəzərdə tutulmuş tədbirlər çərçivəsində 2024–2025-ci tədris ilində 249 məktəbdə 419 peşə təmayüllü sinif fəaliyyət göstərir və 7 mindən çox şagird həmin siniflərdə təhsil alır. Nazir müavini onu da qeyd edib ki, peşə təhsilinin cəlbediciliyinin artmasını tələbə qəbulunda da görmək olar. 2024–2025-ci tədris ilində 72 peşə təhsil müəssisəsində 136 ixtisas üzrə tələbə qəbulu aparılıb. Peşə təhsili müəssisələrinə 85 faizi dövlət sifarişli, 15 faizi isə ödənişli olmaqla, ümumilikdə 24,8 min nəfər qəbul olunub. 2026-cı ilə qədər peşə təhsilinə qəbul olunan tələbə sayının 28 min nəfərə çatdırılması hədəflənir.

Yekun olaraq qeyd edək ki, peşə təhsili iş dünyasında get-gedə daha əhəmiyyətli rol oynayır. Praktiki bacarıqların və ixtisaslaşmanın vacibliyi artdıqca, bu təhsil pilləsi daha da önə çıxır.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Baxış bucağı

# Yaddaş

*Orxan FİKRƏTOĞLU,*
*Əməkdar incəsənət xadimi*



**(əvvəli ötən sayımızda)**

Nədən milli televiziyalar ancaq reytinqlə işləməlidirlər? Milli ideologiyaya xidmət edən verilişlər "para gətirmir" deyə bağlanmalıdırlar? Və buna səbəb kimi,"tamaşaçıların seçimi" dəlil gətirilməlidir? Reklam gəlirləri ilə idarə olunan televiziyalar milli mədəniyyəti təbliğ edə bilməzlər? Bu reallığı kimlər yaradıb?

Nədən, nədən?.. və bu tip nədənlər görürsüz ki, getdikcə çoxalır.

Cavab isə birdir. Ona görə ki, biz artıq milli dəyər daşıyıcısı və öz zövqümüzün sahibi deyilik. Biz öz gözümüzdən salınmış, ayaqüstə gəzən mobil telefonlarıq, enerjimiz bitəndə isə hamımız yad mərkəzlərdən süni enerji ilə təmin edilirik. Hamımızın da çiynində bir torba telefon naqilləri var.

Bu, milli yaddaşın pozulması mənzərəsi deyilmi?

Yeni dijital insan hansı dəyərlərlə yaşayacaq?

Bunu kimlər müəyyən edir?

Ümümbəşəri xaos?

Sosial şəbəkələr sizə ilk baxışdan düşüncəsiz və xaotik sistemsizlik kimi də görünə bilər. Yəqin, düşünürsüz ki, bu məkan cahillərlə zəngindir. Burda qorxulu nə var ki? Sadəcə, uğursuz insanlar eqolarını şəbəkədə təsdiq edirlər və bu qədər bəsit. Amma tələsməyin. Mən bu cahilliyin arxasında çox böyük ağılların varlığını görürəm. Hər bir mürəkkəb mexanizm göründüyü qədər asan dərk olunmur.

Hissəsi olduğumuz bu irreal reallığı Azərbaycan düşünərləri yaratmayıblar. Bu yeni sistemi kim yaradıbsa, öz siyasi məqsədləri ilə də idarə edir. Havayı pendir ancaq tələdə olur. Sosial şəbəkələr bizə bir biznes layihəsi kimi təqdim olunsalar da, gerçəklikdə bir mərkəzdən idarə olunan çox etaplı beyin zəhərləmə prosesi vasitəsidir. Fərqli insanları və millətləri hiss olunmadan eyniləşdirmək, süni davranış normaları yaratmaq üçün düşünülmüş siyasi rıçaqdır. Milli mədəniyyətləri, milli zəmində qurulmuş sosial və siyasi institutları güclü olan xalqlar bu tələyə heç zaman düşmürlər. Unutqanlar isə düşürlər.

Hələ ki, hərşeyşünas düşüncəyə malik, "beynəlmiləl" baxışlı, eqosunu özü kimi "dahilər " içində cilalamış insanlar, birinci nəsildir deyə milli yaddaşımızı zədələyə bilmirlər. Amma biz milli paradiqma ilə "ümumbəşəri" zehniyyəti müqayisə edə bilən son Azərbaycanlılarıq. Biz xatirəsi olan son milli "dinozavrlarıq". Bizdən sonrakı nəslə yetərincə sahib çıxılmasa, onlar tamam fərqli dəyərlər üzərindən formalaşdırılacaqlar. Biz bunu istəyirikmi? İntibahı, köləlikdən ayıra biləcək qədər ayığıqmı? Texniki tərəqqini süni dəbdən seçə bilirikmi? Mən demirəm ki,texnointibahdan qaçıb, mağaralarda yaşayaq. Və ya "Mersedes" markalı maşına deyil, eşşək arabasına minək. Mən deyirəm ki, bu texniki tərəqqini özümüz yaradıb, öz marağımızda və əxlaqımızda kütləyə təlqin edək. Öz sosial şəbəkələrimizi formalaşdıraq. Bunun üçün isə ən əvvəl savadlı olmaq şərtdir. Savad isə, mənim fikrimcə, milli yaddaş qaynaqlarından bəhrələnməlidir.

Xatırlayırsınızsa, törə adətlərimizə görə, bizə iki dəfə ad qoyardılar. Bir dəfə doğulanda göbək adı verərdilər, bir dəfə də ərlik göstərdikdə ərlik adı. Göbək adını insana atası qoyardı. Və ancaq ailə içində insanı bu adla çağırardılar. Ərlik adını isə sən özün qazanamalıydın. Əməlinlə. Bir iş görərək. Qəhrəmanlıq göstərərək. O zaman insanları ancaq əməlinə görə tanıyardılar və bir ad olaraq qəbul edib çağırardılar. Buğanı yenmişə Buğac adı qoyardılar. Qələbə qazanmışa Qazan adını. Pisə pis ad qoyardılar, yaxşıya yaxşı. Əyriyə əyri ad verərdilər, düzə düz. Və insan bir ömrü boyu bu qazandığı adla yaşamalıydı. Bu adət toplumun tərbiyyəsiydi. Təpəgöz bizim mifologiyada zinadan, günahdan doğulur. Tabudan – qadağadan yaranır. Mifik şüur insanı bu obrazla qorxudurdu ki, əgər sən tabunu pozub ailəndən kənarda zina etsən, belə bir günah-oğlun doğulacaqdır. Və bu günah sonra böyüyüb hamımızı, bütün ulusu birbir yeyəcəkdir. Biz belə bir milli yaddaşa sahibik. İnsana əməli müqabilində ad vermək eyni zamanda o demək idi ki, törəyə, tayfaya nabələd bir adam gəlsə belə, artıq Oğuz elində aldadıla bilməzdi. Biz ayıbımızdan utanmaqla iki sifətlə yaşayan zehniyyət sahibi deyildik. Biz açıq və mərd toplum idik. Bu tip ad qoymaq eyni ikiüzlülüyü və yalanı cəmiyyətdən xaric edirdi. Və ən başlıcası, gənclərə həyatlarına məsuliyyətlə yanaşmağı tövsiyə edirdi. Kim istəyərdi ki, bütün ömrü boyu Yalıncıq adıyla yaşasın?

Biz öz oğluna belə ancaq əməlinə görə adekvat ad verə bilən bir zehniyyətə köklənmiş toplumuqsa, o zaman nədən təklif olunmuş yad, virtual və yalıncıq yeni dünya dəyərlərinə belə sürətlə öyrəşirik? İçimizdə nə qırılıb? Yaddaşımız nədən korşalıb? Yeni əxlaqda yaxşı və ya pis adam anlayışı yoxdur. Dəyərlər tamam başqadır. Yeni yanaşmanın kahin Dədə Qorqudu da artıq yoxdur ki, adamına uyğun ad qoysun. Tələb başqadır. Biz isə hələ də ruhsal olaraq, milli yaddaşımızda, dədə-baba törəmizdə, əxlaqımızda yaşayan insaf, namus, qeyrət, şəfqət anlayışları işlək olan bir cəmiyyətdə yaşamağa hesablanmış əxlaq daşıyıcılarıyıq. Gerçəklik isə bizdən yad və süni dəyərləri tələb edir. Bu ikili qavrama, əlbəttə ki, bir yaddaşda mövcud ola bilməz. Bunların hər ikisini öz davranışlarında yaşadan adam tapmaq da mümkün deyil. Rəqabət mühiti insafı dışlayır. Bax, bu etik dilemmanı həll edə bilməyən insanın sosial şəbəkələrdə cahilə çevrilməsi artıq zaman məsələsidir.

Milli mədəniyyətin dünya çapında yaradılan yeni zəmində bərpası bizim bir millət olaraq zehni xilasımızdır.

"Atalar və oğullar" probleminin hələ də mədəniyyətimizdə gündəm olduğunun şahidisiz. Nədən bu əbədi problemə bu gün belə aşırı maraq var? Bu problem bizim problem deyildi, axı. Biz bu problelmi zamanında və milli yaddaşda həll etmişdik.Yenə bu sualı bizə kim verdi?

Ata ilə oğulun savaşı insan oğlunun bioloji zehniyyətində daim yaşayan özünümüdafiə şərtiliyidir. İnsan düşünə bilsə də, bioloji varlıqdır. Bütün bioloji varlıqların birgəyaşayış arealında isə ata qocalıb zəiflədiyi zaman ailənin idarəsi daha güclü olan oğula keçir. Bu zəmində bir çox bioloji varlıqlar doğulan erkək balalarını beşikdə öldürürlər. Və ya əksinə, oğul qocalmış atasını çaya salıb boğur və ya uçurumdan atır. Atanın nə zaman qocalıb əldən düşdüyü, varisinin nə zaman gücləndiyi zamanı isə heç bir mənbə bioloji varlıqlara qabaqcadan bildirmir. Bu səbəbdən də söylədiyim höcət fərdi məsələdir. Fərqlidir və hər növdə bir şəkildə özünü biruzə verir. Atalar və oğullar savaşı bir çox milli mədəniyyətlərdə təhtəlşüurda yaşanan sapma kimi qalmaqdadır. İslam dini atanı cəmiyyətdə Allahın təcəllası kimi təqdim etməklə Azərbaycanda bu höcəti artıq 10 əsr bundan qabaq həll edib. Bu sual bu gün daha çox qədim mədəniyyətləri olmayan xalqlar üçün sualıdır. Görəsən, bu suala biz niyə öz mədəniyyətmizdə cavab veririk? Şah İsmayıl dastanıyla ortaçağ dövrlərdə biz bu müşkülə tamam fərqli bir mədəni hadisə rakursundan da yanaşmışdıq. Bu, bizim "atalar və oğullar" probleminə mədəniyyət sınırı içində və milli taxçada cavabımız idi. Bəs nədən milli yaddaş artıq həll edilmiş bu etik dilemmanı bugünkü nəslə çatdıra bilməyib?

Ona görə ki, nəsillər arasında əlaqə itib. Yeni nəsil başqa dildə danışır. Və yad maraqları öz maraqları kimi qəbul edir.

Bəlkə yaddaşımız qısadır. Bəlkə, unutqanıq?..

Deməli, bizim bir çox suallarımızın cavabı gələcəkdən çox keçmişdədir. Çünki bizim bir çox folklorsuz mədəniyyətlərdən fərqli olaraq, milli yaddaşımızı qoruyan zəngin milli irsimiz və mədəniyyətimiz var.

Ruhsal sərhədlərimiz bu gün basqı altındadır. Biz özümüzü bu saxta beyin axınından müdafiə edə bilirikmi? Bunun üçün təşkilatlanmışıqmı?

Dərk mədəni halənin halıdır. Milli mədəniyyətin yeni şəkildə təqdimatı günün tələbidir. Bizim ərəfəmiz budur. Mədəni intibah. Tarixmiz də, özünüdərkimiz də mədəniyyətimizlə bağlıdır.

# "Solo gənclik" Qara Qarayev ocağında

**"İRƏLİ" Mədəniyyət Mərkəzi və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin birgə təşkilatçılığı ilə "Solo gənclik" layihəsi çərçivəsində Qara Qarayevin ev-muzeyində növbəti konsert keçirilib.**



Mərkəzdən bildirilib ki, layihə çərçivəsində ilk konsert noyabr ayında bəstəkar, pianoçu Nigar Süleymanlının təqdimatında olub.

Bu konsertdə isə gənc bəstəkar, pianoçu Aydan Əliyeva musiqi nömrələri ilə çıxış edib. O, müəllifi olduğu müxtəlif mahnıları, həmçinin klassik bəstəkarların əsərlərini ifa edib. Aydan Əliyeva 2024-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür. Simfoniya, prelüd, fortepiano və orkestr üçün əsərlər və mahnıların müəllifidir.

"Solo gənclik" layihəsinin keçirilməsində başlıca məqsəd gənclərin mədəni iştirakçılığının artırılması, musiqi mədəniyyətinin inkişafı və istedadlı gənclərin fəaliyyətinin stimullaşdırılmasına nail olmaqdır.

***XQ***

# Qrenlandiya: Ən böyük ada “nifaq alması”na dönür?

**ABŞ Konqresindəki respublikaçılar yeni seçilmiş prezident Donald Trampa vəzifəyə gəldikdən dərhal sonra Qrenlandiyanın alınması ilə bağlı danışıqlara başlamağa icazə verən qanun layihəsi hazırlayıblar. Bu barədə sənədin surətini əldə edən “Reuters” agentliyi məlumat yayıb. Sənəd Nümayəndələr Palatasının üzvləri Endi Oqls və Diana Harşbarger tərəfindən hazırlanıb.**

Respublikaçıların Konqresin hər iki palatasına nəzarət etdiyini nəzərə alsaq, qanun layihəsinin qəbul olunma ehtimalı yüksəkdir. Agentlikdən bildirilib ki, sənəddə Trampın Qrenlandiyanı əldə etməsi üçün Danimarka Krallığı ilə danışıqlara başlamasına icazə verən müddəa var. Bundan əlavə, Tramp Danimarka ilə razılığa gələrsə, o, razılaşmanı, eləcə də bütün materialları və əlavələri 5 gün ərzində Konqresin müvafiq komitələrinə təqdim etməlidir.

Donald Tramp daha əvvəl bildirmişdi ki, Qrenlandiyanın alınması ABŞ-nin milli və iqtisadi maraqlarına uyğundur. Bu arada xarici mətbuatda ada ilə bağlı maraqlı məlumat yayılıb. Bildirilib ki, 5 il əvvəl Qrenlandiya Xarici İşlər Nazirliyinin rəhbərinin adından Arkanzas ştatından olan senatora məktub göndərilib və orada adanın ABŞ tərəfindən alınması müzakirə olunub. Danimarka kəşfiyyatı bu məlumatı təsdiqləyib: “Məktub Rusiya kəşfiyyatı tərəfindən saxtalaşdırılıb. Məqsəd Danimarka, ABŞ və Qrenlandiya arasında çaşqınlıq yaratmaq və münaqişəni qızışdırmaq olub”. O zaman Rusiya Xarici İşlər Nazirliyi bu məlumatı “əsassız saxtakarlıq” adlandırıb.

“Newsweek” yurnalının xəbərində isə bildirilir ki, konqresmen Tom Kotton 2019-cu ilin avqustunda, o vaxtkı prezident Donald Trampla söhbətində ABŞ-nin Qrenlandiyanı alması məsələsini qaldırıb. İdeya ilk dəfə elə həmin il Tramp tərəfindən səsləndirilib. Kopenhagen tərəfindən rədd edildikdən sonra Tramp Danimarkaya səfərini ləğv edib. 2024-cü ilin dekabrında Ağ evin seçilmiş rəhbəri bu məsələni yenidən gündəmə gətirib və 2025-ci il yanvarın 7-də onun oğlu kiçik Donald Tramp adaya gələndə ABŞ-ın “milli təhlükəsizlik məqsədləri” üçün Qrenlandiyaya ehtiyacı olduğunu bildirib.





## Qrenlandiya ilə bağlı mübahisələr

Qrenlandiyanın kimə məxsusluğu ilə bağlı ilk münaqişə 1930-cu illərin əvvəllərində Danimarka və Norveç arasında baş verib. Nəticədə, Norveç 1931-ci ildə adanın yaşayış olmayan şərq hissəsinin işğalına sanksiya verib, 1933-cü ildə bu qərar Haaqa Beynəlxalq Məhkəməsi tərəfindən qeyri-qanuni sayılıb. Bundan sonra Norveç ada ilə bağlı iddialarından imtina edib.

Almaniya 1940-cı ilin yazında Danimarkanı işğal etdikdən sonra ABŞ Monro doktrinasının (ABŞ xarici siyasətinin prinsiplərinin bəyannaməsi (“Amerika amerikalılar üçün”) prinsiplərini Qrenlandiyaya qədər genişləndirərək onu faktiki olaraq hərbi himayəsinə götürüb. 1941-ci ilin aprelində Danimarkanın sürgündəki hökuməti Qrenladiyanın müdafiəsi ilə bağlı ABŞ ilə müqavilə bağlayıb. Müqaviləyə əsasən, Atlantik okeanın şimalında gəmi konvoylarını qorumaq üçün adada ABŞ-nin meteoroloji və radio stansiyaları yaradılıb, radarlar yerləşdirilib, uçuş zolaqları və digər obyektlər inşa olunub.

İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra Danimarka Qrenlandiya üzərində suverenliyinin bərpasına nail olsa da, ABŞ orada əsas hərbi-strateji obyektlərini saxlaya bildi. 1951-ci ilin aprelində isə Şimali Atlantika Alyansı (NATO) çərçivəsində yeni saziş bağlanıldı. Sazişə əsasən, 1951–1952-ci illərdə adanın şimal-qərbində yerləşən Tuledə (Kanak, indi Pituffik kosmik bazası) daimi baza tikildi. “Soyuq müharibə” dövründə ada ABŞ-nin Arktikaya açılan qapısı hesab olunurdu.

Hərbi obyektlərdən Avropaya uçan hərbi təyyarələrə yanacaq doldurmaq və strateji bombardmançı təyyarələri, o cümlədən nüvə silahına malik təyyarələri yerləşdirmək üçün istifadə olunurdu. 1959–1967-ci illərdə Tule bazasından 240 kilometr şərqdə nüvə reaktoru ilə təchiz edilmiş “Camp Century” buzaltı tədqiqat bazası fəaliyyət göstərirdi. Ümumilikdə, adada 10 minə qədər Amerika hərbi qulluqçusu və mühəndisi yerləşirdi. 1968-ci ilin yanvarında Tule aviabazası yaxınlığında 4 B28FI termonüvə bombası daşıyan B-52 strateji bombardmançı təyyarəsi qəzaya uğradı və ərazinin radiasiya ilə çirklənməsinə səbəb oldu.

Pituffik kosmik bazası bu gün də böyük əhəmiyyət kəsb edir. Bu, ABŞ-ın ən şimal hərbi bazasıdır. Ballistik raketlərin erkən xəbərdarlıq sisteminin bir hissəsi olan radar stansiyasına ev sahibliyi edir. 2004-cü ildə ABŞ orada yerləşən radar sistemini təkmilləşdirməyə icazə alıb.

## ABŞ-ın adada maraqları

ABŞ siyasi dairələri 1867 və 1946-cı illərdə ən azı 2 dəfə Qrenlandiyanın alınmasını təklif ediblər. Xüsusən də Harri Trumen administrasiyası 1946-cı ildə Kopenhagenə adanı 100 milyon dollara almaq üçün gizli təklif göndərib, lakin bu plan Danimarka hakimiyyəti tərəfindən rədd edilib.

Uzun müddətdən sonra, 2019-cu ildə ABŞ prezidenti Tramp yenidən Qrenlandiyanı Danimarkadan almaq ideyası ilə gündəmə gəlib və 2024-cü ilin noyabrında prezident seçkisində qalib gəldikdən sonra, “ölkədə milli təhlükəsizliyi və dünyada azadlığı” təmin etmək üçün bu təklifi təkrarlayıb. “Washington Post” onun iddialarını Rusiya və Çinin Artikada artan nüfuzunu neytrallaşdırmaq üçün "hərtərəfli missiya" ilə əlaqələndirib

Trampın komandası tərəfindən adaya marağın artması yalnız Qrenlandiyanın coğrafi mövqeyi ilə deyil, həm də nadir torpaq metallarının böyük ehtiyatları ilə bağlıdır. “Reuters” xəbər verir ki, ABŞ Qrenlandiyada bu metallarla zəngin yatağın Çinə satmasının qarşısını alıb.

Qeyd edək ki, 1950-ci illərin sonundan etibarən Tule eskimosları ABŞ hərbi bazasının tikintisi nəticəsində itirdikləri torpaqların geri qaytarılmasını tələb edirlər. Qrenlandiyada bir sıra siyasi qüvvələr isə 1951-ci ildə Danimarka–Amerika müdafiə müqaviləsinə yenidən baxılmasını və Tule bazasının bağlanmasını tələb edirlər. Qrenlandiyanın baş naziri Mute Eqede deyib: “Biz danimarkalı və ya amerikalı olmaq istəmirik, biz qrenlandiyalı olmaq istəyirik. Status-kvo artıq seçim deyil. Başqa bir yol tapmalıyıq”.

Egede qeyd edib ki, daha əvvəl Qrenlandiyanın ABŞ-nin tərkibinə daxil etmək istəyini ifadə edən ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampla hələ danışmayıb. O, əlavə edib ki, bu mövzuda dialoqa başlamağa hazırdır.

Qrenlandiya 2,2 milyon kvadrat kilometr ərazisi ilə dünyanın ən böyük adasıdır. Şimali Amerika sahillərində, Atlantikanın quzeyində yerləşir. İnzibati cəhətdən Danimarka daxilində muxtar ərazidir, öz hökuməti və digər dövlət orqanlarına malikdir. Krallıq xarici siyasət və müdafiə üzərində nəzarəti həyata keçirir və Danimarka kronu rəsmi valyuta rolunu saxlayır. Qrenlandiya Aİ-nin üzvü deyil, lakin müəyyən gömrük imtiyazlarına malik assosiativ üzv statusuna malikdir. Onun sakinləri Avropa İttifaqının vətəndaşlarıdır.

***P.ƏFƏNDİYEV***
***XQ***

# Özbək futbolçu “Mançester Siti”yə keçir

## *Bizim Elvin isə antirekordlara “imza atır”*

**Özbəkistanlı Abdukodir Xusanovun “Lans”dan “Mançester Siti”yə keçəcəyi bu qış transfer pəncərəsinin, bəlkə də, ən böyük sensasiyalarından biri olacaq. Vaxtilə Gürcüstanın dörd futbolçusu da “şəhərlilər”in şərəfini qoruyub. Azərbaycan futbolçuları isə nəinki “Mançester Siti”, heç İngiltərə Premyer Liqasının autsayderlərinə düşə bilmirlər.**



Qış transfer pəncərəsi davam edir. Beynəlxalq arenada üzdə olan yeganə klubumuz “Qarabağ”ın Juninyonu 5 milyon avroya “Flamenqo”ya satması gündəmi zəbt edib. Amma hansısa futbolçumuza hansısa xarici klubdan real təklif gəlməsi barədə xəbərlər yoxdur, olması da qeyri-mümkün görünür.

Azərbaycan millisində oyununu təriflədiyimiz Elvin Cəfərquliyev 2024-cü ildə antirekordla yadda qalıb. İl ərzində dünyada üç oyunçu hərəyə 4 qırmızı vərəqə alıb və onlardan biri də “Qarabağ”ın müdafiəçisidir. Cəfərquliyev Avropa Liqasının "Braqa", "Bayer" və "Ayaks", həmçinin ölkə çempionatının "Araz-Naxçıvan"la görüşlərində meydandan qovulub. Belə futbolçuya hansı klub təklif göndərər ki?

Azərbaycan Premyer Liqasının bombardirləri siyahısında ilk “beşlik”də azərbaycanlı oyunçular yer almayıblar. Ən çox qol vuran futbolçumuz 5 qolla Toral Bayramovdur ki, o da cinah müdafiəçisidir. Düzdür, ədalət naminə qeyd etmək lazımdır ki, “Qarabağ”ın oyunçusunun arada Türkiyə klublarının (“Qalatasaray”, “Trabzonspor”) maraq dairəsinə düşməsi barədə məlumatlar yayılır, amma bunlar elə söz-söhbət olaraq da qalır.

Bizim futbolçular, əsasən, Türkiyənin aşağı liqa klublarında top qova bilirlər. Ən yaxşı legionerimiz hesab olunan Mahir Emreli isə “Nürnberq”in heyətində 2-ci Bundesliqada mövsümün ilk yarısında cəmi 3 qolla yadda qalıb – o da sonuncu dəfə iki ay əvvəl fərqlənib. Halbuki Almaniya kuboku da nəzərə alınmaqla, ardıcıl dörd oyunda qol vuranda sevinib, nəhayət, uğurlu çıxışlarını davam etdirəcəyinə ümidlənmişdik.

“Nürnberq”in baş məşqçisi Miroslav Kloze bu yaxınlarda azərbaycanlı futbolçu haqqında danışarkən maraqlı məqamlara toxunub: “Mahir ilə ünsiyyət qurmaq asan deyil. Etmədiyi bəzi şeyləri ona iki və ya üç dəfə başa salmalı olursan. Mahirə aut və künc zərbələri zamanı harada dayanmalı olması ilə bağlı məsləhətlər verilir”.

Əslində, bu sözlər Azərbaycan futbolçularının səviyyəsini bariz nümayiş etdirir. Güclü özül olmadığından onlar özlərini nə ölkə çempionatında, nə də beynəlxalq arenada göstərə bilirlər. Təsadüfən xarici kluba keçdikdə isə orada möhkəmlənə bilmirlər.

Heç Azərbaycan klubları da futbolçu yetişdirib satmaqda maraqlı deyil. Mövsümü keçirmək üçün pulu AFFA, yəni dövlət verir. Əlavə qazanc əldə etmək isə bacarıq tələb edir.

Mövsümün ilk yarısına baxsaq, demək olar ki, hər klubda 10-dan çox legioner çıxış edib. İstər “Qarabağ” olsun, istərsə də ortabab, ya da autsayder klublar – hamısı əcnəbi oyunçulara üstünlük verir. Halbuki hər klubun əvəzedici heyəti, aşağı yaş qrupları üzrə komandaları var. Oyunçu isə yetişmir. Ya da düzgün yetişdirilmir. Şərait – meydan və s. yoxdursa, məşqçilərin səviyyəsi yüksək deyilsə – yetişməyəcək də. İllər bir-birini əvəz edir, heç nə də dəyişmir.

Premyer Liqada oynayan futbolçular da kifayət qədər yüksək maaş aldıqlarından komfort zonasını tərk edib, heç yerə gemək niyyətində deyillər. Beləcə, necə deyərlər, qapalı dairə yaranır.

Özbəkistan çempionatında “Olimpik” adlı komanda var, heyətində gənc özbəkistanlı futbolçular oynayırlar. Ötən mövsüm 14 komanda arasında 12-ci olsalar da, əsas nəticə deyil, gənclər təcrübə qazanırlar.

“Olimpik” 2021-ci ildə Özbəkistan futbolunun Paris-2024 Olimpiadasında təmsil olunması məqsədi ilə futbolçular yetişdirmək üçün yaradılıb. Komanda Özbəkistan Futbol Assosiasiyası və Özbəkistan Olimpiya Komitəsi tərəfindən təşkil olunub. Heyətə Superliqa klublarının əvəzedici komandalarından gənc futbolçular cəlb edilib. Nəticədə Özbəkistan gənclər arasında Asiya kubokunda ikinci yeri tutub, Olimpiadaya vəsiqə qazanıb. Paris-2024-də isə ümumi hesabda 13-cü olublar.



İndi isə Özbəkistan futbolunun əsas hədəfi 2026-cı il dünya çempionatına vəsiqə qazanmaqdır. Mundial iştirakçılarının sayı artırılıb – orada ilk dəfə 48 komanda mübarizə aparacaq. DÇ-2026-da Asiya üçün 8+1 yer ayrılıb ki, bu da özbəklərin şansını artırır. FIFA reytinqinə əsasən, Özbəkistan qitədə gücünə görə 7-cidir. Deməli, ABŞ, Kanada və Meksika meydanlarında “Mançester Siti”li Xusanov, “Roma”lı Eldor Şomurodov, həmçinin parlamaqda olan digər özbəkistanlı ulduzları görə biləcəyik.

Bizə isə 2011-ci ildə olmuş bir hadisəni xatırlamaq qalır: azərbaycanlı futbolçu Araz Abdullayev “Everton”la müqavilə bağlasa da, bu komandanın əsas heyətində bir oyun belə keçirmədən Azərbaycana qayıdıb. Çox təəssüf!

***Rasim MÖVSÜMZADƏ***

“Finex Kredit” BOKT ASC səhmdarlarının nəzərinə!

17 fevral 2025-ci il saat 11.00-da Bakı şəhəri, S.Rüstəm küçəsi 11 nömrəli ünvanda “Finex Kredit” BOKT ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

1. Nizamnaməyə dəyişiklik edilməsi barədə müzakirə.
2. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə əlaqədar sənədlərlə hər həftənin çərşənbə axşamı günləri saat 12.00-dək tanış ola bilərlər.

Əlaqə telefonu – (+994 12) 440-56-15.

E-mail – info@finexkredit.az

Ünvan – Bakı şəhəri, S.Rüstəm küçəsi 11.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan maye qazın (propan) və balonlara illik texniki xidmətlərin satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il yanvarın 21-i saat 17.00- a qədərdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

*Cəmiyyətə məxsus müxtəlif inzibati binalarda kanalizasiya xətlərinin təmiri, təmizlənməsi və suyun çəkilməsi xidmətlərinin satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 27 yanvar 2025-ci il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3704).

Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

**“Salyan Nəqliyyat” ASC kreditorlarının nəzərinə!**

**“Salyan Nəqliyyat” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağının 12 noyabr 2024-cü il tarixli qərarı ilə “Salyan Nəqliyyat” ASC ləğv edilmişdir.Bununla əlaqədar olaraq “Salyan Nəqliyyat” ASC-nin kreditorları 2025-ci il yanvarın 25-nə qədər cəmiyyətin təsviyəçisinə (əlaqə nömrəsi – 050 213-26-29) müraciət edə bilərlər.**

***“Salyan Nəqliyyat” ASC-nin təsviyəçisi Fazil Ləzgiyev.***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 09 (30703) 16 yanvar 2025-ci il, cümə axşamı


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

### 2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.


8 NOYABR ZƏFƏR GÜNÜDÜR!
Xalq qəzeti
44 günlük Vətən müharibəsi 33 illik Qarabağ münaqişəsinə son qoydu
Qarabağ Zəfərinin dərsləri

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


İdman

# Güləş millilərimizin ilk təlim-məşqi

**Güləş üzrə Azərbaycan milli komandaları təlim-məşq toplanışına start veriblər.**



Azərbaycan Güləş Federasiyasından (AGF) verilən məlumata görə, hər üç millimiz AGF-nin təlim-məşq bazasında hazırlıq keçir. Güləşçilər məşqçilərin nəzarəti altında həm fiziki, həm də taktiki-texniki çalışmaları yerinə yetirirlər.

Sərbəst güləş üzrə yığmanın bir qrupu yanvarın 19-da Dağıstana yollanacaq. Komanda əsas heyəti fevralın 1-dək Mahaçqalada təlim-məşq toplanışı keçəcək.

Yunan-Roma və qadın güləşi üzrə milliləri isə fevralın 5-9-da Xorvatiyada keçiriləcək ilin ilk reytinq turnirinədək məşqləri doğma məkanda davam etdirəcək. Hər iki seçmə "Zaqreb Open"dən sonra qarşıdakı mühüm yarışlara ölkə xaricində hazırlaşacaq.

# "Paris-2024"ün medalları görkəmini itirir

**Fransanın paytaxtı Parisdə keçirilən XXXIII Yay Olimpiya və Paralimpiya Oyunlarında mükafat qazanan 100-dən artıq idmançının qazandığı medallar keyfiyyət səbəbindən geri qaytarılıb. Təəssüf ki, Azərbaycan idmançıları da bu halla rastlaşıblar. "Paris-2024"-də gümüş mükafat qazanan taekvondoçu Qaşim Maqomedov (58 kq) və yunan-Roma güləşi üzrə yarışlarda bürünc medal əldə edən Həsrət Cəfərovun (67 kq) medallarının keyfiyyətini itirməsi aşkar edilib.**





Bu barədə Milli Olimpiya Komitəsinin mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, Paris Olimpiadasında medal qazanan digər mükafatçılarımızın medallarının keyfiyyəti də yoxlanılacaq. Əgər həmin medallarda da hansısa bir dəyişiklik aşkar edilərsə, onların geri qaytarılması üçün Beynəlxalq Olimpiya Komitəsinə (BOK) rəsmi müraciət ünvanlanacaq. Ali qurum müraciəti təsdiqlədikdən sonra medallar yenisi ilə əvəz olunacaq.

Xatırladaq ki, çoxsaylı şikayətlərdən sonra Paris Oyunlarının Təşkilat Komitəsi zədə və ya keyfiyyətsizliyə görə şikayət edən bütün idmançıların medallarını dəyişdirəcəyini vəd edib.

***L.QURBANOVA***
***XQ***

Hava

# Yağış yağacaq, duman olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 16-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir.**



Axşama doğru tədricən kəsiləcək. Cənub-şərq küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 3-6°, gündüz 6-9° isti olacaq. Atmosfer təzyiqi 768 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək.

Lakin gecə və səhər bəzi şərq rayonlarında, gündüzdən isə əksər yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 6-11° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 0-5° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Lənkəranlıların Füzuli sevgisi



**Lənkəran Dövlət Dram Teatrında böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə həsr edilmiş bədii-poetik konsert proqramı keçirilib.**

Tədbir Lənkəran şəhər Cəfər Cabbarlı adına 1 nömrəli uşaq musiqi məktəbinin müəllim və şagird kollektivinin təşkilatçılığı ilə ərsəyə gəlib.

Konsertdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, millət vəkili Fariz İsmayılzadə və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbir zamanı Məhəmməd Füzulinin qəzəlləri səsləndirilib, milli muğamlarımızın zərif nümunələri ifa olunub və ədəbi kompozisiyalar təqdim edilib.

***Leyla HADI***
***tələbə-jurnalist***

Yaşıl adalar

# Xəzərin Samur–Yalama sahilləri



**Samur–Yalama Milli Parkı barədə söz açmazdan öncə qeyd edək ki, ölkəmizin ərazisində 10 milli park fəaliyyət göstərir və bu, onlardan bəhs edən 7-ci yazıdır. Məqsədimiz ana təbiətimizin füsunkarlığından, flora və faunamızın rəngarəngliyindən, təbii sərvətlərimizin qorunması istiqamətində görülən işlərdən söz açmaqdır.**

İndi isə keçək əsas mətləbə. Samur–Yalama Milli Parkı Azərbaycan Respublikası Prezidentinin 5 noyabr 2012-ci il tarixli sərəncamı ilə Xaçmaz rayonunun inzibati ərazisində yaradılmışdır. Dərhal qeyd edək ki, bura, həqiqətən ecazkar bir məkandır.

2012-ci ildə yaradılan Samur–Yalama Milli Parkı ölkəmizin şimalında, Xaçmaz rayonu ərazisində yerləşir. Digər parklardan bir çox özəl cəhətlərinə görə fərqlənir. Belə ki, əgər relyefinə görə Göygöl Milli Parkı dağlıq ərazilərdə, Ağgöl parkı göl və bataqlıqlarda, Şirvan parkı çöl, yarımsəhrada yerləşirsə, Samur–Yalama Milli Parkının həm meşəsi, həm çölü, həm də dənizi var. Bu parkın fərqliliyi həm də ondadır ki, o, Xəzər dənizinin sahil xətti boyunca qərar tutub və yalnız çimərlik zolağı meşə və dənizi bir-birindən ayırır.

Xatırladaq ki, Samur–Yalama Milli Parkının yaradılması layihəsi 2001-ci ildə Almaniya Federativ Respublikası İqtisadi İnkişaf Və Əməkdaşlıq Nazirliyi tərəfindən təsis olunmuş Qafqaz Təşəbbüsünün bir hissəsi olan Ekoregional Təbiəti Mühafizə Proqramı üzrə həyata keçirilib. Milli Parkın təşkili üçün Samur-Yalama zonasında 12 500 hektar meşə əraziləri və kənd təsərrüfatı istiqamətində istifadə olunan torpaqlar ayrılıb.

Layihə Samur-Yalama ərazisinin ekosisteminə daxil olan biomüxtəlifliyin qorunmasına töhfə vermək məramı daşıyır. Məlumat üçün bildirək ki, layihənin 2010-2013-cü illər ərzində həyata keçirilməsi üçün Almaniya İnkişaf Bankı 2.5 mln avro vəsait ayırıb.

Milli parkın cənub-şərqində bataqlıqlar və su hövzələrinin yerləşdiyi sahədə nadir köçəri quş növlərinə rast gəlinir. Ərazinin florasında itburnu, sarmaşıq, dazı, yağı otu, ballı nanə və başqa dərman bitkiləri geniş yayılmışdır. Torpaqları çəmən-meşə, şabalıdı və açıq şabalıdıdır. Burada çəmən və kolluqlar çoxdur. Düzənlik meşələri də var.

Parkın faunası da kifayət qədər zəngindir. Ərazidə çöl donuzu, yenot kimi heyvanlara, qırqovul, kəklik kimi quşlara tez-tez rast gəlinir. Sahil sularında balıqlar (külmə, kilkə, şamayı və s.) boldur.

Milli parkı əhatə etdiyi sahədə termal və mineral su bulaqları mövcuddur. Qeyd etmək lazımdır ki, bütövlükdə Xaçmaz rayonunda ovçuluq və balıqçılıq uçun yaxşı şərait var. Xaçmaz Rayon Ovçular Cəmiyyətinin nəzdində "Gülalan gölü" qoruğu da fəaliyyət göstərir.

Samur-Yalama Milli Parkı yerli və xarici turistlərin sevə-sevə ziyarət etdikləri məkanlardandır. Üstəlik, yaxınlıqdakı Nabran qəsəbəsində çox sayda turizm və istirahət məntəqələri yerləşir. Yəni burada yaxşı istirahət üçün hər cür imkanlar var. Ümid edirik ki, yolunuz bu tərəflərə düşərsə, narazı qalmazsınız.

Hər birimizə yaxşı bəllidir ki, haqqında söhbət açdığımız park Samur çayının sağ sahilindəki ərazilərdə yerləşir. Bu məqamda bir neçə kəlmə də bu bolsulu çayın poeziyamızda vəsf olunması barədə söz açmasam olmaz.

Qeyd etməyə dəyər ki, Kür və Araz çayları ilə bərabər, Samur çayı da şairlərin diqqətindən kənarda qalmayıb. Onlardan biri də mərhum şair Oqtay Rzadır. Samurun "mirvari ləpələri"nə heyranlığını gizlətməyən mərhum şair bir vaxtlar yazıb:

***Samur - simfoniya, axır Xəzərə,***
***Ürəkdən heyranam mən bu əsərə.***

***M.HACIXANLI***
***XQ***

# Kimsəsiz olmasın bircə uşaq da



**"Flame Towers"də ("Alov qüllələri") rejissor, aktyor Hikmət Rəhimovun "Apatiya 2" filminin qala gecəsi keçirilib. Gecədə filmin yaradıcı heyəti, tanınmış incəsənət adamları və media təmsilçiləri iştirak ediblər.**

Filmin quruluşçu operatoru İman İmanov, bəstəkarı Qurban Abbaslı, quruluşçu rəssamı Zaur Abdullayevdir. Rolları Əməkdar artist Vaqif Kərimov, aktyorlar Hikmət Rəhimov, Azər Aydəmir, Əjdər Zeynalov, Zülfiyyə Qurbanova, Rasim Cəfər, Şəhla Əliqızı və başqaları ifa edirlər.

Ekran işi sevgi və diqqətdən kənarda qalan uşaqlara ithaf olunur. Film həm də müəllif təxəyyülünün cəmiyyətdə dərinləşən sosial və psixoloji problemlərə münasibətidir.

Rejissor bu filmi tammetrajlı bədii ekran əsəri olan "Apatiya"nın davamı olaraq çəkib. Filmdə uşaq evlərində böyüyən uşaqların acı taleyi göz önünə gətirilir.

Filmin əsas qəhrəmanları kiçik yaşlarından valideyn himayəsindən məhrum olmuş və yetimlər evində böyüyən Akif və İlkindir. Ana-ata qayğısı görməyən bu azyaşlıların həyatdan aldığı ağır zərbələr onların sonrakı talelərinə təsirsiz ötüşmür. Atasının həbsə düşməsi səbəbindən Akif uşaq evinin sakininə çevrilir.

Akif və İlkin sığınacaqda həmyaşıdlarının başına gətirilən tükürpədici olayları eşidib oradan qaçmağa məcbur olurlar. Və əsas hadisələr məhz bundan sonra başlayır. Dostlar bir müddət dilənçi və səfil həyatı sürürlər.

Filmdən çıxan nəticə budur ki, bütün uşaqların xoşbəxt və qayğısız yaşamaq haqqı var.

***Fidan SALMANOVA***
***XQ***



# "Əli və Nino"nun sevgi odası

**Azərbaycan Milli İncəsənət Muzeyində yazıçı Qurban Səidin dünyaca məşhur "Əli və Nino" romanının əsasında "Sevgi odası: Əli və Nino balı" adlı immersiv tamaşa keçirilib. İlqar Safatın rejissorluğu ilə hazırlanan bu unikal tamaşa Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aktyorları tərəfindən tamaşaçılara təqdim olunub.**

Əli və Nino rollarında Murad İsmayıl və Səma Vəliyeva çıxış ediblər. Digər rolları isə Azərbaycanın Əməkdar artistləri Maqsud Məmmədov, Salman Bayramov, Elmira Aslanova və Yelena Spitsına ifa ediblər. Tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayev, xoreoqrafı Nigar Rzayevadır. Səhnə tərtibatı isə Valentina Reznikovaya aiddir.

Teatrın aktyor heyəti "Əli və Nino" tamaşasından kiçik səhnələr və o dövrə məxsus rəqslər ifa ediblər. Qonaqların Şərq zərifliyini və Avropa eleqantlığını əks etdirən kostyumlarda qatıldığı gecə muzeydə ecazkar ab-hava yaradıb.

Muzeyin direktoru Şirin Məlikova çıxış edərək aktyorlara və qonaqlara öz təşəkkürünü bildirib, belə gözəl sənət məkanında bu kimi maraqlı və unikal tədbirlərin davam edəcəyinə ümid etdiyini vurğulayıb.

İştirakçılar muzeydən unudulmaz təəssüratlarla ayrılıblar.

***S.FİDAN***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2901
SİFARİŞ 12
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00